# Xalq qəzeti

Xalqın qəzeti!

№ 06 (30700) 12 yanvar 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Azərbaycan – Fransa: itirilməyən nə qalıb?

*Prezident İlham Əliyevin mesajları rəsmi Parisi düşündürməlidir!*



**“Həmkarlarımdan aldığım məlumata görə, Fransa prezidenti şəxsən onlara zəng edərək Bakıya getməməyi tövsiyə edirmiş. Yəni, liderlərin buraya səfər etmələrinin qarşısını almaq üçün hətta belə vasitəyə də əl atılmışdır. Lakin bu da uğursuz oldu. Səksən dövlət və hökumət başçısı Bakıya səfərə gəldi və bu, bir daha Azərbaycanın etibarlı tərəfdaş olduğunu nümayiş etdirdi”.**

Bu fikirləri Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində Fransanın COP29 pozuculuğuna münasibət bildirərkən səsləndirib. Dövlətimizin başçısı Parisin anti-Azərbaycan fəaliyyətinə dair bir sıra digər məqamlara da toxunub. Bu qeydlərimizdə həmin məqamların üzərində dayanacağıq.

Əminliklə deyə bilərik ki, COP29-u boykot etmək, nüfuzlu tədbirə evsahibliyinin fonunda ləkələyici mövqe tutmaq rəsmi Parisin Bakıya qarşı son illərdəki yarıtmaz fəaliyyətinin kulminasiya anı idi. Bu yarıtmazlığa ötən 4 ildəki anti-Azərbaycan xəttin pik həddi də demək mümkündür. Hər şey isə 2020-ci ildən başlamışdı. Dövlətimizin başçısının bildirdiyi kimi, Fransa hakim zümrəsinin rəhbərləri həmin ildəki Qələbəmizi özlərinin məğlubiyyəti sayırdılar.

Prezident İlham Əliyev əbəs yerə vurğulamır ki, fransız siyasi səhnəsində konsensus varsa, həmin konsensus yalnız azərbaycanofobiya zəminindədir. Bu, həqiqətən belədir. Başqa sözlə desək, ermənipərəstlik Fransa düşüncə tərzinin iliyinə işləyib. Sadəcə, müharibəyədək mövcud meyil, bir növ, pərdələnmiş halda idi. Ancaq Azərbaycanın Zəfəri bütün maskaları yırtdı.

Bəri başdan ümumiləşdirmə apararaq deyə bilərik ki, Prezident İlham Əliyevin Fransa ilə əlaqədar açıqladığı məqamlarda həm ölkənin ənənəvi ermənipərəstlik xəttinin göstəriciləri, həm bilavasitə Emmanuel Makron administrasiyasının tutduğu yolun ayrı-ayrı xoşagəlməz xüsusiyyətləri, həm də Parisin anti-Azərbaycan fəaliyyətinin nəticəsizliyinin fransız dairələri tərəfindən başa düşülməsi gerçəkliyi əksini tapır. Əvvəlcə, birinci məqamdan söz açaq.

**(ardı 3-cü səhifədə)**

## Azərbaycan D-8-ə iqtisadi güc qatacaq



**Mürəkkəb geosiyasi şəraitdə bu gün heç bir ölkənin böhran və təhdidləri təkbaşına həll edə bilməməsi məlum həqiqətdir. Buna görə də müxtəlif müttəfiqlik mexanizmlərinin yaranması təsadüfi xarakter daşımır. Amerikalı politoloq, beynəlxalq münasibətlər üzrə mütəxəssis Stiven Uoltun dediyi kimi, dövlətlər təkcə gücə deyil, həm də təhdidlərə cavab olaraq birləşirlər. Ona görə də proqramları məqsəd və siyasətləri ilə üst-üstə düşən ölkələrin ittifaqlara girməsi təbiidir. Dünya miqyasında önəmli aktor olan Azərbaycanın milli maraqlara cavab verən birliklərə üzv olması günün reallığına uyğun olmaqla yanaşı, ölkəmizin malik olduğu potensialın ittifaqın daha da güclənməsinə təkan verəcəyi ilə də maraq doğurur.**

Səkkiz inkişaf etməkdə olan ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatı 27 illik fəaliyyətində ilk dəfə olaraq öz sıralarını genişləndirdi – Azərbaycan “İslam Səkkizliyi”nə qoşuldu. Ölkəmiz dekabrın 19-da təşkilatın Qahirədə keçirilən XI sammitində yekdilliklə D-8-in üzvü seçildi. Əlbəttə, Azərbaycanın namizədliyinin dəstəklənməsi D-8 ölkələri ilə səmimi dostluğumuzun və əməkdaşlığımızın göstəricisidir. Türkiyənin təşəbbüsü ilə yaradılan D-8 təşkilatı 30 ilə yaxındır ki, fəaliyyət göstərir və ilk dəfə olaraq genişlənməyə qərar verdi. Yeni üzv Azərbaycan oldu və bu, əlbəttə ki, ölkəmizin dünyada oynadığı önəmli rola verilən yüksək qiymət kimi dəyərləndirilir.

“İslam Səkkizliyi”nin malik olduğu potensial çox böyükdür.

**(ardı 4-cü səhifədə)**

## Moderatorluq hara, hərbi sponsorluq hara?



Səhifə ⇨ 4

## İrəvanda qəfəsə salınmış “sülh göyərçini”



Səhifə ⇨ 5



## Ölkəmiz Şimal – Cənub nəqliyyat dəhlizinin də önəmli qovşağıdır

**Beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişdiyi məkanda yerləşən Azərbaycan tranzit yükdaşımaların həyata keçirilməsində mühüm rol oynayır. Bu da ölkəmizin mühüm nəqliyyat habına çevrilməsi ilə yanaşı, tranzit sahəsində əməkdaşlıq üçün geniş imkanlar yaradır. Son illər Cənub-Şərqi Asiya ölkələri ilə Rusiya və Şimali Avropanı nəqliyyat baxımından birləşdirən Şimal – Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin funksionallığının artması müşahidə olunur.**

Sözügedən marşrutun funksionallığının artırılmasında yaxından iştirak edən Azərbaycanda da bu istiqamətdə vacib işlər görülür. Bu da nəqliyyat dəhlizinin ölkəmizin ərazisindən keçən hissəsi ilə tranzit daşımaların artmasına səbəb olur. Təkcə onu qeyd etmək kifayətdir ki, yola saldığımız 2024-cü ildə Şimal – Cənub dəhlizi ilə Azərbaycan ərazisindən 814 min ton tranzit yük daşınıb ki, bu da əvvəlki illə müqayisədə 28 faizdən çoxdur.

**(ardı 7-ci səhifədə)**

## Naxçıvan, Şərqi Zəngəzur və Qarabağ “yaşıl enerji” poliqonuna çevrilib



Səhifə ⇨ 7

## “Şirvani” libası Əfqanıstandan Şri-Lankaya qədər necə yayılıb?



Səhifə ⇨ 6

## Trampın Qrenlandiya və Panama açıqlaması



Səhifə ⇨ 11

# Ş.S.Bağırovun 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında gömrük işinin inkişaf etdirilməsində xidmətlərinə və gömrük orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Şahin Soltan oğlu Bağırov 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 yanvar 2025-ci il**

# XİN ABŞ-a başsağlığı verdi

**Azərbaycan Xarici İşlər Nazirliyi Kaliforniyada meşə yanğınlarında həlak olanlarla bağlı ABŞ hökümətinə və xalqına başsağlığı verib. Bu barədə XİN-in “X” hesabında paylaşım edilib.**



“ABŞ-ın Kaliforniya ştatında meşə yanğınlarının törətdiyi geniş dağıntılar bizi dərindən kədərləndirir. ABŞ hökumətinə, xalqına və qurbanların ailələrinə dərin hüznlə başsağlığı veririk. Yaralıların tezliklə sağalmasını arzu edirik”, – deyə paylaşımda qeyd olunub.

Xatırladaq ki, Kaliforniyada meşə yanğınları yanvarın 7-dən davam edir. Hadisə nəticəsində 11 nəfər həlak olub.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 4** **Bakı şəhəri, 10 yanvar 2025-ci il**

**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 2 may tarixli 38 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 2 may tarixli 38 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2002, № 5, maddə 320 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5-ci hissədə “Dövlət sifarişi ilə istehsal edilən kinofilmlərin yaradıcılarına ödənilən müəllif qonorarlarının və sair ödənilən haqların miqdarı və verilməsi Qaydaları” sözləri “Dövlət sifarişi ilə istehsal edilən filmlərin müəlliflərinə ödənilən müəllif qonorarlarının və haqlarının minimum miqdarı və verilməsi Qaydaları” sözləri ilə əvəz edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş 10 nömrəli əlavə – “Dövlət sifarişi ilə istehsal edilən kinofilmlərin yaradıcılarına ödənilən müəllif qonorarlarının və sair ödənilən haqların miqdarı və verilməsi Qaydaları” yeni redaksiyada verilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 5** **Bakı şəhəri, 10 yanvar 2025-ci il**

**Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşlarının təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşları haqqında” 2023-cü il 16 yanvar tarixli 11 nömrəli Qərarında dəyişiklik edilməsi, “Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun işçilərinin aylıq vəzifə maaşlarının artırılması haqqında” 2023-cü il 31 yanvar tarixli 28 nömrəli Qərarının ləğv edilməsi barədə**

“Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 yanvar tarixli 442 nömrəli Sərəncamının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşlarının sxemi bu Qərarın 1-16 nömrəli əlavələrinə uyğun olaraq təsdiq edilsin.

**2.** Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda bilavasitə ixtisası üzrə çalışan işçilərə bu Qərarın 1-16 nömrəli əlavələrində qeyd olunan vəzifə maaşlarına elmlər doktoru elmi dərəcəsi üzrə 100 manat, fəlsəfə doktoru elmi dərəcəsi üzrə 60 manat əlavələr ödənilsin.

**3.** “Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 16 yanvar tarixli 11 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 132 (Cild I); 2024, № 2, maddə 234) 1-ci və 2-ci hissələri ləğv edilsin.

**4.** “Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun işçilərinin aylıq vəzifə maaşlarının artırılması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 yanvar tarixli 28 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 147 (Cild I) ləğv edilsin.

**5.** Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Bələdiyyə seçkilərinin bülletenləri çap olunub

**Yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar seçki bülletenlərinin çapına başlanılıb. Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov Komissiya üzvləri və Katibliyin təmsilçiləri ilə birlikdə mətbəəyə gələrək çap prosesinin gedişi və yaradılmış şəraitlə yerində tanış olub.**



Media nümayəndələrinin bilavasitə iştirakı ilə çap prosesinə baxış zamanı Mərkəzi Seçki Komissiyasının sədri diqqətə çatdırıb ki, vətəndaşların konstitusion hüquqlarının realizə olunmasındakı mühüm rolu nəzərə alınaraq, qanunvericiliklə müəyyənləşdirilmiş müddətdə və qaydada seçki bülletenlərinin çapı başa çatdırılmalı, bütün proses boyunca Seçki Məcəlləsinin tələblərinə dəqiqliklə riayət olunmalıdır. M.Pənahov seçki bülletenlərinin çapı və aidiyyəti üzrə aşağı seçki komissiyalarına çatdırılması ilə bağlı öz tövsiyələrini də verib.

Seçki bülletenlərinin çapı prosesi ilə tanışlıqdan sonra Mərkəzi Seçki Komissiyası sədrinin jurnalistlər üçün brifinqi də keçirilib. Həm çap prosesi, həm də ümumilikdə bələdiyyə seçkilərinə hazırlıqların gedişi barədə danışan Komissiya sədri qeyd edib ki, qanunvericiliyin tələblərinə uyğun olaraq, seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydası Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilib və bələdiyyə seçkiləri ilə əlaqədar 6 milyon 52 min 721 seçki bülleteninin çap olunmasına qərar verilib.

Bildirilib ki, artıq namizədliyin qeydə alınması mərhələsi tamamilə yekunlaşmış bələdiyyələr üzrə bülletenlərin çapına başlanılıb və seçki bülletenləri çap olunduqdan sonra qanunvericiliklə müəyyənləşdirilmiş müddətdə və qaydada Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına, ardınca dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına veriləcəkdir.

Mərkəzi Seçki Komissiyasının sədri vurğulayıb ki, bütün seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də seçki bülletenlərinin çap prosesi zəruri təhlükəsizliyin təmin edilməsi şərti ilə maraqlı subyektlər üçün tam açıq və şəffaf həyata keçirilir.

Brifinqin sonunda sədr Məzahir Pənahov jurnalistlərin suallarını da ətraflı cavablandırıb.

***XQ***

# Dünya İqtisadi Forumunun sosial mesajları

**Texnoloji inkişaf, yaşıl keçid, iqtisadi və demoqrafik dəyişikliklər qlobal əmək bazarını yenidən formalaşdırır. Qarşıdakı illərdə qlobal makrotrendlər təxminən 170 milyon yeni iş yeri yaradacaq. Bununla yanaşı, həmin tendensiyalar nəticəsində 92 milyon insan peşəsi üzrə özünə iş tapa bilməyəcək.**




Bu məlumat Dünya İqtisadi Forumunun növbəti 5 ildə əmək bazarının gələcəyini araşdıran yeni hesabatında yer alır. Bəs hansı peşələr sıradan çıxacaq və hansı yeni sahələr yaranıb inkişaf edəcək? Hesabatda bu suallara cavab tapmaq üçün sorğu keçirilib. Sorğu dünya üzrə 22 sənaye klasterini və 14 milyondan çox işçini özündə birləşdirən 1000-dən çox böyük işəgötürəni əhatə edib.

Hesabatda qeyd olunur ki, 2030-cu ilədək bəzi peşə sahibləri əmək bazarında iş tapmaqda çətinliklə üzləşəcəklər.

Bildirilir ki, kassir və bilet satıcıları, inzibati işlər üzrə köməkçilər, evlərdə təmizlik işçiləri, çap işləri ilə əlaqəli işçilər, mühasibat və əməkhaqqı üzrə kargüzarlar, auditorlar, yük daşıyıcıları və konduktorlar, mühafizəçilər, bəzi bank işçiləri, data məlumat daxilediciləri, müştəri məlumatları üzrə işçilər, qrafik dizaynerlər, biznes servis və administratorlarının iş tapmaqda digər peşələrlə müqayisədə bəxtləri gətirməyəcək.

Hesabata görə, qarşıdakı illərdə avtomobil, kiçik həcmli yük maşını və motosiklet sürücülərinə, kənd təsərrüfatı işçilərinə, çatdırılma xidmətləri göstərən sürücülərə, proqram və applikasiya təminatı işçilərinə, inşaat üçün konstruksiyaların quranlara, mağaza satıcılarına, qida emalçılarına, peşəkar tibb bacılarına, qida və ərzaq xidməti göstərənlərə, sosial xidmət işçilərinə, layihə menecerlerinə, orta və ali təhsil müəssisələrinin müəllimlərinə, fərdi qulluq işçilərinə ehtiyacın artacağı proqnozlaşdırılır.

Bəzi peşələr sürətlə inkişaf edir. Texnoloji inkişaf, xüsusən də süni intellekt ilə əlaqəli işlərə tələb sürətlə artır. Beləliklə, süni intellekt, böyük verilənlərlə (big data) iş, texnologiya mühəndisliyi 2030-cu ilədək ən çox tələb olunan peşələrdən olacaq.

Karbon emissiyalarının azaldılması və iqlim böhranına uyğunlaşma səylərini əhatə edən yaşıl keçid meyilləri kənd təsərrüfatı sahəsində artımı sürətləndirəcək və 2030-cu ilə qədər 34 milyon əlavə iş yeri yaradacaq. Rəqəmsal əlçatanlığın genişlənməsi və yaşayış xərclərinin artması da bu sahə ilə əlaqəli peşələrin inkişafına töhfə verir.

Qida emalı sahəsində də işçilərə tələbatın artacağı gözlənilir. Bununla yanaşı, tibb bacıları, sosial işçilər və psixoloji məsləhətçilər kimi qayğı sektoru ilə bağlı işlərin də növbəti beş il ərzində əhəmiyyətli dərəcədə artacağı gözlənilir. Hesabat bunu əsasən demoqrafik tendensiyalar, xüsusən də işçi qüvvəsinin yaşlanması ilə izah edir.

İş bazarında tələb olunan əsas bacarıqların 39 faizinin 2030-cu ilə qədər dəyişəcəyi gözlənilir. Ümumiyyətlə, qarşıdakı illərdə iş seçimində peşəkarlıqla yanaşı, yaradıcı və analitik düşünmə, çeviklik, bilik və bacarıqları artırmağa həvəs, təşəbbüskarlıq kimi xüsusiyyətlər əsas götürüləcək.

***XQ***

# Latviya ilə vergi əməkdaşlığı




**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi, Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) prezidenti Orxan Nəzərli Latviyanın Dövlət Gəlir Xidmətinin baş direktoru Bayba Smite Roçe ilə videoformatda görüş keçirib.**

Söhbət zamanı ikitərəfli əlaqələrin inkişaf etdirilməsi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində müzakirələr aparılıb. Tərəflər həm ikitərəfli səviyyədə, həm də IOTA çərçivəsində administrasiyalar arasında birgə fəaliyyətin şaxələndirilməsi, vergi sahəsində təcrübə mübadiləsi və yeni əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparıblar.

Qeyd olunub ki, tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi hər iki ölkə üçün iqtisadi təcrübələrin təşviqi baxımından əhəmiyyət daşıyır. Tərəflər rəqəmsal vergi inzibatçılığı, elektron ticarətlə məşğul olan şəxslərin vergiyə cəlb edilməsi, əməkhaqqından tutulan gəlir vergisi və sosial ayırmalar, əmlak vergisinin vaxtında və tam həcmdə ödənilməsi, kölgə iqtisadiyyatı ilə mübarizə məsələlərini, eləcə də ƏDV inzibatçılığı sahəsində potensial əməkdaşlıq istiqamətlərini nəzərdən keçiriblər.

***XQ***

# Hərbi sursatlar zərərsizləşdirilib

**Fövqəladə Hallar Nazirliyinin “112” qaynar telefon xəttinə Naxçıvan şəhəri, Azərbaycan məhəlləsində hərbi sursatların aşkar edilməsi barədə məlumat daxil olub. Muxtar respublika Fövqəladə Hallar Nazirliyinin pirotexnikləri dərhal hadisə yerinə cəlb edilib.**



Baxış zamanı aşkar edilmiş sursatların 6 ədəd 88 mm-lik top mərmisi, 1 ədəd 120 mm-lik top mərmisi, 1 ədəd 60 mm-lik top mərmisi və 1 ədəd 60 mm-lik minaatan mərmisi olduğu müəyyən edilərək götürülüb.

***XQ***

# Ankarada “Azərbaycan gecəsi”

**Ankara şəhərində Gənclik Parkının Mədəniyyət Mərkəzində “Ankarada Azərbaycan gecəsi” adlı konsert proqramı təşkil olunub.**



Şənlikdə çoxsaylı qonaqlar - diplomatlar, Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin təmsilçiləri, mədəniyyət və ictimaiyyət xadimləri, yerli azərbaycanlılar iştirak ediblər.

Təntənəli toplantı Azərbaycanın Türkiyə Respublikasındakı səfirliyinin tabeliyindəki Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə təşkil olunub. Mərkəzin direktoru Samir Abbasov iki qardaş ölkə arasında mədəni əlaqələrin inkişafı istiqamətində görülən işlərdən danışıb, Türkiyə və Azərbaycan xalqlarının bütün sahələrdə, o cümlədən mədəniyyət sahəsində tarixi yaxınlığına diqqət çəkib.

“Qardaşlığımızın ən gözəl təzahürü Ümummilli lider Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlamıdır”, – deyən S.Abbasov Azərbaycan ilə Türkiyə arasındakı əməkdaşlığın bütün dünya üçün örnək olduğunu vurğulayıb. O, Prezident İlham Əliyevin qərarı ilə Türkiyədə Azərbaycan Mədəniyyət Mərkəzinin yaradılmasını iki ölkə arasında mədəni əlaqələrin daha da yaxınlaşmasına və Azərbaycan mədəniyyətinin təbliğinə mühüm zəmin yaratdığını vurğulayıb.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin rəsmisi Serkan Erkmen iki qardaş ölkə arasında, o cümlədən UNESCO çərçivəsində sıx əməkdaşlıqdan danışıb, son illərdə Türkiyə və Azərbaycanın 13 ortaq mədəni irs obyektinin UNESCO-nun qeyri maddi-mədəni irs siyahısına təqdim edildiyini bildirib.

Şənlikdə Azərbaycan Mədəniyyət Mərkəzinin “Zəngəzur” Rəqs Ansamblının müşayiəti ilə milli rəqslərimiz və xalq mahnılarımız ifa edilib. Ulu öndər Heydər Əliyevə həsr olunmuş hissə və dahi bəstəkar Üzeyir Hacıbəylinin məşhur “Arşın mal alan” operettasından musiqi mərasimə təntənə gətirib.

***XQ***

# Azərbaycan – Fransa: itirilməyən nə qalıb?



(əvvəli 1-ci səhifədə)

Dövlətimizin başçısı vurğulayıb ki, Fransada hakimiyyətə can atan istənilən qüvvə ermənilərin xoşuna gəlmək, erməni lobbi və diaspor təşkilatlarının rəğbətini qazanmaq üçün, necə deyərlər, dəridən-qabıqdan çıxır. İndiyədək də belə olub. Ancaq heç bir qüvvə Makron iqtidarı kimi siyasi əxlaqdan və etikadan uzaq davranmayıb. Baxmayaraq ki, 44 günlük müharibə tamam başqa hadisə idi və maskaların yırtılması üçün müəyyən mənada əsas yaranmışdı, hər bir halda, ermənipərəstlik naminə haqqında söz açdığımız siyasi etikanı ikinci plana atmağa dəyməzdi. Rasional davranmaq, sadə bir suala cavab tapmaq lazım idi: Məgər Fransa erməni amili olmadan keçinə bilməz? Özünü demokratiya, mütərəqqi dəyərlər beşiyi sayan ölkə sözgügedən amildən bu qədərmi asılı hala düşüb? Düşübsə və bizim diqqətdən qaçırdığımız hansısa böyük bir səbəb varsa, o zaman Fransanın durumu həqiqətən çox rəzil və miskindir. Ümid edək ki, belə deyil. Hətta bir qədər pozitiv olaraq, heç də hər şeyin itirilmədiyini düşünək.

*

İkinci məqama keçid alaq. Bildirdiyimiz kimi, Makron administrasiyası ölkəsində son otuz ilin ermənipərəstlik yarışının lideridir. Amma jurnalist Mark Endeveldin Fransa prezidenti barədə qələmə aldığı “Böyük manipulyator” kitabına nəzər salanda adamda belə təsəvvür yaranır ki, Makron siyasi ambisiyaları naminə, necə deyərlər, hər kəsi keçi qiymətinə satmaq potensialına malikdir. Bu şəxs üçün məqsədinə çatmaq yolunda heç bir müqəddəs dəyər yoxdur. Yəni, bütün dəyərləri tapdalamağa hazırdır. Müvafiq olaraq, belə nəticəyə gəlirik ki, o, erməni amilinə yalnız alət kimi yanaşır.

Qətiyyətlə söyləmək mümkündür ki,



idarəçilik baxımından səriştəsizliyi ilə seçilən Makronu Fransanın, fransız xalqının rifahı maraqlandırmır. Maraqlandırsaydı, dövlət başçılığının öz “əyninə biçilmədiyini” dərk edərdi. Dərk etmir, çünki avantüristdir və nəyin bahasına olursa-olsun hakimiyyətdə qalmağı düşünür. O, “erməni kartına” siyasi sərmayə yatıraraq, Cənubi Qafqaz coğrafiyasında məkrli oyun quruculuğuna girişir.

Makron dünyanın anti-Rusiya köklənişini görür və bu köklənişin regionumuzdakı seqmentini aktiv saxlamağa çalışır ki, dünyada rəğbət formalaşdırsın. Axı özünü başqa cür təsdiqləmək imkanından məhrum duruma düşmüş siyasi qısırdır. Jurnalist Endeveld də kitabında həmin qısırlığın müxtəlif təzahürlərindən söz açır, təsdiqləyir ki, daxildəki uğursuzluqlarını xaricdə sığortalamağa çalışan Makron ermənipərəstliyi pik həddə çatdırır. Bu cəhət onu Fransanın son otuz illik tarixindəki ən uğursuz liderə çevirir.

*

Haqqında söz açdığımız üçüncü məqama keçid alaraq Prezident İlham Əliyevin müsahibədə səsləndirdiyi aşağıdakı fikirlərə diqqət yetirək: “Mən prinsipcə heç vaxt danışmadığımız bir məsələni də çatdırmaq istəyirəm, zənnimcə, bu, hər hansı şəkildə böhrandan çıxmağa kömək edəcək. Son bir neçə ay ərzində biz Fransa hökumətinin nümayəndələrindən təmaslar qurulması üçün siqnallar alırdıq, mənim yaddaşımda onların sayı üç və ya dörddür. Müxtəlif şəxslərdən bizim müxtəlif nümayəndələrə müraciətlər daxil olub və həmişə cavab verilib: “Biz hazırıq”. Bəli, biz elə bu gün hazırıq, amma heç yerə getməyəcəyik, nə Parisə, nə də Brüsselə. Bizimlə görüşmək lazımdırsa, burada, Bakıda mümkündür. Hər dəfə hansısa bir mərhələ olur, sonra yenidən boşluq, sükunət yaranır.

Bu yaxınlarda belə bir növbəti, verbal diplomatik depeşa daxil oldu: yenə danışmaq və müzakirə aparmaqla bağlı. Yenə də biz hazırıq, bizim onlarla bölüşə bilməyəcəyimiz heç nə yoxdur, onlara qarşı, necə deyərlər, bu ölkəyə münasibətdə heç bir iddiamız yoxdur. Əsas odur ki, bizə toxunmasınlar, bizim işlərimizə qarışmasınlar, Cənubi Qafqazla bağlı məsələlərə müdaxilə etməsinlər. Bu, artıq bizim dəqiq səsləndirdiyimiz tələbdir. Çünki hazırkı fransız hakimiyyətinin müdaxilə etdiyi hər yerdə, birincisi, rüsvayçı şəkildə uğursuzluq baş verir, ikincisi, onlar yalnız intriqa gətirirlər. Yalnız intriqa. Afrikadan danışmağın mənası yoxdur, necə deyərlər, hər şey göz qabağındadır. Cənubi Qafqazda da vəziyyət eynidir”.

Hazırda Ermənistan parlamentinin müzakirəsinə ölkənin Avropa İttifaqına qoşulmasına hesablanmış qanun layihəsi çıxarılıb. Əlbəttə, Paşinyan iqtidarı bu layihəni Azərbaycanla sülhdən yayınmağın sipəri qismində görür. Makron isə düşünür ki, İrəvanın yanında dayansın və Ermənistanı beynəlxalq ictimai rəyə Avropa ailəsinin üzvü kimi sırısın. Bu yolla özünü dünyaya Cənubi Qafqazı Rusiyadan qoparan “qladiator obrazı”nda tanıtmaq niyyətindədir. O zaman düşünək: Fransanın Azərbaycanla vəziyyəti düzəltmək yönümlü ötəri təşəbbüsləri müsbət nəticə verərmi? Təbii ki, yox!

*

Buradan bir nəticə hasil olur. Azərbaycan erməni amilini tam sıradan çıxarmalıdır ki, Fransa ölkəmizlə normal münasibətlərə qayıda bilsin. Çünki ermənipərəstlik pataloji xəstəlikdir. Necə ki, faşizmin Ermənistandakı kökü kəsilməlidir, Fransadakı ermənipərəstlik də eyni aqibəti yaşamalıdır. Bunun isə yalnız güc yolu var. Yəni, erməni iqtidarı ağ bayraq qaldırıb Azərbaycanın sülh şərtlərini qəbul etməklə razılaşacağı təqdirdə, Makron da eyni addımı atacaq. Necə deyərlər, ilan ulduz görməsə ölməz.

Ancaq onu da deyək ki, Azərbaycan hakimiyyəti Fransa ilə münasibətləri ölkənin ermənipərəstlik ritorikasından kənar tutur. Doğrudur, mövcud istiqamətdə də qırmızı cizgi var və Prezident İlham Əliyev müsahibəsində yaxın tarixə ekskurs edərək, həmin cizgi barədə Parisin məlumatlandırıldığını diqqətə çatdırıb: “44 günlük müharibə zamanı xatırlamıram ki, neçə dəfə – altı və ya yeddi dəfə azadlıq mübarizəmizi dayandırmaq cəhdləri ilə bağlı Fransa prezidentindən mənə zənglər daxil olurdu. Sonra təhdid cəhdləri, “Dağlıq Qarabağ”ı tanımaqla bağlı təhdidlər. Münasibətlərimizin artıq ən aşağı səviyyəyə düşdüyü indiki məqamda bu barədə deyə bilərəm, amma mən cavab verdim ki, 2020-ci ilin noyabrından sonra qondarma “Dağlıq Qarabağ”ı tanıyan istənilən ölkə bizdən diplomatik münasibətlərin kəsilməsinə dair nota alacaq. Mənim cavabım məhz bundan ibarət idi. Qondarma “Dağlıq Qarabağ”ın tanınması mövzusu dərhal gündəlikdən çıxdı. Onlar, necə deyərlər, başqa yolla getdilər, senat, parlament üzərindən tanıdılar, sonra uzun müddət özlərinə bəraət qazandırdılar ki, hakimiyyətin bununla heç bir əlaqəsi yoxdur”.

*

Bəli, Azərbaycan hakimiyyəti qırmızı cizgini gözləməklə, Fransa ilə münasibətləri ölkənin “erməni sevdasından” ayrı tutur. Bu səbəbdən hazırda fransız şirkətləri ölkəmizdə sərbəst şəkildə fəaliyyətlərini davam etdirirlər. Məsələyə dövlətimizin başçısının münasibəti belədir ki, öhdəliklərinə hörmətlə yanaşan rəsmi Bakı siyasi problemləri şirkətlərin fəaliyyətinə aid etmir və etməyib. “Burada işləyən fransız şirkətləri günahkar deyillər ki, onların belə bir hakimiyyəti var”, – deyən dövlətimizin başçısının alicənablıq nümunəsi göstərdiyi aşkardır və bunu dəyərləndirmək lazımdır.

Onu da nəzərə almaq lazımdır ki, Prezident Əliyev fikirlərini Azərbaycan – Fransa münasibətlərinin hazırkı gərgin durumundan daha pis şəklə düşməsinə dair sualı cavablandırarkən çatdırır və özünün də vurğuladığı kimi, “daha çox mətləbləri” açır. Hesab edirik ki, bu mövqe Paris üçün mesaj olmalıdır. Fransa da ABŞ kimi, Azərbaycana yanaşmasını özünün Ermənistanla əlaqələri kontekstindən çıxarmağı bacarmalı, mövcud istiqamətdə qətiyyət nümayiş etdirməlidir. Həm Fransa, həm Birləşmiş Ştatlar, bütövlükdə kollektiv Qərb Azərbaycanın işlərinə qarışmamalı, Cənubi Qafqazı rahat buraxmalıdırlar. Ona görə rahat buraxmalıdırlar ki, mövcud coğrafiyada öncül mövqeyə sahib ölkəmizin məqsədi regionda dayanıqlı sülh və əmin-amanlıq mühitini formalaşdırmaqdır. O mühiti ki, yaranması nəticəsində təəssübünü çəkdikləri Ermənistanın götürəcəyi fayda ölkəyə Qərbin avantürizmində iştirak nəticəsində gələcək mənfəətdən daha çoxdur və realdır, illüziya mahiyyətindən uzaqdır. Görəsən, Qərb, o cümlədən Fransa həqiqətən Ermənistanın qayğısına qalmaq fikrindədir? Bunu da rəsmi İrəvan düşünsün. Əgər düşünmək qabiliyyətini tam itirməyibsə...

***Ə.CAHANGİROĞLU***
***X Q***

---

**Replika**

# Mirzoyanın yaddaş problemi

## *Yaxud “likbez”ə ehtiyacı olanların menyusuna*

**Yaddaşın pozulması beyin toxumasının mağara təfəkkürünə çevrilən ağır üzvi zədələnməsidir. Pəhriz saxlamaqla, dua etməklə, habelə fiziki üsullarla müalicə olunur. Belə müalicələr effekt verməyəndə yaddaş pozğunluğu ağlın itirilməsinə gətirib çıxarır.**

Bir də var elementar savadsızlıq sindromu. Onun aradan qaldırılması isə artıq diplomatik təbirə çevrilmiş “likbez” (likvidasiya bezqramotnosti – red.) kimi maarifləndirmə prosesi ilə mümkündür. Tarixi savadsızlıqla yaddaşın pozulması arasında müqayisə qüsurlu görünsə də, belə hallara da rast gəlinir. Necə ki, Ermənistanın baş diplomatı Ararat Mirzoyanın mətbuat konfransında söylədiklərində belə xəstəliklərin əlamətləri hiss olunmaqdadır.

Mirzoyan iddia edib ki, “Azərbaycanın Qərbi azərbaycanlıların öz yurdlarına qayıdışı ilə bağlı bəyanatları onun Ermənistana ərazi iddialarının sübutudur”. Bunun ardınca erməni nazir “tarix üzrə biliklərini” nümayiş etdirməyə girişib. Onun sözlərinə görə, 1987-1991-ci illərdə Ermənistan hökuməti 160 mindən çox azərbaycanlıya kompensasiya ödəyib, 12 min soydaşımız isə Azərbaycanda yaşayan ermənilərlə evlərini mübadilə edib. Yəni, hər şey sivil qaydada, beynəlxalq hüquqa, konvensiyalara uyğun şəkildə həyata keçirilib. Əslində, Mirzoyan məlum faktları təhrif etməklə azərbaycanlıların Ermənistandan deportasiya olunduqlarını etiraf etmiş olur. Onun hay məntiqi ilə indi soydaşlarımızın geri qayıdışı da beynəlxalq hüququn predmetinə çevrilməlidir.

*

Ermənistan xarici işlər nazirinin siyasi və hüquqi cəhətdən bu gülünc bəyanatı bizi yaxın tarixə qısa ekskursa vadar edir. Konkret olaraq Dağlıq Qarabağ münaqişəsinin qızışdırıldığı 1980-ci illərin sonlarında baş verən hadisələrə nəzər salaq. 1987-ci ilin noyabrında Ermənistan SSR-nin Qafan və Meğri rayonlarında etnik iğtişaşlar başladı, nəticədə bir neçə yüz azərbaycanlı Azərbaycana qaçmağa məcbur edildi. Həmin ilin dekabrında iki yük qatarı Ermənistanın Qafan rayonundan olan qaçqınları Bakıya çatdırdı. 1988-ci il yanvarın 25-də Qafan rayonundan Bakıya azərbaycanlılarla dolu dörd avtobus gəldi. Qışın oğlan çağı Kəlbəcərin, Laçın dağlarını aşaraq Azərbaycana pənah gətirən qadın, uşaq və qocaların çoxu döyülüb incidilərək qovulmuşdu. Bəli, onlar məhz etnik mənşəyə görə – azərbaycanlı olduqları üçün Ermənistandan qovuldular. O zaman nə beynəlxalq təşkilatlar, nə hüquq müdafiəçiləri aşkar deportasiyaya reaksiya verdi, nə də Sovet İttifaqının mərkəzi mətbuatı bu məsələni işıqlandırdı. Çünki beynəlxalq təşkilatların, hüquq müdafiəçilərinin, eləcə də medianın xaçpərəst haylara etnik rəğbətləri qarşısında azərbaycanlı qaçqınlar mövcud deyildi. Avropada, okeanın o tayında ermənipərəst mərkəzlər tərəfindən hazırlanan məkrli planın reallaşmasına start verilmişdi. Sonra bölgədə baş verən proseslər və sonluq hər kəsə məlumdur. Vaxt dolandı və dövran Ermənistanın xeyrinə deyil, tamamilə əks istiqamətdə dəyişdi. Bütün bunlardan sonra hayların Azərbaycan və Türkiyə ilə barışıq, əməkdaşlıq barədə bəyanatlarının səmimiliyinə necə inanasan?

*

Biz Qərbi Azərbaycana mütləq qayıdacağıq. Yanvarın 7-də yerli telekanallara müsahibəsində Azərbaycan Prezidenti İlham Əliyev bu məsələ barədə də ətraflı danışdı. Azərbaycanlıların öz yurdlarına



qayıdış məsələsinin Ermənistanın ərazi bütövlüyü və suverenliyi məsələsinə aidiyyəti olmadığını bildirən dövlətimizin başçısı rəsmi İrəvanın sadəcə soydaşlarımızın o torpaqlarda normal və təhlükəsiz yaşaması üçün şərait yaratmalı, buna dövlət səviyyəsində zəmanət verməli olduğunu vurğuladı. Bunu beynəlxalq hüquq, insan haqları və Ermənistanın qoşulduğu konvensiyalar tələb edir.

Yəni, burada üzərində baş sındırmalı tapmaca yoxdur. Mirzoyan məlum açıqlaması ilə aranı qəsdən qarışdırmaq, dünyanın gözündə Azərbaycanın “hücuma hazırlaşan qəsbkar ölkə” obrazını yaratmaq və sülh sazişi üzərində işi acı bağırsaq kimi uzatmaq niyyəti güdür. Bakı İrəvanın bu cür hiyləgər və məkrli “diplomatik gedişlərini” çox görüb. Hayların yaddaş bəlasına düçar olmuş baş diplomatı həyasızcasına bəyan edir ki, “Qarabağdan zorla çıxarılan (?) ermənilərdən fərqli olaraq azərbaycanlılar Ermənistanı kifayət qədər sivil qaydada tərk ediblər”. Yəqin Qərbi Azərbaycan İcmasının arxivində soydaşlarımızın doğma yurdlarından hansı “sivil qaydada” deportasiya edilmələrini əks etdirən video-materiallar var. Həmin əyani sübutları Mirzoyanın elektron poçtuna göndərsinlər.

Artıq Qərbi Azərbaycana qayıdış siyasidən daha çox hüquqi məsələdir. Yəni, Qayıdış Konsepsiyası beynəlxalq hüquqla əsaslandırılmış bir sənəddir. Həmin sənəddə separatçılıq, ərazi iddiaları kimi müddəalar yoxdur. Sadəcə, Hayastanın baş nazirindən tutmuş, bütün siyasilər Qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıdışı ilə bağlı məsələ üzərində manipulyasiya edir, ictimai rəyə bunu Azərbaycanın Ermənistana ərazi iddiası kimi sırımağa çalışırlar. Alınmayacaq. Çünki İrəvan yenə də yalan üfürməklə, tarixi saxtalaşdırmaqla məşğuldur.

Əgər Paşinyan iki ölkə arasında möhkəm və etibarlı sülhdən, demokrat siyasətçi olduğundan danışırsa, qoy bunu sözdə deyil, əməldə sübut eləsin.



***İ.HƏSƏNQALA***
***XQ***

Siyasi qayçı

# Moderatorluq hara, hərbi sponsorluq hara?

## *Avropa İttifaqı bir çox hallarda "qoca qitə"nin maraqlarını aşağılayır*

**Avropa İttifaqının (Aİ) Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması prosesində daim birincinin tərəfini tutduğu heç kəsə sirr deyil. Bunun əyani sübutunu ötən il aprelin 5-də Brüssel görüşü ortaya qoydu. ABŞ Dövlət katibi Antoni Blinken görüşdən iki gün əvvəl ABŞ tərəfinin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevlə telefon danışığında bildirmişdi ki, aprelin 5-nə planlaşdırılan Vaşinqton–Brüssel–İrəvan üçtərəfli görüşü əsasən iqtisadi məsələlərə həsr olunub və Bakıya qarşı yönəlməyib. Bakı, əlbəttə ki, həmin görüşdə yalnız iqtisadi və humanitar məsələlərin müzakirə ediləcəyi barədə tezisə inanmadı. Sonrakı proseslər göstərdi ki, Bakı yanılmayıb. "Üçlər"in görüşündə müzakirə edilən mövzulardan biri Ermənistana hərbi yardım məsələsi olub. Rəsmi Bakı buna reaksiya verdi. Bildirildi ki, əgər Qərbdən Ermənistanın silahlandırılmasının və qondarma Sülh Fondunun yardımının bundan sonra da davamı olacaqsa, Azərbaycan adekvat addımlar atmalı olacaq. Axı, necə ola bilər ki, sülhə moderatorluq etmək istəyən dövlətlər Ermənistana hərbi yardım göstərsinlər?**

***Əgər hər hansı bir tərəf tərəf tutursa, o, dürüst vasitəçi ola bilməz. Məhz buna görə keçən ay Amerika Dövlət katibinin xahişi havada qaldı və Azərbaycan üçtərəfli görüşə razılıq vermədi. O cümlədən, bildiyiniz kimi, Avropa İttifaqı Şurasının prezidentinin təşəbbüsü ilə Brüsseldə bir çox görüşlər keçirilmişdir. Artıq buna da son qoyuldu. Yəni, biz ikitərəfli danışıqlar formatının tərəfdarıyıq və əlbəttə ki, Azərbaycan bu məsələnin tərəfi kimi öz mövqeyini müdafiə edəcək.***

***Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibədən.***




ABŞ Dövlət katibi, Avropa Komissiyasının prezidenti və xarici işlər naziri, Ermənistan baş naziri Brüssel şəhərində bir araya gələrək, faktiki olaraq, yeni əməkdaşlıq paktı haqqında razılıq əldə etdilər. Əslində, bu, Aİ-nin və ABŞ-ın sülh danışıqları platformasından, Azərbaycan–Ermənistan normallaşma prosesindən kənarlaşması məntiqinə gəlirdi. Bu addımları ilə ABŞ və Aİ sülh danışıqlarında neytral statuslarını itirmiş oldular. Artıq məlum oldu ki, bu dövlətlər münaqişənin nizamlanması prosesində moderator kimi deyil, maraqlı tərəf kimi iştirak etmək niyyətindədirlər. Məhz buna görə Bakı onların bu prosesdə iştirakını qeyri-mümkün hesab etdi. Yox, əgər həmin ölkələr kiməsə yardım edirsə, bu, hər iki tərəfə eyni səviyyədə olmalıdır.

Azərbaycana yardımın dayandırılması, Ermənistana isə hərbi yardımın göstərilməsi, üstəlik, Aİ missiyasının iki ölkənin şərti sərhədinə göndərilməsi, ABŞ-la birgə hərbi təlimlər o demək idi ki, bunlar neytral mövqedən çıxış etmirlər. Onlar bir tərəfi müdafiə edir, həmin tərəfin mövqeyini dəstəkləyirlər. Ona görə də Vaşinqtonla Brüssel bundan sonra danışıqlar prosesində moderatorluq edə bilməzlər. Azərbaycan rəhbərliyinin ikitərəfli danışıqlara üstünlük verməsi, üçüncü tərəfin bölgəyə buraxılmaması ilə bağlı atdığı diplomatik addımları tamamilə düzgündür.

***

Aİ-nin münaqişənin nizamlanmasına, bölgədə sülhün əldə olunmasına maneçilik cəhdləri bununla yekunlaşmır. Bu qurumun Ermənistandakı qondarma mülki müşahidə missiyasının müddətinin uzadılması Bakının ona olan etimadını sarsıtdı. Azərbaycan onsuz da 30 ilə yaxın müddətdə Aİ-də dominantlıq edən Fransanın da təmsil olunduğu ATƏT-in Minsk qrupunun mənasız və ikiüzlü ermənipərəst mövqeyindən iyrənmişdi. "Binokllu diplomatların" rüsvayçı fəaliyyəti, missiyanın yarıhərbi geyimi heç cür qəbul edilə bilməzdi.

Qitənin ali qanunverici orqanı – Avropa Parlamenti (AP) də anti–Azərbaycan əməlləri ilə heç də digər institutlardan geri qalmır. Son illər AP-nin erməni lobbisinin əlində alətə çevrildiyi hamıya bəllidir. Bugünədək Avropa Parlamentində keçmiş Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan–Ermənistan münasibətləri mövzusunda bir neçə dəfə müzakirələr aparılıb. Həmin müzakirələrin yekunu olaraq AP-nin hesabatları, qəbul etdiyi qətnamələr bilavasitə ermənilərin maraqlarını əks etdirib. AP uzun müddət Cənubi Qafqazda işğalı, separatçılığı, qanunsuzluğu, eləcə də ksenofobiyanı açıq şəkildə təşviq edirdi. Bu qurumun haypərəst davranışları, qəbul etdiyi qərəzli qətnamələri onu deməyə əsas verir ki, o, regionda pozitiv proseslərin, sülhün deyil, tamamilə əksinə, qarşıdurmanın, problemlərin yaranmasına xidmət edib. Ermənistan 30 il ərzində işğalçılıq siyasət aparanda, Azərbaycan ərazilərinin 20 faizini öz nəzarəti altında saxlayanda, bir milyondan çox soydaşımızı doğma yurdundan didərgin salanda, daşnaklar öz torpaqlarımızda bizə qarşı misli görünməmiş vəhşiliklər törədəndə AP susub. Yox, sadəcə susmayıb, ermənilərin beynəlxalq hüquqla bir araya sığmayan cinayətkar əməllərini qınayan hansısa bir sənəd qəbul etməyib. Görünən odur ki, AP belə yanaşma ilə separatçılığı, qanunsuzluğu, ksenofobiyanı təşviq edib.

Avropa Parlamentinin indiyədək Azərbaycan əleyhinə qəbul etdiyi qətnamələrin heç biri hüquqi əsasları olan sənədlər deyil. Yeni qətnamə də bu baxımdan heç nə ilə fərqlənmir və boş bir kağız parçasıdır. Belə qətnamələr, qarayaxma kampaniyaları heç vaxt Azərbaycanın iradəsinə təsir göstərə, ölkəmizin qanuni hədəflərinə çatmasına mane ola bilməz. Azərbaycan xalqı 2020-ci ildə yüksək vətənpərvərlik, həmrəylik, əzm, qətiyyət nümayiş etdirərək düşməni torpaqlarımızdan qovdu və ölkənin ərazi bütövlüyünü təmin etdi. Postmüharibə dövründə isə işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq-abadlıq işləri həyata keçirilir, Böyük Qayıdış planı reallaşdırılır. Azərbaycanın aydın gündəliyi var və hədəflərinə doğru inamla irəliləyir.

***

Aİ bir çox hallarda qitənin özünün strateji maraqlarına qarşı çıxış edir. Ən azı, quruma üzv ölkələrin enerji təhlükəsizliyi məsələsini "yaddan çıxarır". Unudur ki, son 21 ildə Azərbaycan Aİ-nin 9 ölkəsi ilə strateji əməkdaşlıq müqaviləsi imzalayıb və ölkəmiz onların təbii enerji ilə təminatında önəmli rol oynayır.

Daha bir maraqlı məqam: xarici partnyorlarına qarşı daim ədalətli və səmimi mövqedən çıxış edən Azərbaycanla beynəlxalq hüquqa arxa çevirən Ermənistanın Aİ-nin həyatında oynadıqları rolu bir-birindən fərqləndirmək lazımdır. Ermənistan bugünədək Aİ məkanına nə verib? – sualının cavabı "Heç nə!"dir". İrəvan ondan yalnız kömək və maddi yardımlar umub, hay xislətinə uyğun olaraq bu qurumdan nələri isə qopartmağa çalışıb. Bu kontekstdə Azərbaycanın mövqeyi isə tamamilə fərqli rakursdan diqqət çəkir. Ölkəmiz "qoca qitə"nin enerji təhlükəsizliyinin təmin olunmasına sanballı töhfələr verir. Şərqi Avropanın böyründə davam edən silahlı münaqişə, eləcə də digər geosiyasi reallıqlar fonunda Aİ-nin enerji daşıyıcılarına tələbatının daha da artması başadüşüləndir. Avrokomissiyasının əlavə qaz tədarükü ilə bağlı ölkəmizə müraciət ünvanlaması faktını da xatırlatmağımız yerinə düşər. Bu müraciəti həssaslıqla qarşılayan Azərbaycan Avropanın enerjiyə ehtiyacının qarşılanmasında öz rolunu artırmaq məqsədilə əzmlə çalışıb.

Rəqəmlərə diqqət yetirək: 2021-ci ildə respublikamız Avropaya 8 milyard kubmetr qaz nəqli ilə bağlı öhdəliyinə sadiq qaldı. 2023-cü ildə bu həcmi 12 milyard kubmetrədək artırdı. Eyni zamanda, Azərbaycan "Qoca qitə"yə qaz tədarükünü 2027-ci ilədək 20 milyard kubmetrədək artırmağı hədəfləyib.

Oxuculara onu da xatırladaq ki, azərbaycanofob, islamofob Avropa Parlamentinin anti-Azərbaycan mövqeyinə rəğmən, 2022-ci il iyulun 18-də Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayenin Bakıya səfəri zamanı Azərbaycan ilə Aİ arasında enerji sahəsində əməkdaşlığa dair anlaşma memorandumu, eləcə də 2023-cü il dekabrın 17-də Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında "yaşıl enerji" sahəsində strateji tərəfdaşlıq müaviləsinin imzalanması Azərbaycan və Aİ arasında qarşılıqlı faydalı əməkdaşlığın uğurlu perspektivindən xəbər verir. Sadəcə, bu perspektivə xələl gətirə biləcək ölkə – Fransa gərək Azərbaycana, bütövlükdə bölgəyə münasibətdə ədalətli və neytral mövqedən çıxış etsin. Amma nə qədər ki, rəsmi Paris Aİ-də əsas söz sahiblərindən biri kimi görünür, qurumun nüfuzu getdikcə düşəcək, ona etimad göstərənlərin sayı azalacaq. Çünki dünyanın heç bir nöqtəsində Fransa sülhməramlıları uğur qazanmayıblar. Onların ayağı dəydiyi bütün bölgələrdə münaqişələr və ziddiyyətlər daha da kəskinləşib.

Aİ-nin bəşəri dəyərləri müdafiə etmək üçün ağlabatan arqumentlərə malik olmasına baxmayaraq, Qlobal Cənubun Avropanın birgə fəaliyyətlə bağlı çağırışlarına biganə qalması təəccüblü görünməməlidir. Axı, "qoca qitə" bir tərəfdən ikili standartlar nümayiş etdirə, digər tərəfdən isə beynəlxalq hüquqa üstünlük verilməsini tələb edə bilməz. Qarşılıqlı əməkdaşlıq səmimi münasibətlərə və etimada söykənməlidir. Və bu gün hər kəsə aydındır ki, Azərbaycan olmadan nəinki Cənubi Qafqazda, Şərqlə Qərb arasında nə əməkdaşlığın, nə də hərtərəfli təhlükəsizliyin təmin edilməsi mümkündür.

**P.S.** Ermənistan Minsk qrupunun ləğvi məsələsi ilə bağlı ATƏT-ə müraciət etmək niyyətindədir. Bu barədə Ermənistan baş nazirinin mətbuat katibi Nazeli Baqdasaryan sosial şəbəkədə yazıb. Onun sözlərinə görə, İrəvan ATƏT-ə Minsk qrupunun ləğvi məsələsi ilə bağlı müraciət etmək imkanını nəzərdən keçirir. N.Baqdasaryan Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və sülh sazişi imzalamaqla bunu təsdiqləməyə hazır olduğunu bildirib. Bunu İrəvandan gələn ilin ilk müsbət mesajı kimi də dəyərləndirmək olar.

***İmran BƏDİRXANLI***
***XQ***

Beynəlxalq nüfuz

# Azərbaycan D-8-ə iqtisadi güc qatacaq

**(əvvəli 1-ci səhifədə)**

Dünya müsəlmanlarının 60 fazini birləşdirən və ümumi daxili məhsul istehsalı (ÜDM) 4 trilyon dollar olan D-8 təşkilatına üzv qəbul edilməyimiz Azərbaycan üçün yeni imkanlar açır. Azərbaycan bu təşkilatın üzvü kimi İslam həmrəyliyinin gücləndirilməsinə mizin tərkib hissəsidir. Mütəxəssislərin sözlərinə görə, beynəlxalq hüququn norma və prinsiplərinin həyata keçirilməsini qarşısına əsas məqsəd kimi qoyan Azərbaycan D-8-in fundamental prinsiplərinin qorunub saxlanmasında mühüm rol oynayacaq və bu təşkilat çərçivəsində ölkələrlə əməkdaşlığın dərinləşməsi üçün lazım olan addımları atacaq. Çün-




və enerji, kənd təsərrüfatı, nəqliyyat, logistika və texnologiya sahələrində əməkdaşlığın genişləndirilməsinə töhfə verəcək. Eyni zamanda, D-8-ə üzvlük Azərbaycanın iqtisadi və strateji maraqlarına cavab verən platforma təmin edəcək və ölkəmizə beynəlxalq arenada daha geniş təsir dairəsinə malik olmağa imkan yaradacaq.

Bugünkü toqquşmalar və siyasi gərginlik fonunda geniş regionumuzda təhlükəsizliyin, sabitliyin təmin edilməsi, qarşılıqlı faydalı əməkdaşlığın inkişafı mühüm əhəmiyyət kəsb edir. Bu kontekstdə Azərbaycan özünün geosiyasi mövqeyi, geniş iqtisadi potensialı və müasir nəqliyyat infrastrukturu sayəsində özünü etibarlı regional mərkəzlərdən biri kimi təsdiqlədiyi artıq danılmaz faktdır. Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycan mühüm enerji layihələrinin həyata keçirilməsində və beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafında mühüm rol oynayır.

Bundan başqa, dünyada islamofobiyanın, ekstremizmin və radikalizmin gücləndiyi bir dövrdə D-8 təşkilatı çərçi- ki ölkəmiz İslam dünyasının ən mühüm sivilizasiya, dini və mədəni mərkəzlərindən biri sayılır. Azərbaycan İslam dəyərlərinin təbliğinə, islamofobiya ilə mübarizəyə və İslam həmrəyliyinin gücləndirilməsinə töhfə verir.

Təbii ki, güclü iqtisadi-ticari göstəricilər D-8 təşkilatının yüksək iqtisadi potensialını müəyyən edir. Üzv ölkələrin iqtisadiyyatlarının əhəmiyyətli artım templərinə və təşkilatın dünya ticarətindəki mühüm roluna əsaslanan analitiklər orta müddətli perspektivdə D-8-in mühüm iqtisadi güc mərkəzinə çevriləcəyinə inanırlar. Bu baxımdan Azərbaycanın bu təşkilata qoşulması təbii olaraq bütövlükdə təşkilatın iqtisadi artım templərinin artmasına gətirib çıxaracaq.

Eyni zamanda, Azərbaycanın D-8-ə üzv olması Prezident İlham Əliyevin güclü, qətiyyətli və uğurlu xarici siyasətinin növbəti məntiqi nəticəsidir. Bu, həm də Azərbaycanın dünya arenasında artan nüfuzunu, sabit, sürətlə inkişaf edən, güclü iqtisadi potensiala malik ölkə kimi beynəlxalq ictimaiyyətin ona



vəsində İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində səylərin birləşdirilməsi vacibdir. Tarix boyu Şərqlə Qərb arasında körpü rolunu oynayan, İslam dünyasının mədəni, dini və sivilizasiya mərkəzlərindən biri olan Azərbaycan multikulturalizm və tolerantlıq mühitinin formalaşmasına, mədəniyyətlərarası dialoqun qurulmasına, İslam dəyərlərinin dünyada təbliğinə böyük töhfə verir. Müsəlman ölkələri ilə dostluq və qardaşlıq münasibətləri olan Azərbaycanın D-8-ə qoşulması ölkəmizin İslam həmrəyliyinin möhkəmlənməsinə göstərdiyi səylərini daha da gücləndirəcək.

Əlbəttə, Azərbaycanın D-8-ə tamhüquqlu üzv seçilməsi onun uğurlu xarici siyasətinin məntiqi nəticəsidir. Bu, kifayət qədər çoxvektorludur, ölkəmizin maraqlarına cavab verir, İslam dünyası ilə əlaqələr xarici siyasət prioritetləri- olan inamını nümayiş etdirir. Ölkəmizin D-8-ə üzv olması Azərbaycanın hazırda sabit ictimai-siyasi sabitliyə malik sürətlə inkişaf edən dövlətlərdən biri olduğunu, yüksək iqtisadi göstəricilər əldə etdiyini və dünya ictimaiyyətinin rəğbətini qazandığını təsdiqləyir.

Bir sözlə, Azərbaycanın geosiyasi mövqeyi, geniş iqtisadi potensialı, strateji əhəmiyyətli tranzit məntəqələri, inkişaf etmiş nəqliyyat infrastrukturu ilə regional mərkəzlərdən biri kimi D-8-ə üzvlüyü təşkilatı daha da gücləndirəcək. Ən əsası, ölkəmizin D-8-ə qoşulması daha bir beynəlxalq təşkilatda iştirakı ilə yanaşı, əlaqələrin daha da möhkəmlənməsi, Azərbaycanın dünya miqyasında sözünün güclənməsi baxımından böyük nailiyyətdir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Gürcüstanla strateji tərəfdaşlığın hədəfləri

**Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev yanvarın 11-də bu ölkənin xarici işlər naziri Maka Boçorişvili ilə görüşüb.**

Bu barədə Gürcüstanın Xarici İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, görüşdə əsasən ikitərəfli gündəlikdəki cari məsələlər diqqət mərkəzində olub. Bu kontekstdə xarici işlər nazirinin Azərbaycana rəsmi səfərinin təfərrüatları, o cümlədən Azərbaycan ilə Gürcüstan arasında Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının növbəti 10-cu iclasının keçirilməsi məsələsi müzakirə edilib. Tərəflər ölkələrimiz arasında strateji tərəfdaşlığın geniş spektrini bir daha müsbət qiymətləndiriblər.

Həmçinin ticarət-iqtisadi, nəqliyyat və enerji sahələrində uğurlu əməkdaşlığa xüsusi diqqət yetirilib.

Söhbət zamanı regionun dinc və sabit inkişafının vacibliyi qeyd edilib.

Tərəflər Gürcüstan və Azərbaycan arasında nümunəvi strateji əməkdaşlığı daha da inkişaf etdirməyə hazır olduqlarını bildiriblər.

***XQ***

# İrəvanda qəfəsə salınmış “sülh göyərçini”

**Nikol Paşinyan son illərdə cidd-cəhdlə Ermənistanı regionun ən “sülhpərvər” ölkəsi, rəhbərlik etdiyi hökumətin isə bölgədə sülh və sabitliyin, əməkdaşlığın mövcud olmasında hamıdan daha çox “maraqlı olduğunu” beynəlxalq ictimai rəyə sırımağa çalışır.**

Ermənistan baş naziri bugünlərdə yenə də özünü “sülh göyərçini” qiyafəsində təqdim etməyə çalışıb. Yanvarın 9-a “Facebook” sosial şəbəkəsində paylaşım edən Nikol ölkəsinin regionda uzunmüddətli sülh və sabitliyin bərqərar olması istiqamətində 12 bənddən ibarət təkliflərini diqqətə çatdırıb. Halbuki, N.Paşinyanın əməlləri bunun əksini sübut etməkdədir.

Yada salmaq yerinə düşər ki, Ermənistanla Azərbaycan arasında münaqişənin həlli istiqamətində aparılan danışıqlar prosesi məhz N.Paşinyanın dövründə, onun hakimiyyətə gəlməsindən təxminən bir il sonra pozulub. Əlbəttə, biz danışıqlar




prosesinin Paşinyana qədər ideal məcrada keçdiyini iddia etmirik. Ermənistanın əvvəlki hakimiyyətləri də prosesdə qeyri-konstruktiv mövqe tutmuşdular. Onlar həlledici məqamlarda sivişib ardan çıxmağı bacarırdılar. Məsələn, 2006-cı il fevralın 10-da Paris yaxınlığındakı Rambuye şəhərində eyniadlı qəsrdə Ermənistanın ikinci prezidenti Robert Koçaryanla Prezident İlham Əliyev arasında keçirilən danışıqlar böyük ümidlərlə başlamışdı. Prosesə hər iki prezidentin ayrı-ayrılıqda Fransa Prezidenti Jak Şirakla Yelisey sarayında təqribən 45 dəqiqəlik görüşü ilə start verilmişdi. Daha sonra Azərbaycan və Ermənistan prezidentləri arasında iki dəfə – fevralın 10-da 2 saatlıq, fevralın 11-də isə 20 dəqiqəlik təkbətək görüş olmuşdu. Məhz fevralın 11-də keçirilən görüş zamanı R.Koçaryan ayaqyoluna getmək adı ilə ikitərəfli danışıqları yarımçıq saxlamışdı. Bundan sonra isə heç kəsə xəbər vermədən Rambuye qəsrini tərk edərək Parisdən İrəvana uçmuşdu. Sonradan o bunu həmin vaxt müdafiə naziri işləyən Serj Sarkisyanın qayınanasının ölümü ilə əlaqələndirsə də, əslində, həmin addım münaqişənin həlli üçün təklif olunan şərtləri qəbul etməkdən yayınmaqla bağlı idi.

Eyni metodlardan S.Sarkisyan da vaxtaşırı istifadə edirdi. Ümumiyyətlə, Ermənistanın hər iki prezidentinin hiyləgərliyi danışıqlar prosesi zaman öz sözünü deyirdi. Onlar uzun-uzadı danışıqlar aparır, əksər məsələr razılaşdırılır, son məqamda isə elə şərtlər irəli sürürdülər ki, bunun nəticəsində bütün proses pozulurdu. Yaxud da, son anda ən müxtəlif bəhanələrlə aradan çıxırdılar. Haqqında bəhs etdiyimiz Rambuye danışıqları belə nümunələrdən biridir. Həmin görüş bu gün də R.Koçaryanın prosesi yarımçıq qoyub biabırçı qaçışı ilə assosiasiya olunur.

Koçaryan–Sarkisyan cütlüyünün siyasətdən uzaq bu cür hiyləgər gedişləri Paşinyana xas deyil. Onun hakimiyyətinin ilk iki ilində səsləndirdiyi bəyanatlar qeyd etdiyimiz kimi, danışıqlar prosesinin pozulmasına və yeni müharibənin başlanmasına gətirib çıxardı. Bunun ən mühüm göstəricisi Nikolun 2019-cu il avqustun 5-də Xankəndiyə növbəti qanunsuz səfəri zamanı şəhərin mərkəzi stadionunda keçirilən qondarma ümumerməni yay oyunlarının açılış mərasimində çıxışı zamanı “Qarabağ Ermənistandır və nöqtə” deməsi oldu. Bununla da faktiki olaraq, danışıqlar prosesi pozuldu. Məhz Paşinyanın yürütdüyü siyasət 2020-ci ilin iyulunda Tovuz döyüşlərinin, həmin ilin payızında isə Vətən müharibəsinin baş verməsində həlledici rol oynadı. Bütün bunlar Ermənistanın nəinki əvvəlki üç prezidentinin, elə indiki baş nazirinin də Azərbaycana münasibətdə barışmaz xəttin tərəfdarı olduğunun sübutudur.

Yaxud Paşinyanın baş nazir vəzifəsinin icrasına başladıqdan bir gün sonra – 2018-ci il mayın 10-da müdafiə naziri təyin etdiyi David Tonoyanın 2019-cu ilin martında ortaya atdığı bədnam “Yeni müharibə – yeni ərazilər” tezisini yada salaq. Xatırlatmaq yerinə düşər ki, 2019-cu il martın 29-da Vyanada Azərbaycan Prezidenti və Ermənistan baş naziri arasında görüş keçirilmişdi. Tonoyan isə həmin vaxt ABŞ-da rəsmi səfərdə idi. O, iki ölkə rəhbərinin danışıqlarından dərhal sonra Nyu-Yorkda erməni icmasının nümayəndələri ilə görüşdə demişdi: “Müdafiə naziri kimi deyirəm ki, mən “sülh müqabilində ərazilər” formulunu “yeni müharibə – yeni ərazilər” formuluna çevirmişəm”. Daha sonra istehza ilə bildirmişdi ki, güzəştlər mümkündür: “Biz hücumçu bölmələrin sayını artıracağıq və səngərdən, müdafiə vəziyyətindən hərbi əməliyyatları düşmən ərazisinə keçirə biləcək bölmələrin sayının artırılmasına keçəcəyik”.

Paşinyan isə Tonoyanın mövqeyinə münasibətinin necə olması ilə bağlı jurnalistlərin sualına cavab olaraq demişdi: “Əgər o başqa cür danışsaydı, mən onu vəzifədən azad edərdim”. Nikol bununla Tonoyanla həmfikir olduğunu ortaya qoymuşdu.

Bu mənada N.Paşinyan özünü nə qədər “sülh göyərçini” kimi təqdim etməyə, məsələnin mahiyyətindən qaçmağa çalışsa da, yaxın tarixin reallıqları unudulmayıb. Unudulması mümkün də deyil. Onun Qarabağın Ermənistan ərazisi olmasına dair dedikləri bu gün də internetdə açıq mənbələrdə qalmaqdadır.

Paşinyanın yanvarın 9-da yazdığı fikirlərə münasibətini açıqlayan Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bildirib: “Qoy əməlləriniz sözlərinizdən üstün olsun. Maraqlıdır ki, sizin “sülhsevər narrativiniz” regionda davamlı sülh və sabitliyin bərqərar olmasının ən mühüm sütununu, yəni dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmət məsələsini kənarda qoyur”.

A.Hacızadə daha sonra yazıb: “Əgər Ermənistan hakimiyyəti həqiqətən də qonşuları ilə sülhün yaradılmasında maraqlıdırsa, niyə “Qərbi Ermənistan” və “Dağlıq Qarabağ respublikası” adlandırdıqları ərazilərə iddialarından konstitusiya və milli qanunvericilikləri çərçivəsində imtina prosesinə başlamaqdan bütün vasitələrlə imtina edir? Bağışlayın, amma sizin arqumentləriniz Ermənistanın “xoş niyyətinin” təsdiqi kimi qəbul edilə bilməz”.

Əgər Ermənistan rəhbərliyi bu gün həqiqətən də Azərbaycanla sülhdə maraqlıdırsa, pozitiv addımlar atmalıdır. Ölkənin konstitusiyasından Azərbaycana ərazi iddialarının özünə yer aldığı müstəqillik bəyannaməsinə istinad çıxarılmalıdır. Eyni zamanda, rəsmi İrəvan sürətlə silahlanma prosesindən də əl çəkməlidir. Bütün bunlar əyani şəkildə Ermənistanın sülhə hazır olmadığını göstərir.

Ermənistan hakimiyyətinin məlum mövqeyi Prezident İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində toxunduğu məsələlərdən oldu. Dövlətimizin başçısı bildirdi ki, Ermənistanın silahlanması, sadəcə olaraq, yeni gərginliyə gətirib çıxaracaq. Biz isə bunu istəmirik. Biz sülh istəyirik. İstəyirik ki, artıq müharibə səhifəsi bağlansın: “Ancaq görürük ki, Ermənistanın həm özü, həm onun yeni havadarları bunu istəmirlər. Onlar revanşist fikirlərlə yaşayırlar və Ermənistan faktiki olaraq bölgə üçün bir təhdid mənbəyidir. Müstəqil Ermənistan dövləti, əslində, faşist dövlətdir. Çünki əgər bu ölkəyə 30 ilə yaxın faşist ideologiyasının daşıyıcıları rəhbərlik ediblərsə, bu ölkəni onlar elə özləri kimi də formalaşdırıblar. İndi baxın, Ermənistanın birinci prezidentinin irqçi və faşist açıqlamaları nə dərəcədə eybəcərdirsə, bir o qədər də təhlükəlidir”.

Prezident qeyd etdi ki, biz belə bir faşist dövlətlə qonşuyuq və faşizm təhlükəsi sovuşmur. Ona görə faşizm məhv edilməlidir. Bunu ya Ermənistan rəhbərliyi, ya da biz məhv edəcəyik: “Bizim başqa çarəmiz yoxdur. Yenə də 30 illik işğal, xalqımızın əzabları, Xocalı soyqırımı, dağıdılmış, viran qoyulmuş Qarabağ - bütün bunlar bizim gözümüzün qabağındadır və kim zəmanət verə bilər ki, bu, təkrarlanmayacaq, heç kim! Çünki Ermənistanın birinci üç rəhbəri faşist ideologiyasının daşıyıcılarıdır. Ermənistanın indiki rəhbəri, mən demişəm, indi özündən “sülh göyərçini” düzəltmək istəyir. Amma baxın, görün, onun 2018-2019-cu illərdəki çıxışlarına, onları indi heç kim xatırlatmaq istəmir. Hətta onun Fransadakı dostları da ondan imtina etmək istəmirlər. Yəni, bu ideologiya orada yaşayır və bunun daşıyıcıları, sadəcə olaraq, bugünkü Ermənistan müxalifəti deyil, Ermənistan iqtidarıdır. Bir daha demək istəyirəm ki, biz, sadəcə olaraq, müşahidəçi kimi buna tamaşa edəsi deyilik. Ermənistan silahlanmanı dərhal dayandırmalıdır. Ona silah verən Fransa və digər ölkələr o kontraktlara xitam verməlidir, ləğv etməlidir. Artıq Ermənistana göndərilmiş silahlar geri qayıtmalıdır. Bu, bizim şərtimizdir. İndi kim bunu necə istəyir elə də qəbul etsin. Mən sözümü deyirəm, onlar da bilirlər, onların arxasında duranlar da bilirlər ki, əgər biz nəyisə deyiriksə, deməli, artıq bu məsələyə çox ciddi yanaşırıq”.

Bu istiqamətdə XQ-yə açıqlama verən **“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** bildirdi ki, indiyədək dünya tarixində məğlub ölkənin qalib ölkəyə nəsə diktə etməsi hadisəsi olmayıb. Məğlub ölkə hər zaman qalib ölkənin şərtlərini yerinə yetirməlidir: “Azərbaycan İkinci Qarabağ müharibəsində qələbə çalıb, işğala son qoyub, torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan Ermənistan məğlubiyyətə uğradılıb. Əslində, bizim şərtlərimiz ağır deyil. Əsas şərtimiz odur ki, Ermənistan konstitusiyasında dəyişiklik edilsin və Azərbaycana ərazi qarşı ərazi iddiası oradan çıxarılsın. İrəvan bu istiqamətdə vaxtı uzadır. Düzdür, başqa addımları var. Məsələn, Paşinyan Azərbaycanın Minsk qrupundan imtina tələbini faktiki olaraq yerinə yetirdi. Ermənistan baş nazirinin mətbuat katibi Nazeli Bağdasaryan yanvarın 11-də bildirdi ki, İrəvan Minsk qrupunun buraxılması üçün ATƏT-ə müraciət imkanlarına baxır. Amma bu azdır. Konstitusiya dəyişikliyi də lazımdır. Bundan başqa digər təxribat da baş verir. Avropa İttifaqının mülki adlandırılan müşahidə missiyasının müddəti



iki il müddətinə uzadıldı. Həmin müşahidə missiyası nəyə lazımdır, kimə qarşıdır? Avropa ölkələrinin liderləri gəlib binoklla Azərbaycan ərazisinə baxırlar. Bu, vəziyyəti daha da gərginləşdirir. Azərbaycan Ermənistan iqtidarından bu məsələlərin də həllini gözləyir. Üstəlik, İrəvan Zəngəzur dəhlizinin icrasını da uzadır. Halbuki, Azərbaycan özünə aid ərazidə nəqliyyat xətlərinin inşasını artıq başa çatdırmaq üzrədir, Ermənistan isə heç bir iş görmür. Paşinyandan bu istiqamətlər üzrə addımlar gözlənilir”.

E.Şahinoğlu dedi ki, əslində, Paşinyan üçün yaxşı fürsət yaranıb. Çünki ciddi müxalifət də yoxdur ki, ona təzyiq edə bilsin. Ötən il bir keşiş ortaya atılmışdı. Amma o da heç nəyə nail ola bilmədi: “Yəni, Paşinyan özündə cəsarət tapıb konstitusiya dəyişiklikləri edib sülh sazişinin imzalanmasını sürətləndirə bilər. Əks-təqdirdə vəziyyət qeyri-müəyyən qaldıqca gərginlik arta bilər. Çünki artıq uzaqmənzilli raketlər də alır. Bu isə vəziyyəti daha da gərginləşdirir. Prezident İlham Əliyev də tələb edir ki, Ermənistan birincisi, silahlanmadan imtina etməli, ikincisi, ona verilən uzaqmənzilli raketləri geri qaytarmaldır. Çünki həmin raketlər İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanın şəhərlərinə atılmışdı. Biz xeyli mülki insan itirdik. Bir daha imkan verə bilmərik ki, uzaqmənzilli raketlər Ermənistanda yerləşdirilsin. Bizim İrəvandan əsas tələblərimiz budur”.

Müsahibimiz onu da bildirdi ki, əgər əvvəlki illərdə Ermənistanın “xozeyni” Rusiya idisə, indi Paris və Vaşinqtondan, əsas da Yelisey sarayında təlimat alır. Görünür, Parisdə Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanmasında, dəhlizin işə düşməsində maraqlı deyillər. Ona görə də Paşinyana bu cür təzyiq edirlər. Ancaq Paşinyan anlamalıdır ki, Parisin əlində alət olaraq qalacaqsa, bu, onun özü və ölkəsi üçün ciddi problemlərə gətirib çıxaracaq.

*Səxavət HƏMİD*
*XQ*

# “Böyük manipulyator”

**Mark ENDEVELD**

***(əvvəli qəzetin 17, 18, 19, 20, 21, 22, 24, 25, 26, 27 və 30 dekabr 2024-cü il, 11 yanvar 2025-ci il tarixli saylarında)***

## Moris adasında Ukrayna oliqarxı ilə xüsusi missiyalar

Lüdovik Şaker və İsmael Emelien 2007-ci ilin əvvəllərində Kair şəhərində eyni evdə kirayə qalanda tanış olmuşdular. (Bax: Arian Şömən və Fransua Kruq “Benalla məsələsindən sonra Yeliseyin kölgədə olan adamları işıqlandılar”. Le Monde, 20 yanvar 2019) Elə ilk görüşdən onlar dostlaşırlar. İkisi də çox iddialı, ikisi də eyni zövqə malik adamlardır. İkisinin də gizli, müəmmalı, standart olmayan işlərə maraqları var. O vaxtlar Emmanuel Makronun gələcək xüsusi müşaviri İsmael Emelien Siyasi Elmlər İnstitutunda keçirdiyi vaxtının bir hissəsini ərəb dilini öyrənməyə sərf edir. O, bütün bölgələri gəzir və hətta atasının elektrik avadanlıqları biznesinin bir şöbəsini də Suriyada açmaq üçün ora da səfər edir. Onun Qrenoblda yaşayan atası Jan-Paskal Emelien, həqiqətən də öz biznesi ilə Yaxın Şərqi fəth etmək istəyir. (Bax: Sofi de Dezert, “Prezidentin adamları: Makronu Yeliseyə gətirən dostlar”, Vanity Fair, dekabr 2017) Şaker isə Şanxaydakı fransız konsulluğuna yola düşür.




İki ildən sonra Emelien Bollore qrupuna aid olan rabitə və lobbiçilik agentliyi Havas şirkətində işə götürülür. Çox tez bir zamanda Havasın rəhbəri Stefan Fuks ona çətin sənədlər etibar edir. Gənc Emelien tez-tez EDF-in prezidenti (EDF – Fransanın Elektriki) Henri Projliodan məsləhət almağa gedir. Məhz elə o zaman, bu adamla Emmanuel Makron ilk dəfə görüşüb tanış olurlar. 2009-cu ilin sentyabrında onların ikisi də siyasi məsləhətçi Jil Finşelşteynlə birlikdə Jan-Jores Fondunun təşkil etdiyi “İllik Tərəqqi Forumunda” iştirak etmək üçün Çiliyə səfər edirlər.

Qısa bir müddətdən sonra yenə də Jil Finşelşteynlə birlikdə Emelien Havas tərəfindən Moris adasına göndərilir ki, oranın Baş naziri Navin Ramqoolama ikinci dəfə Baş nazir seçilməkdə kömək etsinlər. Moris adası, həqiqətən də xüsusi bir ərazidir. Emelien orada əvvəllər 53 Havas şirkətində siyasi məsləhətçi kimi çalışan “Veolia” şirkətinin icraçı direktoru, uzun illərdən bəri Moris adasının Baş naziri Navin Ramqoolamın məsləhətçilərindən biri olan Loran Obadia ilə də tanış olur. Obadia siyasətlə kəşfiyyat arasında var-gəl edir. (Sarkozinin fantomu fəslinə bax) Bu adam həm də tez-tez Moris adasına gələn Aleksandr Djuri, eləcə də “cənab Şarp” ləqəbi ilə tanınan irlandiyalı iş adamı Toma Fransis Qleeson ilə yaxındır.

La Lett re A qəzeti xatırladır ki, (La Lett re A – Fransanın siyasi, ictimai, iqtisadi və mediatik yeniliklərindən xəbər verən gündəlik qəzet. 1978-ci ildə yaranıb. Hal-hazırda ancaq saytda çıxır) bu iki dost Moris adasında “Airbus” şirkəti ilə “Air Mauritius” aero kampaniyası arasındakı danışıqlarda birlikdə iştirak ediblər. (Bax: “Elfdən Airbusa qədər. Aleksandr Djurinin Londondakı sirli dostu kimdir?” La Lett re A, 19 mart 2018-ci il) Moris adasından sonra Havas artıq bərkdən-boşdan çıxmış İsmael Emelieni iki dəfə Venesuelaya göndərir ki, Nikola Maduronun prezident seçilməsinə çalışan yerli komandaya kömək əlini uzatsın. Bu adam Emmanuel Makrondan olduqca uzaq siyasətçidir... hələlik.

Amma Havas şirkətində İsmael Emelienin tərcümeyi-halında bir cümlə çatışmır. Stefan Fuks ilə birlikdə gənc məsləhətçi Ukraynanın “YES” (Yalta Avropa Strategiya Konfransı) forumunda da yaxından iştirak edib. Fransız rabitə agentliyi tərəfindən dəstəklənən “YES” forumunun məqsədi boru kəmərləri üzrə ixtisaslaşmış “Interpip” şirkətinin sahibi, ukraynalı oliqarx Viktor Pinçukun imicini yüksəltməkdir. Bu ukraynalı milyarder 2004-cü ildə Ukraynada “narıncı inqilab” nəticəsində hakimiyyətdən qovulan prezident Leonid Kuçmanın kürəkənidir. Qayınatası prezidentlikdən çıxandan sonra Pinçuk birmənalı şəkildə Qərb klanına yaxınlaşıb. O, Yaltadakı forumuna Dominik Stros-Kan, Toni Bleyer və Bill Klinton kimi siyasi xadimləri dəvət edib. Yeri gəlmişkən, keçmiş Ukrayna prezidentinin kürəkəni həm də Klinton Fondunu maliyyələşdirir. Pinçuk öz yaşında olan digər oliqarxlarla da dostluq edir: bankir Mixail Fridman və İsveçrənin Zuq kantonunda məskən salan Viktor Vekselberq ilə. Onların hər ikisi keçmiş beynəlxalq trayder Mark Riş ilə yaxın əlaqədədirlər. Amma Pinçuk da nəhəng iş adamıdır, o Rusiyadan olan oliqarxları da yaxşı tanıyır, məsələn, adları Benalla ilə bağlı skandalda hallanan Fərhad Əhmədov və İsgəndər Mahmudovu. Birincisi onun Fransada birbaşa qonşusudur, hər ikisi Aralıq dənizi sahilində yaxın Provans-Alp-Kot d’Azür regionunun Alp-Maritim departamentində, Nis ilə Monakonun arasında yerləşən San-Jan-Kap-Ferrat şəhərində villa alıb orada yaşayırlar. İkincisi isə Kuzbassrazrezugol kömür şirkətinə nəzarət edir, bu şirkətə 2013-cü ildən Pinçuka mənsub olan Interpip şirkətinə rəhbərlik edən Ukraynalı iş adamı Oleq Rozenberq də sərmayə qoyub. Şərq oliqarxlarının dünyasında, Rusiya ilə Ukrayna arasındakı münaqişəyə baxmayaraq biznes davam edir. Yaxşı deyiblər, təki pulun olsun... pul olan yerdə düşmənçilik ikinci plana keçir.

## Siyasi elmlər tramplini

Şaker ilə Emelien növbəti dəfə Siyasi Elmlər İnstitutunun dəhlizlərində görüşəcəklər. Jue-le-Tur şəhərciyindən birdəfəlik ayrıldıqdan sonra Şaker, 2011-ci ilin payızında Parisin San-Qiyyom küçəsində yerləşən Asiya, Afrika və Orta Şərq arasında münasibətlər məktəbində mübadilə və tərəfdaşlıq şöbəsinin rəhbəri təyin olunur. Onu bu işə götürməyə məktəbin direktoru Rişar Dezkuanq qərar verir. Bir neçə ay sonra direktor Nyu-York şəhərində qəfildən dünyasını dəyişir. Şaker internet bloqunda keçmiş məktəb direktorunu bu sözlərlə yad edir: “Rişar Dezkuanqun [...] mənim karyerama çox böyük köməyi olub. O, ətrafına həmişə gəncləri yığardı. Yadımdadır ki, bir dəfə mənə dedi, Lüdovik, bax, əslində, sənin kimi insanlar prezidentliyə namizəd olmalıdırlar... mənim kimi insanlar da sizlərin məsləhətçisi olmalıdır...”

Siyasi Elmlər İnstitutunda Lüdovik Şaker makroniyanın gələcək nomenklaturasının mərkəzində dayanır. Məsələ burasındadır ki, 2007-ci ildə bu məşhur institut Eduard Filipin mer olduğu Lö Havr şəhərində Asiya kampusu açıb. Gələcək Baş nazirin (Eduard Filip) həyat yoldaşı Edit Çabr da, o vaxt bu kampusun icraçı direktoru vəzifəsində çalışıb. Bundan əlavə, Jan-Pier Juyer (Fransua Hollandın prezidentliyi zamanı Yelisey sarayının Baş katibi, eləcə də Emmanuel Makronun məsləhətçisi) Siyasi Elmlər İnstitutunun idarə heyətinin nüfuzlu üzvlərindən biridir. Rişar Dezkuanqun gözü gənc Makronu çoxdan tutmuşdu, 2000-ci illərin əvvəllərində, Makron bu institutda sadə bir tələbə olanda, ona “metod konfransını” istiqamətləndirməyi tapşırmışdı... Məktəbin keçmiş tədqiqat direktoru, sonradan Montayn İnstitutunun baş direktoru keçən Loran Biqorn da Makrona yaxın adamdır. Göründüyü kimi, San-Qiyyom küçəsində yerləşən məktəbdəki şəbəkələr bir çox başqaları kimi Emmanuel Makronun yüksəlişində böyük rol oynayıblar.

Şaker tezliklə Siyasi Elmlər İnstitutundan üz çevirir. Rişar Dezkuanq tərəfindən Asiya, Afrika və Orta Şərq arasında münasibətlər məktəbində, mübadilə və tərəfdaşlıq şöbəsinin rəhbəri təyin olunandan sonra Lüdovik Şaker, bütün diqqətini deputat seçkiləri kampaniyasına verir. Özü də kimin namizədliyini irəli sürsə, yaxşıdır? Özünün!.. Fransanın Şanxaydakı konsulluğunun keçmiş missiya icraçısı 2012-ci ilin iyununda 11-ci seçki dairəsində xaricdəki fransızları – keçmiş SSRİ-də, Asiya və Okeaniyada yaşan həmvətənlərini – ona səs verməyə çağırır. Sonra Siyasi Elmlər İnstitutunda başına on-on beş tələbə yığıb seçkilərə hazırlaşır. Onun bir neçə yaxın dostu da köməyə gəlir... Hətta İsmael Emelien da onun bəzi iclaslarında iştirak edir. Lüdovik Şaker 2012-ci ilin əvvəlində, bir neçə ay ərzində 11-ci seçki dairəsinə daxil olan ölkələrə, xüsusilə də Rusiyaya səfər edib orada yaşayan fransızlarla görüşür. “Onun kampaniyasında ancaq onun özünü o ərazilərdə tanıtdırmaq üçün çalışılırdı”, – deyə onun keçmiş könüllü məsləhətçilərindən biri bizə etiraf etdi. Düzdür, seçkilərdə Lüdovik Şaker cəmi-cümlətanı 1,99 faiz səs yığdı və onun kampaniya sertifikatı ictimai mühasibat tərəfindən təsdiqlənmədiyinə görə Konstitusiya Şurası tərəfindən cəzalansa da, bu macəra zamanı, o, gələcək millət vəkili, Fransa-Rusiya strategiyası assosiasiyasının prezidenti Terri Mariani ilə tanış oldu.

**(ardı var)**

Dünyadan gələn sorağımız

# “Şirvani” libası Əfqanıstandan Şri-Lankaya qədər necə yayılıb?

**Kimlər aparıb Şirvanda geyinilən bu libası Hindistan, Əfqanıstan, Pakistan, Banqladeş və digər ölkələrə? Necə olub ki, bu geyim belə populyarlıq qazanıb? Bütün bunları incələmək üçün tarixə bir ekskurs etmək gərəkdir.**

Zaman o zamanlar idi ki, əfşarların Qırxlı boyundan olan, Azərbaycan, Türküstan, indiki İran, Hindistan şahı, sonralar “Şərqin qılıncı”, “Şərqin Napoleonu”, “İkinci Makedoniyalı İsgəndər” kimi ləqəblər verilən Nadir şah Əfşar yadellilərə qarşı vuruşur, onların zəbt etdikləri Vətən torpaqlarını qaytarırdı. O vaxtlar Napoleon Bonapartın özü də Nadir şaha heyran olduğunu bildirib, o, Fətəli şah Qacara yazdığı məktubda Nadiri tərifləyib və özünü "İkinci Nadir" hesab edib, onu "Şərqin son fatehi" adlandırıb.

Tarixdən məlum olduğu kimi, Nadir şah 1729-cu ilin oktyabrında yadellilərin meydan suladığı İsfahana hücum edən və bu əraziləri tutmağa çalışan əfqan şahı Əşrəf xan üzərində qələbə çalır, bir il sonra isə Şiraz şəhəri Əşrəf xanın qoşunlarından azad olunur, Əşrəf xan isə öldürülür.

1737-ci ildə Nadir şah yenidən üsyana qalxmış əfqanlara qarşı çıxış edir və həm Heratı, həm də Qəndəharı tutur. Bir il sonra Nadir şahın qoşunları Qəznəni və Kabili özünə tabe edir.

Əfqanıstan əraziləri tam olaraq Nadir şahın tabeliyinə keçdikdən sonra Səfəvi sərkərdəsi özü ilə Azərbaycandan gətirdiyi 12 min türk ailəsini Əfqanıstanda yerləşdirir.

Əfqan Dürrani hökmdarları burada məskunlaşan Azərbaycan türklərinin yüksək hərbi potensialına görə onlarla yaxınlaşır, həmvətənlərimiz orduya cəlb edirlir və hətta Dürrani hökmdarlarının şəxsi mühafizə alayı da soydaşlarımızdan təşkil olunur. Onların arasında qarabağlılar, cavanşirlər, əfşarlar, şirvanlılar, həmçinin şahsevən, boyat, qaşqay, köçəri kəbəri türkləri də olub. Həmin vaxt Əfqanıstandakı Azərbaycan türklərinin siyasi və hərbi qüdrəti yüksək idi.

Dürranilərin zamanında qızılbaşlar o qədər qüdrətli olub ki, Əhməd xan vətəndaş müharibəsindən qaçmaq üçün onlara Bəlxi ələ keçirmək tapşırığı verib. Qızılbaşlar isə bunu asanlıqla ediblər.

1839-cu ildə Mərkəzi Asiyada Rusiya və Britaniyanın qarşıdurması şiddətlənir, Britaniya ordusu Kabilə girir, bu zaman qızılbaşların bir qismi Britaniya ordusuna yazılır. 1842-ci ildə məşhur Kabil üsyanı zamanı Britaniya ordusu məğlub olur, qızılbaş bəylərinin bir qismi və onların yaxınları sağ qalan britaniyalılarla birlikdə Hindistana keçirlər və onlara müasir Pakistan ərazisindəki Lahor vilayətində mülk verilir. Britaniyalılarla gedənlərin başında əslən Azərbaycanın Şirvan mahalından olan Azərbaycan türkləri durub.

Bu da məlumdur ki, Şirvanşahlar dövlətinin süqutundan sonra Moğol və Osmanlı dövlətinə köç edən şirvanlıların özləri ilə apardıqları “şirvani” libası populyarlıq qazanıb və bu günümüzə qədər gəlib çıxıb. Əvvəl Əfqanıstanda, sonra isə Hindistanda məskunlaşan Azərbaycan türkləri təbii ki, özləri ilə geyim mədəniyyətini, adət-ənənələrini, toy-yas adətlərini də aparıblar. İstər Əfqanıstan, Hindistan, sonralar isə Hindistandan ayrılan Pakistanda kişi və qadın üst geyimləri yerli xalqlar tərəfindən də bəyənilib, hətta qonşu ölkələrə də yayılıb.





Pakistan dövlətinin banisi Məhəmməd Əli Cinnah da təntənəli mərasimlərdə “Şirvani” libası geyinib

Günü bu gün də Hindistan, Əfqanıstan, Pakistan, Banqladeş, Şri-Lanka, həmçinin Butan, Nepal, Maldiv adaları və digər ölkələrdə “şirvani” və ya “shervani” deyilən milli kişi üst geyimi çox populyardır və bu libasları aristokratlar geyinir. Hindistanda bəzi hallarda bu libasa indusların baş geyimini də əlavə edirlər. Bu ölkələrdə gənclər evlənməyə hazırlıq gördükləri zaman bəylər də məhz “şirvani” geyiminə üstünlük verirlər. Bu geyimin də yay və qış variantları tikilir.

İndi Hindistanda və Pakistanda Şirvani soyadlını daşıyan böyük bir nəsil yaşayır. Yeri düşmüşkən onu da deyək ki, şirvanlıların bir qolu da Misirin Nubiya və Sudanın şimalına-məmlüklərə gedib çıxır. Hazırda Şirvani nəsli Sudanın Marağa və Dənqələ adlı şəhərlərində də yaşayır.

Tarix üzrə fəlsəfə doktoru Səbuhi Əhmədov “Şirvani” - Cənubi Asiyada kişi geyimi növü” adlı (1news.az) məqaləsində yazır: “Uzun kişi gödəkçəsi şəklində olan bu geyim Cənubi Asiya ölkələrində - Əfqanıstandan Şri-Lankaya qədər geniş yayılıb. “Şirvani” rəsmi tədbirlər və toylar üçün nəzərdə tutulan geyimdir. “Şirvani” libası aristokratların daimi geyimi, yüksək vəzifəli məmurların mərasim geyimi, bəyin toy geyimidir. Məşhur hind filmlərinin tamaşaçıları yəqin ki, film qəhrəmanlarının üzərində “şirvani” geyimi görüblər, lakin bu uzun gödəkçənin adı ilə maraqlananlar az olub”.

Tarixçilərin fikrincə, bu geyim məhz həm də Moğollar dövründə Şirvandan Hindistana köçən Azərbaycan türkləri tərəfindən aparılıb. O da məlumdur ki, “Şirvan bölgəsinin mədəniyyəti Moğol imperator sarayının incəsənətinə və mədəniyyətinə mühüm təsir göstərib.” (S.Ə. Göstərilən məqalə)

Pakistan dövlətinin memarı və qurucusu Məhəmməd Əli Cinnah mərasimlər və səfərlər zamanı qaragül dərisindən papaq və "şirvani" geyinib, bundan sonra ölkədə “şirvani” geyimi daha da populyarlaşıb, faktiki olaraq bu libas Pakistanın milli geyiminə çevrilib. Məhəmməd Əli Cinnah özəl görüşlərin birində deyib ki, sifarişlə xüsusi hazırlanan 200-dən çox “sherwani” libası var.



Hind filmlərində də “Şirvani” geyimlərindən istifadə edilir



“Şirvani” XIX əsr, Hindistanın Mexranqar fort muzeyi

Hindistanda yaxın zamanlara qədər rəsmi qəbullar zamanı da “shervani” geyimindən istifadə olunub.

Şri Lanka İngiltərənin müstəmləkəsi olan zaman “sherwani” hərbi mundir kimi geyinilib. Şri Lankanın xarici ölkələrdəki diplomatik heyətinin rəsmi tədbirlərdə “sherwani” geyinməsi mütləq idi.

Onu da qeyd etmək lazımdır ki, Hindistan və Pakistanda “chapkan” (“çəpkən”) və “chogha” (“çuxa”) Azərbaycan milli geyimindən də istifadə olunur, bu geyimləri Britaniya Hindistanına və farslara bağlamaq istəyənlər olsa da...

Hazırda Pakistanda toy və digər ailəvi mərasimlər üçün “sherwani” geyimini reklam edən şirkətlər xeyli pul qazanır. Belə reklamların üçünə diqqət edək: “Bəylər üçün dəbdəbəli naxışları olan “sherwani” ilə toy gününüzdə yaxşı görünün. Xam ipəkdən hazırlanmış bu ənənəvi toy geyimi parıldayan qızılı və qəhvəyi çalarlarla özəl gününüzdə sizin yaraşıqlı görünüşüzü təmin edəcək”, “Sherwani” kürəkən üçün onun özəl günündə mükəmməl seçimdir. Dəbdəbəli qızılgül rəngi və incə tikişi ilə “sherwani”nin bu modeli başları çevirəcək.

Toylar üçün mükəmməl əl işi olan “sherwani” dəblilik və sadəlik arasında mükəmməl tarazlığın nadir nümunəsidir”, “Qızılı saplarla bəzədilən mərasim tacı, ağ “sherwani” geyinmiş hər kəs kral toyuna gedən şahzadəyə bənzəyəcək” və s.

Son olaraq onu da deyək ki, ancaq Pakistanda “şirvani” geyiminin 50-yə yaxın modeli var və bu üst geyiminin populyarlığı günbəgün artır.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan müxbiri*

**Daşkənd**

# Hay nasizmi faşizmdən 30 il əvvəl yaranıb

## *Yaxud müasir erməni irqçiliyinin tarixi kökləri və özəllikləri*

**(əvvəli qəzetin ötən sayında)**

“Daşnaksütyun“ partiyasının fəaliyyətini ardıcıl izləyən gürcü yazıçısı Karibi 1919-cu ildə təəssüf hissi ilə yazırdı: “Daşnaklar gələrkən özləri ilə milli nifrət toxumu gətirdilər. Deməliyəm ki, bu toxumun səpildiyi torpağın üzərində erməni–müsəlman qan davası və erməni-gürcü müharibəsindən başqa bir şey bitə bilməzdi”. Müasir erməni millətçiliyi də müxtəlif irqlər arasındakı bioloji fərqliliklərin toplu halında və ya fərdi olaraq ortaya çıxdığını iddia edir. Onlar bir irqin (özlərinin) digərlərindən üstün olduğuna inanır və bu doktrinanı qəbul edib onu təbliğ edir. (Qarabağı və Azərbaycanın digər rayonlarını işğal edən ermənilər “qələbələrini” onların üstün irqdən gəldiklərinə bağlamışdılar). Deməli, üç əsr əvvəl Venesiyada əsasən kitablar və qəzet-jurnal nəşr edib ermənilərin toplu halında yaşadıqları bölgələrə göndərərək onları başqalarından fərqli olmağa inandıran **mxitarizm** öz işini görmüşdü.

Özlərinin etnik dəyərlərini tək meyar olaraq təyinetmə **(etnik mərkəziyyətçilik),** fərqlilik qorxusu **(zenofobi) əsasında** yaradılmış millətçilik bir sistem, ideoloji düşüncə olaraq yalnız erməni millətinə aid idi. İrqlər arasında birləşmələrə və əlaqələrin olmasına qarşı çıxmaq və millətçilik kimi anlayışları da özündə ehtiva edirdi. Onu ictimai ayrı-seçkiliyin, irqlər arasında fərqliliklərdən soyqırıma qədər gedə bilən bir doktrina halına gətirib çıxarmaq üçün ermənilərə iki-üç əsr kifayət etdi. Hazırda bu milli ayrı-seçkilik anlayışı erməni dövlətinin doktrinasına tamamilə uyğundur. Bu sistemə görə, erməni irqçiliyi, ümumi xətləri ilə araşdırıldıqda, bu qanı daşıyan, eyni dildə danışan və eyni soydan gələnlərin başqa soyların nümayəndələrindən üstün hesab edilir. Avropalıların Amerikanı kəşf etməsindən sonra Afrika mənşəli xalqları kölə kimi satışa çıxaran, özünə tabe edən amerikalılar başda olmaqla irqçi anlayışı o dövrdə normal qarşılansa da, günümüzdə mənfi qiymətləndirilir. Özlərini başqalarından fərqli və üstün görmək xəstəliyi Ermənistanda bu gün də normal haldır.

Torpaqları genişləndirmək şüarı ilə hakimiyyətə gəlmiş Ermənistan Respublikasının ilk prezidenti Levon Ter-Petrosyan ölkəsində irqçiliyin geniş yayıldığını etiraf etmiş və bunun milləti məhvə aparacağını demişdi: “…Ermənilər inandılar ki, əgər Almaniya 1930-40-cı illərdə bir müharibə başlasa, o zaman, bu, mütləq Türkiyəyə qarşı olacaq”. Artsruninin davamçısı olan Njdenin bir məqsədi var idi – Türkiyəyə qarşı çıxmaq və ona qarşı döyüşəcək güclü tərəfin yanında olmaq. 1927-ci ildən bəri onun təlimində iki söz ortaya çıxdı: etnik ayrı-seçkilik və “tsexakronizm-irqçilik”... O deyirdi ki, yeni dövlət qurarkən biz bu məfhumların heç birindən imtina edə bilmədik. Çünki bunlar müasir Ermənistanın həyat tərzinə çevrilmişdi**.**

Ter-Petrosyan etiraf edir ki, bugünkü Ermənistanın rəsmi ideologiyası ermənilikdir. Onlar buna **“hayutyun”** **(“**հայություն**”)** deyirlər. Elmi ədəbiyyatda onu “**armenizm**” də adlandırırlar. Bir çox



araşdırmaçılara görə, ermənilik (armenizm) hay toplumu üçün mükəmməl ideologiya sayila bilməz. İdeologiyanı konkret şəxslər formalaşdırır və sonra toplumun malı edirlər. Ermənistan dövlətinin başında duran adamlar açıq deyirlər ki, ideologiyamız Andranik Ozanyanın mübarizəsinə söykənir və Garegin Njdenin yaratdığı təlimlə şəkillənir. Haradasa haqlıdırlar. Uzun illər ermənilər Andranikizm ideologiyası ilə nəfəs almışlar. Njdenin ötən əsrin 30-cu illərində yaratdığı və faşizmə söykədiyi “Tsexakronutyun” adlanan təliminin Ermənistanın rəsmi dövlət ideologiyası kimi qəbul edilməsi onu göstərdi ki, hələ erməni millətinin ciddi, bəşəri humanizmə söykənən ideologiyası yoxdur. “Türk düşmənçiliyi” bu ideologiyanın əsasıdır. Erməni təfəkkürü bu düşmənçiliyin gətirdiyi fəlsəfə ilə ideal seçir. Ermənilər üçün “Vətənin xilaskarı”, bizim üçün isə bir faşist, türk düşməni olan Njde “Həbsdən məktublar”ında erməni millətinin mövqeyini müəyyənləşdirmişdi: **“Kim Türkiyə ilə bərabərdirsə, o, mənim millətimin və tarixi ərazi haqqımızın düşmənidir. Elə bir düşməndir ki, heç bir Tanrı mənimlə onları barışdıra bilməz. Bu, mənim siyasi mövqeyimdir”.**

Bugünk**ü** erməni cəmiyyəti bu prinsipi özünün həyat kredosu, mübarizə vasitəsi sayır. Bu, **həm də Ermənistan dövlətinin ideoloji xəttidir. Ermənilər həmin xətdən heç cür imtina edə bilmirlər. Çünki bəşəri dəyərləri özündə ehtiva edən ideyaya sahib deyillər.** Onların belə bir ideyas**ı** **heç** vaxt olmayıb. Bundan əvvəlki hakimiyyətin, yəni Serj Sarkisyanın başçılıq etdiyi Ermənistan Respublikaçılar partiyasının rəsmi ideologiyası Njdenin irəli sürdüyü təlim – “tsexakronizm” idi. Partiyanın emblemi də tsexakronçularla faşistlərin ortaq emblemi idi. Ondan əvvəlki hakimiyyətlərin də hədəfindəki düşmən “türklər”, yəni Azərbaycanda, Türkiyədə və ya başqa yerlərdə yaşayan insanlar olublar.

Buna görə də Ermənistanda təbliğat və rəsmi ideologiya səviyyəsində hökm sürən, belə demək mümkünsə, azərbaycanafobiya haqqında danışarkən, əsas diqqəti bu düşüncənin məmurlar tərəfindən qoyulduğuna çəkmək lazımdır: millət vəkilləri, dövlət adamları, ölkə prezidentinə qədər müxtəlif səviyyəli məmurlar Azərbaycana nifrət toxumlarını səpməkdə davam edirlər. Hər gün Ermənistan mətbuatı Azərbaycanı ləkələmək, onun yaxşı işini pisləməklə məşğuldur. Hay alimləri, politoloqları Azərbaycanı ittiham etmək üçün yarışa giriblər. Bu ölkədə Azərbaycana nifrət hisslərinin əsas tədarükçüsü və qanunvericisi rəsmi dövlət orqanları, dövətin yürütdüyü siyasətdir. Bunun özü isə ənənəvi tarixi düşmənçiliyə söykənən təbliğatın şəklidir. Bu tablo artıq neçə əsrdir ki, dəyişmir. Maraqlıdır ki, onların zehinlərində və hərəkətlərində utanmaq hissi yoxdur. Azərbaycan və Türkiyəyə qarşı təcavüz və dözümsüzlüyü yayan insanlar burada ən hörmətli adamlar sayılır, “millətin qaymaqları” hesab edilirlər.

**(ardı var)**

*Qafar ÇAXMAQLI,*
*XQ-nin Türkiyə müxbiri*

# Ölkəmiz Şimal – Cənub nəqliyyat dəhlizinin də önəmli qovşağıdır

(əvvəli 1-ci səhifədə)

Ötən il Azərbaycan mühüm strateji əhəmiyyətə və yüksək tranzit potensialına malik Şimal – Cənub dəhlizinin inkişafı üçün qonşu ölkələr və beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində mühüm addımlar atıb. Məlum olduğu kimi, ilin son ayında Azərbaycan və Rusiya arasında Şimal – Cənub dəhlizi ilə tranzit yük daşımaları, o cümlədən dəmiryol daşımalarının inkişafı üçün əməkdaşlığı nəzərdə tutan saziş imzalanıb. Sazişin məqsədi dəmiryol infrastrukturunun və tranzit daşımalarının inkişafı üzrə əməkdaşlığın şərtlərini müəyyən etmək və Şimal – Cənub dəhlizinin Qərb marşrutunun potensialını artırmaqdır. Sözügedən saziş üzrə əməkdaşlıq sayəsində dəmiryol nəqliyyatına yeni yüklərin cəlbi stimullaşdırılacaq. Eyni zamanda, daşıma həcmlərinin artımı və dəmiryol nəqliyyatı infrastrukturunun inkişaf tempi balanslaşdırılacaq.



Ölkəmiz Şimal – Cənub dəhlizi çərçivəsində qonşu İran İslam Respublikası ilə də əməkdaşlığı getdikcə genişləndirir. 2024-cü ilin dekabr ayında "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi İrana səfəri çərçivəsində bu ölkənin dəmiryol rəsmiləri ilə görüş keçirib. Görüş zamanı İranın Astara şəhərində yerləşən terminalın inkişafı ilə bağlı əsas mərhələlər və icra müddətləri, terminalda həyata keçirilən işlərin 2025-ci ilin sonunadək başa çatdırılması, yeni əməkdaşlıq sahələri və maliyyələşdirmə planları müzakirə edilib. Bununla yanaşı, Azərbaycan və İran ərazilərində yerləşən Astara terminallarının idarəçiliyini həyata keçirən "Cənub Yük Terminalı" Məhdud Məsuliyyətli Cəmiyyətin fəaliyyətinin genişləndirilməsi ilə bağlı ətraflı müzakirələr aparılıb.

"Azərbaycan Dəmir Yolları" QSC Şimal – Cənub dəhlizi üzrə artan yükaşırma həcmlərini daha sürətli və effektiv həyata keçirmək üçün 2024-cü ildə ölkəmizin ərazisindəki Astara yük terminalının yenidən qurulmasını başa çatdırıb, ərazidə sürətli gömrük-keçid xidmətinin yaradılmasına nail olub. Yenidənqurma işləri çərçivəsində yük anbarı müasir standartlara uyğun təmir edilib, terminal lazımi texnika və təhlükəsizlik kameraları ilə təchiz edilib. Eyni zamanda, yüklərin çəkisini müəyyən etmək üçün tərəzi və sürətli internetlə təchiz olunmuş gömrük məntəqəsi yaradılıb.

Terminal multimodal daşıma xidmətləri təqdim edərək ekspeditor şirkətləri üçün yeni imkanlar yaradır. Qəbul edilən yüklərin daşınması və aşırılması üçün endirimli tariflər tətbiq olunur. Terminalın fəaliyyəti Şimal – Cənub dəhlizi üzrə tranzit yükdaşımaları ilin sonunadək 10-15 faiz artırmağa imkan verib. Terminalın potensialının Astara – Rəşt dəmiryol xətti istifadəyə verildikdən sonra daha böyük yük həcmi üçün reallaşdırılması planlaşdırılır.

Bütövlükdə isə, "Azərbaycan Dəmir Yolları" QSC Şimal – Cənub dəhlizinin inkişafı üçün intensiv işlər görür. Məlum olduğu kimi, ötən ilin sentyabr ayında Asiya İnkişaf Bankı ilə Sumqayıt–Yalama xəttinin modernləşdirilməsi üçün 131,5 milyon dollar məbləğində kredit sazişi imzalanıb.

Xatırladaq ki, Şimal – Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin təməli 2000-ci il sentyabrın 12-də Rusiya, İran və Hindistan arasında imzalanmış hökumətlərarası saziş əsasında qoyulub. Dəhlizin yaradılmasında məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılma müddətini azaltmaqdır. Ötən müddətdə 13 ölkə sözügedən sənədi ratifikasiya edib. Yeri gəlmişkən, hazırda mövcud marşrutla Hindistandan Rusiyaya yüklərin çatdırılması üçün 6 həftədən artıq vaxt tələb olunur. Beynəlxalq nəqliyyat dəhlizinin tam fəaliyyətə başlamsı isə bu müddətin iki dəfə azalmasına səbəb olacaq.

Şimal – Cənub Nəqliyyat Dəhlizinin formalaşmasında tranzit ölkə kimi mühüm rol oynayan Azərbaycan bu sazişə 2005-ci ildə qoşulub. Avrasiya materikinin şimal və cənub hissələri arasında mühüm nəqliyyat-logistika rolunu oynayan dəhlizin Azərbaycan ərazisindən keçən hissəsində ötən müddətdə böyük infrastruktur layihələri həyata keçirilib. Bu baxımdan Bakı Dəniz Ticarəti Limanı xüsusi əhəmiyyət daşıyır. Son illər limanın yükaşırma qabiliyyətinin artırılması ilə bağlı görülən işlər onun beynəlxalq statusunu xeyli gücləndirir. Bundan əlavə, Ələt – Astara avtomobil yolunun yenidən qurulması, İran Astarası ilə Azərbaycan Astarası arasında yeni dəmir yolu körpüsünün istifadəyə verilməsi ölkəmizin tranzit rolunun xeyli artmasına səbəb olub.

Prezident İlham Əliyevin "Şimal – Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında" 7 dekabr 2015-ci il tarixli Sərəncamına uyğun olaraq Astara (Azərbaycan) – Astara (İran) dəmir yolu xəttinin Astaraçay üzərindəki körpüyə qədər 8,3 kilometr yeni yol tikilib, Astaraçay üzərində dəmiryol körpüsü inşa olunub, buradan İran İslam Respublikası ərazisində yaradılmış yük terminalına qədər 1,4 kilometr yol çəkilib.

Bütövlükdə isə, dəhlizin tam gücü ilə fəaliyyətə başlaması gələcəkdə Azərbaycanın da tranzit gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq. Ekspertlərin fikrincə, ölkəmiz Şimal – Cənub dəhlizi ilə tranzit yüklərin daşınmasından ildə 2,5-3 milyard dollar qazanacaq.

# Naxçıvan, Şərqi Zəngəzur və Qarabağ "yaşıl enerji" poliqonuna çevrilib

**Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində qeyd etdi ki, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan Muxtar Respublikası sosial-iqtisadi, "yaşıl" enerji və təhlükəsizlik baxımından vahid bir məkana çevrilməlidir. Hazırda bir-birinə tarixən bağlı olan bu bölgələr vahid konsepsiya əsasında inkişaf edir, bərpa-quruculuq layihələri sürətlə həyata keçirilir. Bu iqtisadi rayonların vahid konsepsiya ilə inkişafı dedikdə, onların qarşılıqlı əlaqədə inkişafı nəzərdə tutulur. Zəngəzur dəhlizi açıldıqdan sonra bu regionlar həm ölkə iqtisadiyyatı üçün, həm region, həm də Türk dünyası üçün əhəmiyyətli rol oynayacaq.**



Qeyd edək ki, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan Muxtar Respublikasının xüsusi sosial-iqtisadi və siyasi əhəmiyyətini nəzərə alan ölkə rəhbəri sözügedən regionlarda xüsusi idarəetmə növü – Səlahiyyətli və Xüsusi Nümayəndəlik institutları yaradıb. Daha çevik və şəffaf idarəetmənin təkmilləşdirilməsi məqsədi ilə səlahiyyətli və xüsusi nümayəndələrin təyin olunması regionlarda müvafiq dövlət proqramlarının, xüsusi iqtisadi və sosial yönümlü layihələrin uğurla icrasını şərtləndirib. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasındakı səlahiyyətli nümayəndəsi və Qarabağ və Şərqi Zəngəzura aid rayonlarda fəaliyyət göstərən xüsusi nümayəndələr ölkə başçısının həyata keçirdiyi sosial-iqtisadi inkişaf strategiyasını həmin regionlarda tətbiq edir.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin müvafiq sərəncamla təsdiqlədiyi "2023-2027-ci illər üçün Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" muxtar respublikanın hərtərəfli inkişafını hədəfləyir. Eyni zamanda, bu sənəd ölkə tarixində əhatəsinə, nəzərdə tutulan büdcəsinə görə ən böyük dövlət proqramlarından biridir. Sənədin icrası nəzərdə tutulan böyük perspektivdən xəbər verir.

Azərbaycan Prezidenti yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibədə hər üç regionun vahid konsepsiya əsasında inkişaf edəcəyinin anonsunu verməklə gələcəkdə bu iqtisadi rayonların böyük perspektivlərinin olacağını diqqət çatdırdı. Qeyd edim ki, dövlət başçısı 2024-cü ilin son ayında muxtar respublikanın iqtisadi inkişafına ciddi töhvə verəcək iki mühüm qərar qəbul etdi. Bunlardan biri Naxçıvan Muxtar Respublikasında yeni Sənaye Parkının yaradılması, digəri isə Naxçıvanda yeni İstilik Elektrik Stansiyasının tikintisidir.

Yeni yaradılacaq sənaye parkı bölgənin sənaye potensialının artırılmasını, yeni iş yerlərinin açılmasını təmin etmək məqsədi daşıyır. Bu, həmçinin yerli istehsalın artırılmasına və xarici investisiyaların cəlb edilməsinə şərait yaradacaq. Eyni zamanda, kiçik və orta biznesin inkişafına töhvə verəcək, bölgə iqtisadiyyatının şaxələndirilməsini təmin edəcək.

Muxtar respublikada icra olunacaq və bölgənin ən irihəcmli layihələrindən hesab edilən yeni İstilik Elektrik Stansiyasının isə iki əsas faydası gözlənilir. Birincisi, muxtar respublikanın enerji dayanıqlığı tam reallaşacaq, bütün hallarda enerji təminatının tam müstəqilliyi bərpa olunacaq. İkinci əsas məsələ isə ondan ibarətdir ki, stansiya muxtar respublikada alternativ və bərpaolunan enerji potensialının istifadə olunması üçün balans rolunu oynayacaq. Bu, həm də muxtar respunlikanın enerji ixracını təmin etmək üçün birbaşa dəstəkdir.

Görülən işlər bir daha onu göstərir ki, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən layihələr uğurla icra olunur, verilən vədlər yerinə yetirilir. Bunun nəticəsində Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan vahid konsepsiya ilə inkişaf edir.

***Tural MURTUZƏLİYEV,***
***iqtisad üzrə fəlsəfə doktoru,***
***Naxçıvan MR Dövlət Energetika Xidməti rəisinin müavini***



# "Murovdağ" Cənubi Amerika limanlarında

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) ötən ilin oktyabr ayında aldığı sayca ikinci "Handysize" tipli "Murovdağ" gəmisi Kolumbiya və Ekvadora ilk səfərini uğurla tamamlayıb. Gəmi hazırda Çilinin Tokopilla limanına tərəf hərəkət edir, burada gübrə və ammonium nitrat yükünü anbarlarına yükləyəcək və daha sonra Braziliyanın Salvador limanına doğru istiqmət götürəcək. Bu barədə XQ-yə ASCO-dan məlumat verilib.**

Bildirilib ki, "Murovdağ" nəhəng quru yük gəmisi "Xəzər Dəniz Gəmiçiliyi"nin 2024-cü ilin mayında istifadəyə verdiyi ilk "Handysize" tipli "Xocalı" gəmisi kimi, təxminən, 38 min ton yükgötürmə qabiliyyətinə (dedveytə) malikdir. Gəminin uzunluğu 179,9 metr, eni 30 metr, bortunun hündürlüyü 15 metr, suya oturumu isə 10,47 metrdir. Maksimum sürəti 15,7 uzel olan gəmi suya oturumunun optimal dizaynı sayəsində bir çox dayaz limanlara da rahatlıqla daxil ola bilir.

Xatırladaq ki, 2020-ci ildə Yaponiyada inşa edilmiş "Murovdağ" ekoloji baxımdan beynəlxalq standartlara cavab verir, yanacaq sərfində qənaətcilliyi ilə seçilir. Gəmi müasir təhlükəsizlik sistemləri ilə təchiz edilib.

# BMT-nin Azərbaycanda iqtisadi artım proqnozu

**BMT-nin "2025-ci il üçün dünyada iqtisadi vəziyyət və perspektivlər" hesabatında Azərbaycanda iqtisadi artımın bu il 3 faiz səviyyəsində proqnozlaşdırıldığı bildirilib. Hesabata əsasən, keçən il ölkə iqtisadiyyatında müsbət dinamika müşahidə olunub.**



Hesabatda qeyd edilib ki, Azərbaycanda iqtisadi artım 2024-cü ildə daxili tələbatın güclənməsi və qeyri-neft sektorunun inkişafı sayəsində sürətlənib. Azərbaycan təbii qazına qlobal tələbatın 2025-ci ildə ÜDM artımını dəstəkləyəcəyi proqnozu da sənəddə yer alıb.

BMT-nin qiymətləndirmələrinə görə, 2024-cü ilin yekunlarına əsasən, respublikamızda ÜDM 2023-cü ildəki 1,1 faiz artımdan sonra 4,6 faiz çoxalıb. İqtisadiyyat Nazirliyində isə ÜDM-in 2025-ci ildə 3,5 faiz, 2026-cı ildə isə 2,8 faiz səviyyəsində artacağı proqnozlaşdırılıb.

# Neft Şirkətinin "yaşıl" istiqrazları

**Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) 2025-ci il yanvarın 15-dən etibarən "yaşıl" istiqrazların buraxılışına start verir. Şirkətin bununla bağlı məlumatında bildirilib ki, nominal dəyəri 1000 dollar olan istiqrazlar sahiblərinə illik 6 faiz gəlir qazandıracaq. Ümumi buraxılış məbləği 200 milyon dollar olan və 5 illik müddətə buraxılan "yaşıl" istiqrazların kupon ödənişləri hər 3 aydan bir ödəniləcək. Neft Şirkətinin "yaşıl" istiqrazlarını əldə etmək üçün nəzərdə tutulan müddət bu il fevralın 28-də başa çatır.**

İstiqrazların "yaşıl" adlandırılması təsadüfi deyil. Çünki BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı – COP29 tədbirinə ev sahibliyi edən ölkəmiz üçün "yaşıl" enerjinin inkişafı və təşviqi məsələləri prioritet əhəmiyyətə malikdir. Buna görə də "Yaşıl gəlir, yaşıl gələcək" şüarı ilə buraxılan istiqrazlar vətəndaşlara etibarlı və sabit gəlir qazandırmaqla yanaşı, Azərbaycanın "yaşıl" enerji sahəsindəki təşəbbüslərini də dəstəkləmək məqsədi daşıyır. Dövlət Neft Şirkəti bu emissiya vasitəsilə ekoloji cəhətdən təmiz enerji mənbələrinin inkişafına töhfə vermək və sürətləndirmək niyyətindədir.




Neft Şirkəti daxili kapital bazarları üçün ilk istiqraz buraxılışını 2016-cı, ikincini isə 2021-ci ildə həyata keçirib. İstiqrazlar tədavülə buraxılandan indiyədək ən çox ticarət olunan korporativ qiymətli kağızdır.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Döyüşçü atanın igid oğlu

**2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində Talış-Suqovuşan və Ağdərə uğrunda gedən döyüşlərdə rəşadətlə vuruşaraq şəhid olmuş Fərid İsmixan oğlu Cəfərov belə igidlərimizdən biridir.**



Ailənin ikinci övladı olan Fərid 13 yanvar 1998-ci ilin qarlı-şaxtalı bir qış günündə Yevlax rayonunun Quşçu kəndində anadan olmuşdu. Bütün uşaqlar kimi sevilərək, əzizlənərək böyüyüb, orta məktəbi qurtarıb, sonra əsgərliyə getmişdi. Hərbi xidməti dövründə özünü nümunəvi əsgər, tərbiyəli, vətənsevər gənc kimi göstərmişdi.



Atası İsmixan Cəfərov Birinci Qarabağ müharibəsinin döyüşçüsü olduğu üçün Fərid əsgərlik dövründə özünü atasına layiq bir şəkildə aparmış, nümunəvi əsgər kimi də xidmətini başa vurub evinə-ailəsinə dönmüşdü. Bir müddət atasi ilə ə-ələ verib tikinti işlərində çalışıb özlərinə də ev-eşik tikirlər. Günlərin birində ata-anasının xeyir duası ilə Fəridə adlı xanımla ailə qrur, bir qız atası olur. 2020-ci ilin sentyabrında – qurtuluş savaşımız başlayanda körpə qızı Nurlananın 1 yaşı yenicə tamam olmuşdu. Amma həmin günü Fərid qərar verir; qızım bu torpaqlarda güllə səsi eşitmədən, xoşbəxt yaşaması üçün mən bu gün müharibəyə getməliyəm.

Səfərbərlik çağırışını eşidər-eşitməz komissarlığa gedib özünü cəbhəyə çatdırmaq üçün tələsib. Atası deyir ki, onu müharibyə yola salanda dedim ay oğul, düşməni məğlub eləmək bizə nəsib olmadı, Allah sizə qismət eləsin. Evə, balanın yanına üzüağ, zəfərlə qayıt: "İpək kimi yumşaq ürəyi vardı, hamıya qarşı mehriban və səmimi idi Fərid. Müharibə xəbərin eşidəndə o Fəriddən əsər-əlamət qalmamışdı. Hiss edirdim ki, xarakteri bir gündə dəyişdi. Deyirdi ata, düşməndən qisas almaq hissilə içimi alışıb-yanır".

Birinci Qarabağ müharibəsinin döyüşçüsü olmuş İsmixan Cəfərov o ağrı-acıları yaşamışdı, müharibənin nə demək olduğunu, şəhid gəldiyi evə necə atəş düşdüyünü yaxşı bilirdi. Amma oğlunu özü yola salmışdı müharibəyə, sonun nə olacağını bilə-bilə: "İlk dəfə torpaqlarımızı işğal etmək niyyətilə düşmən baş qaldıranda subay və gənc idim. Nankor ermənlərin ayaqaltı etdikləri müqəddəs torpaqlarımızı qorumaq üçün döyüşlərə qatılsam da, nə yazıq ki, o dövrün şərtləri bizi bu savaşda məğlub etdi, silah-sursat yox, ordu yox, iqtisadi güc yox, xalqın müharibə psixologiyası heç yox... Nəhayət, sentyabr ayı gəldi, müharibəyə gedəcək deyə, uşağın üstünə gün doğmuşdu".

Ata isə fəxr eləyirdi onun bu kişiyana hərəkətilə. Oğlu böyük şairimiz Bəxtiyar Vahabzadənin bir bənd şerini əzbər bilirdi:

**Vətənin arxasında,**
**Biz həmişə dağ olduq.**
**Vətən bizimçün deyil,**
**Biz Vətənçün doğulduq.**

Beləcə, atasının xeyir-duasını alıb, anası Aynur xanımın əllərindən öpüb həyat yoldaşı Fəridə xanımla halallaşıb, 1 yaşlı qızı Nurlananı bağrına basıb özünə verdiyi sözü yerinə yetirməyə gedir. "Qızım qanın-qadanın, müharibənin bitdiyi, azad və xoşbəxt bir ölkədə yaşasın".

Ağır döyüşlərə qatılandan bir neçə gün sonra Fərid Talış-Suqovuşan və Ağdərə uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla şəhid olur və doğulub böyüdüyü Quşçu kəndində torpağa tapşırılır. Cəfərov Fərid İsmixan oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə «Vətən uğrunda», «Suqovuşanın azad olunmasına görə» və «Cəsur döyüşçü» medalları ilə təltif olunmuşdur.

İsmixan Rəhimov övlad acısı yaşasa da, deyir ki, ölkəmizin əsl sahibi möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çevik siyasəti, polad iradəsi və yenilməz sərkərdəliyi ilə qüdrətli ordumuz illər boyu arzuladığımız şanlı Zəfər salnaməsinin müəllifi oldu. Bu gün azadlıqda olan, şəhid qanı ilə canlanan Qarabağ torpağına mənim yeganə oğlumun, Fəridimin də qanı qarışıb.

Fəridin yadigarı Nurlana xeyli böyüyüb, sevgisi, şıltaqlığı ilə anasının, nənə-babasının hüznlü evinə işıq, həyat gətirir, varlığı ilə onların yaralarını sarıyır, yaşama səbəbləri olur. Nurlana Fəridin şərəfli ömrünün davamçısıdır.

Şəhidin atası İsmixan Cəfərov deyir ki, istər rayonda olsun, istər Quşçu kəndində hər kəsdən hörmət, qayğı, sevgi görür ailəsi: "Dövlət başçısından tutmuş, sıravi vətəndaşa qədər hamıdan qayğı, sevgi, isti davranış görürük. Bu da bizi duyğulandırır, oğlumun adı gələn yerdə axan sular durulur, hamı ehtiram göstərir. Oğlumla qürur duyuruq. Yerli icra orqanları da hər bir arzu, təklif və müraciətlərimizi həssaslıqla dinləyir. Pay torpagı veriləcəyi də nəzərdə tutulub. Onunla təskinlik tapırıq ki, gözəl Qarabağda artıq üçrəngli bayrağımız dalğalanır.

*Əminə YUSİFQIZI,*
*Əməkdar jurnalist*

# Qəhrəman polkovnik

**2016-cı ilin məlum Aprel döyüşlərində fərqlənərək Milli Qəhrəman adına layiq görülmüş, İkinci Qarabağ müharibəsində doğma rayonu Qubadlının işğaldan azad edərkən şəhadətə qovuşmuş polkovnik Şükür Həmidovun ölməz ruhuna sayğılarla**



**El qeyrəti çəkən oğul doğuldun,**
**Vətən sevdalısı, igid, ər oldun!**
**Döyüş meydanında oddan yoğruldun!**
**Sandın sönən ocaq – sinəndə kösöv...**
**Qəhrəman polkovnik Şükür Həmidov!**

**Aprel döyüşləri – zabit sınağın,**
**Lələtəpə oldu döyüş bayrağın!**
**"Milli Qəhrəman"lıq – cəsur sorağın!**
**Görmək istəyirdin Vətəni bütöv,**
**Qəhrəman polkovnik Şükür Həmidov!**

**Qorudun bayrağın ucalığını,**
**Bağrına basaraq Azərbaycanı!**
**Vətən savaşında sözünün canı –**
**Düşmənin gözünü Qarabağda oy!..**
**Qəhrəman polkovnik Şükür Həmidov!**

**Xilaskar Ordumuz, şanlı Ordumuz**
**Tarix yazmaqdadır! O, qürürumuz!**
**Əsgərə guvənir, əmin yurdumuz...**
**Qanınla yazmısan: yağıları qov!..**
**Qəhrəman polkovnik Şükür Həmidov!**

**Qubadlı elinin bərəsi-bəndi,**
**Dünyaya gəldiyin Armudluq kəndi,**
**Şəhidlik zirvənlə bir boy dikəldi...**
**Qisas xəncərinə çəkildi bülöv,**
**Qəhrəman polkovnik Şükür Həmidov!**

*Tapdıq ƏLİBƏYLİ*

# Teymur və onun komandası

**Sumqayıtda doğulub böyüyənlərin Azərbaycanın və dünyanın hər yerində izi, imzası var desək, yəqin ki, mübaliğə etmiş olmarıq. Elə biri 1987-ci ildə daşyonan fəhlə Əli Əzizovun ocağında dünyaya göz açmış Teymur. Milliyyətcə rus olan anası Lyuba xanımın məşhur "Timur və onun komandası" filminə sevgisindən doğmuşdu bu ad seçimi.**



Onların yaşadığı 4-cü mikrorayondakı həyət uşaqlarının dilinə də adı "Timur" kimi düşmüşdü. Qardaşları Emil və Ruslan kimi o da dostlarının arasında mərdliyi, səmimiyyəti ilə seçilirdi. Oxuduğu 14 nömrəli məktəbdə də fəal şagirdlərdən idi.

Teymur 10-cu sinifdən təhsilini daha yüksək nəticələri olan "Təfəkkür" liseyində davam etdirdi. Hara getsə, müəllifi Arkadi Qaydar olan "Timur və onun komandası" povestinin qəhrəmanı kimi o da özünə komanda yığırdı, bu komandanın uşaqları isə ən nümunəvi uşaqlar olmalı idilər. Axı o özü Timur kimi cəsur, həssas, qətiyyətli, xeyirxah idi. Liseydə də tez bir zamanda dostlaşdığı sinif yoldaşları onun xətrini çox istəyirdilər. Bir kapitan kimi, mübahisələri mehribanlıq və sülh yolu ilə həll edirdi. Buraxılış test imtahanlarında bütün suallara cavabı "5"-ə layiq yazan üç nəfərdən biri də Teymur Əzizov oldu. Sonra abituriyentlik, qəbul imtahanları... müsbət nəticələr sıralandı və o, Sumqayıt Dövlət Universitetinin (SDU) kimya-biologiya fakultəsinə qəbul oldu.

SDU-nu bitirəndən sonra təhsilini BDU-nun magistraturasında davam etdirdi. Hərbi Xidmətini də uğurla başa vurub qayıtdı. Şəhərin Kimya İnstitutunun laboratoriyasında işlədi. Amma Teymur Xüsusi Təyinatlı Qüvvələrdə qalıb xidmətini gizir kimi davam etdirən sinif yoldaşı və yaxın dostu Seymur Baxışova həsəd aparırdı. Nəhayət, bir gün anasına dedi ki, mən öz boy-buxunumdan utanıram. "Bu boyda oğlan da heç laboratoriyada oturar? Düzdür, kimya-biologiyanı sevirəm, dərinliklərinə qədər öyrənmişəm, lakin mən o divarlara sığmıram. Hərbiyə gedəcəyəm". O, istəyini Seymur Aprel döyüşlərində həlak olandan sonra gerçəkləşdirdi.

Anasının dedikləri: "Ən yaxın dostu şəhadətə qovuşmuşdu. Seymurun tabutunu 20 günə qədər gözlədik. Həmin günlərdə oğlum çox əziyyət çəkdi, çox fikir elədi. Sonra o da qəti qərara gələrək, hərbi sahədə xidmətə keçdi. Vətənpərvər oğul idi… Mən uşaqlarıma həmişə üstündə Azərbaycan bayrağı olan dəftər-kitab alırdım. Bayraq bizim üçün hər zaman müqəddəs sayılıb. Üzərində balamın əl yazısı olan dəftərləri indi də saxlayıram. Timur sentyabrın 27-si döyüşə yollandı. Mənə zəng vurub dedi ki, buradayam ana. Soruşdum ki, sən də avtomat əlində qaça-qaça döyüşürsən? Dedi, yox, mən hərbi hissələrə ərzaq, texnika göndərirəm. Döyüş bizdən çox uzaqda gedir, kimdir məni döyüşə buraxan?.. Yalan deyirmiş ki, fikir eləməyim".

Leytenant Teymur Əzizovun boy-buxunu sanki zabit olmaq üçün biçilmişdi. Bir neçə dil bilməsi, ali təhsili, dərin biliyi hər yerdə kara gəlirdi. Uğurlarının sirrini soruşduqda cavab verirdi ki, hər bir hərbçi, zabit özünün konstitusiya hüquqlarını və hərbi nizamnaməni doğru öyrənib əməl etsə, heç kimlə, heç yerdə problem yaranmaz.

Nəhayət, Quru Qoşunlarının "N" saylı batalyonunun şəxsi heyəti və taborları ön cəbhəyə yol aldılar. Teymurun görməyi çox arzuladığı Murov silsiləsindən keçdilər. Sonra döyüş istiqamətini dəyişdilər. Düşməni məhv edə-edə Cəbrayıldan ötəndə Teymur çox təəssüfləndi – hər yer xarabazara oxşayırdı. Mənfur düşmən buraları göreşən kimi eşmişdi. Qəbristanlıqlar da yerlə-yeksan edilmişdi. Buna baxmayaraq, o, Suqovuşanın mənzərəsinə heyran qaldı. Düşündü ki, Qarabağın bu gözəlliklərini 30 ilə qədər görməməyin özü itirilmiş bir tarixdir. Nə yaxşı ki, indi bu tarix addım-addım geri qaytarılır. Dərələri, yarğanları, dağları aşıb keçirdilər. Leytenant özü öndə, taqımı da onun ardınca irəliləyirdi. Düşmən ağır artilleriyadan atəş açırdı. Güllələr yağış kimi yağırdı.

Oktyabrın 4-nə keçən gecə bölməyə yeni döyüş əmri gəldi. Zəruri tədarüklər görüldükdən sonra Əlixanlı kəndinə tərəf irəlilədilər. Birdən tabor komandiri baş leytenant Qayib Əliyev onlardan soruşdu: "Uşaqlar, ağır döyüşə gedirik. Evlə hallalaşmısınız?". "Biz yox... Bəs siz?" – deyə onlar da sual etdilər. Baş leytenant acı bir gülüşlə: "Mən də yox!" – dedi. Sonra fürsət tapıb ailələri ilə danışdılar.

Silah-sursat daşıyırdılar. Cəbrayılı, Suqovuşanı almışdılar. Qarşıdakı yüksəkliyi də götürəndən sonra bütün Füzuli əllərində olacaqdı. Axşam evə zəng vurub həyat yoldaşı Zeynəbə deyəcəkdi ki, daha sənin doğulduğun Laçına az qalıb. Eh, bircə bu yağış yağmayaydı...

Səhər tezdən başlanan döyüş səngimirdi. Axşamüstü saat 17 radələrində səngərin içərisi ilə gedən leytenant Əzizov birdən yerə çökdü. Dostları tez başının üstünü aldılar. Düşmənin kor gülləsi sinəsinin altından keçib, qabırğasına ilişmişdi. Yağış qana, qan yağışa qarışırdı... Onu aparıb səngərin yağış və güllə tutmayan yerinə uzandırdılar. Hərbiçilərin özlərinə aid olan tibbi ləvazimatla ilk yardım edildi. Amma təxliyə maşını gec gəldiyi üçün igid leytenant qanaxmadan gözünü bu dünyaya yumdu.

Şəhadətindən sonra Teymur Əzizov "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif olunub. İndi Temurgilin evindəki otaqların birində onun əşyaları toplanıb. Bu otağın ölçücü 44 kvadratmetrdir. 44 günlük "Zəfər Yürüşü"nün qəhrəmanlarından birinin xatirələrini, hərbi geyimini, şəxsi əşyalarını qorumaq üçün ediblər buranı. Teymur Əli oğlu Əzizovun şəhadətindən sonra təltif olunduğu medallarla bərabər, sağlığında aldığı "Ordu Sıralarında Qüsursuz Xidmətə görə", Azərbaycan Ordusunun 95 və 100 illiyi medalları da bu otağın bəzəyinə çevrilib.

*Aida EYVAZLI*

# "Sən həmişə mənimləsən…"

## *Şəhid baş leytenant Vüsal Kazımov üçün elegiya…*



**Sən həmişə mənimləsən… Bu, nə yazıçı İlyas Əfəndiyevin məşhur pyesinin adıdır, nə də nakam sevgi etirafı. Bu bir şəhid atasının – filologiya elmləri doktoru, professor Kamran Kazımovun 44 günlük Vətən müharibəsində, Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla həlak olan yeganə oğlu Vüsalla bağlı etdiyi gündəlik paylaşımların dəyişməyən başlığıdır.**

Vüsal 2017-ci ildən Lənkəran Dövlət Universtitetinin qiyabi şöbəsində iqtisadiyyat və idarəetmə fakültəsinin "Mühasibat uçotu və audit" ixtisası üzrə bakalavriat səviyyədə təhsil almışdı. Eyni zamanda, Lənkəran şəhər gənclər və idman idarəsinin nəzdindəki UGİM-in direktoru vəzifəsində çalışmışdı. Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başladığı Vətən müharibəsinin əvvəlindən silaha sarıldı. Füzuli əməliyyatında, Cəbrayıl uğrunda döyüşlərdə, Xocavənd rayonunun və Şuşanın azad edilməsində iştirak etdi. Şuşanın azad edilməsində şəhid olmuşdur.

...Heç bilirsiniz şəhid atası ilə həmsöhbət olmaq, şəhid övladı ilə bağlı nəsə soruşmaq necə çətindir? Mən də bu çətinliyi bildiyimdən, həmişə kənar mövzulardan başlayıram. Onsuz da aydındır ki, bütün cavablar sonda gəlib Vüsala çıxacaq. "Nurayın məktəbə getdiyini görmədi, Aynur yeni doğulmuşdu, onu heç doyunca qucağına ala bilmədi. Bilmədim, iyi burnunda qaldı, ya yox. İş, təhsil, gündəlik qayğılar başımı elə qatdı ki, heç özüm də Vüsalımdan doya bilmədim. O mənim təkcə övladım deyildi, dostum idi, həmdəmim idi, sirdaşım idi, arxa-dayağım idi. İndi o yoxdur, elə bilirəm, kürəyimdə dağ ağırlığı var, ürəyimdən daş asılıb. İllər keçdikcə bu ağrı azalmır, bu yaram köz tutmur". – Belə deyir şəhid atası. Mənsə heç nə demirəm, deyə bilmirəm, xəyalımdan şair Məmməd İsmayılın misraları keçir:

**Açılan çiçəklər barında ölər,**
**Hörümçək hördüyü torunda ölər,**
**Alışan kösövlər qorunda ölər,**
**Ölsə, bal arısı balında ölər**
**Pərvanə işığın yolunda ölər, -**
**Oğul şəhid olar vətən yolunda...**

Bu yaxınlarda şəhid atası – vaxtilə Lənkəran Dövlət Universitetində (LDU) birgə çalışdığımız, hazırda isə Astara Pedaqoji Kollecinin direktoru olan Kamran Kazımovla yenidən görüşdük. LDU-nun məzunu olan qəhrəman Vüsalın doğum günü ərəfəsində onunla bağlı söhbətimiz oldu.

Öyrəndik ki, 29 yaşında şəhidlik zirvəsinə ucalmış Vüsal uşaqlıqdan elcanlı, vətəncanlı olub. Hər ikisi pedaqoq olan atası və anası onun qeyrətli bir igid kimi böyüməsinə çalışıb və artıq heç bir şübhə yoxdur ki, buna layiqincə nail ola biliblər. Təsadüfi deyil ki, bu gün bütün el-oba Vüsal kimi mərd oğul dünyaya bəxş etdikləri üçün onların qarşısında baş əyir.

Vüsalın doğulub böyüdüyü ata ocağını ziyarət edən YAP Astara Rayon Təşkilatın sədri Həbib Cəfərov və Pedaqoji Kollecinin kollektivi onun haqqında söylənilən xatirələri dinləyib adı ilə qürur duyublar. Həbib Cəfərov deyib: "Kamran müəllimi hələ uşaq vaxtlarımda tanıyıram, olduqca səmimi, təvazökar, vətənsevər bir insandır. Oğlu Vüsalı da Vətənə bağlılıq, torpağa sədaqət ruhunda böyüdüb".

Şəhidin həyat yoldaşı Aysel Kazımova LDU-nun "Xarici dillər" kafedrasının müəllimidir. Vüsalın şəhadətindən sonra magistraturaya qəbul olunub, oranı fərqlənmə diplomu ilə bitirib. 2024-cü ildə isə doktoranturaya daxil olub. "Məqsədim Vüsalın ruhunu uğurlarımla sevindirməkdir, dözümümlə ovundurmaqdır" – deyir. Özü isə ovuna bilmir. Sosial şəbəkələrin birindəki bir paylaşımı heç cür yadımdan çıxmır: "Getmisən, qayıtmaq yadından çıxıb" yazmışdı.

İş yoldaşı olduğumuzdan hərdən söhbətləşirik Aysel xanımla. LDU-nun şəhid məzunu, baş leytenant Vüsal Kazımovdan danışırıq. Təskinlik üçün şairlərin dili ilə: "Ölüm var ki, həyat qədər dəyərli", "Torpaq uğrunda ölən varsa, Vətəndir!" deyirəm. Sonra bu misraları xatırlayırıq:

**Övlada ananın bətni vətəndi,**
**Duyduğu laylanın mətni vətəndi...**
**Əgər o vətənin düşməni varsa,**
**Bir mənin yerinə beş məni varsa**
**Oğul şəhid olar vətən yolunda...**

Ərazi bütövlüyümüzün bərpası uğrunda gedən döyüşlərdə igidlik və mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş Vüsal Kazımov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edilib. Doğulduğu kənddə atasının təşəbbüsü və maddi yardımı ilə Şəhidlər xatirə parkı yaradılıb, çoxlu gül kolu, ağac əkilib, oturacaqlar qoyulub. Şəhid valideynlərinin təsəlli yeridir bu park.

*Esmira İSMAYILOVA,*
*filologiya üzrə fəlsəfə doktoru*

*Səhifəni hazırladı:*
*Ə.DOSTƏLİ*
*XQ*

Ədəbi yenilik

# Klassik poeziyamızı zənginləşdirən məsnəvi

## *İzzəddin Həsənoğlunun irihəcmli əsərinin tapılması və nəşri önəmli ədəbi hadisədir*

**Bu yaxınlarda AMEA-nın Mərkəzi Elmi Kitabxanasında XIII əsr Azərbaycan şairi İzzəddin Həsənoğlunun son illərdə aşkar edilmiş "Kitabi-sirətün-Nəbi" məsnəvisinin kitab halında nəşrinin təntənəli təqdimatı önəmli ədəbi-mədəni hadisə oldu.**




Bədii istedadının miqyasına görə İzzəddin Həsənoğlu Azərbaycan ədəbiyyatında Nizami Gəncəvi ilə İmadəddin Nəsimi arasındakı dövrün görkəmli sənətkarıdır. Bütün bunlar Seyfəddin Altaylının oxuculara təqdim etdiyi "Kitabi-sirətün-Nəbi" məsnəvisindən alınan ilkin təəssüratlardır. Seyfəddin Altaylı "Kitabi-sirətün-Nəbi" məsnəvisini ilk dəfə olaraq çap etdirməklə bu əhəmiyyətli ədəbi abidənin daha əhatəli və sistemli tədqiqinə imkan yaradır.

Finlandiyada tapılan və Azərbaycan dilində yazılmış olan "Kitabi-sirətün-Nəbi" məsnəvisinin ilk dəfə Türkiyədə kitab halında nəşr edilməsi İzzəddin Həsənoğlunun tale işi olmaqla bərabər, həm də Seyfəddin Altaylının samballı xidmətidir.

Adı və çoxillik səmərəli fəaliyyəti ölkəmizin elmi-ədəbi ictimaiyyətinə yaxşı tanış olan Seyfəddin Altaylı qardaş Türkiyə Cümhuriyyətində yaşayıb-yaradan Azərbaycanlı ziyalıdır. Onun mənsub olduğu nəsil Qərbi Azərbaycana aid olub, XIX əsrin əvvəllərinin keşməkeşli ictimai-siyasi hadisələri ilə əlaqədar olaraq Araz çayını keçərək Türkiyənin İğdır bölgəsində məskunlaşmışdır.

Seyfəddin Altaylı Türkiyənin İğdır vilayətinin sərhədyanı Dizə (Koçkıran) kəndində dünyaya gəlmiş və İğdırda orta təhsil alıb formalaşmışdır. O, İstanbul Universitetində "Əski Ön Asiya dilləri və mədəniyyətləri" şöbəsi, "Əski çağ tarixi", "Orta əsr tarixi", "Ümumi Türk tarixi" bölmələrindən sertifikat ixtisası üzrə ali məktəbi bitirərək, müəllimlik ixtisası qazanmış və uzun müddət Aralıq qəsəbəsində, doğma Dizə kəndində və İstanbulda müəllimlik etmişdir.

Bu vətənpərvər insan həyatının sonrakı Ankara mərhələsində TRT – Türkiyənin Səsi Radiosunda Azərbaycan Verilişləri Redaksiyasının 30 il rəhbəri işləsə də 25-dən artıq quzeyli-güneyli Azərbaycanlı şair və yazıçının əsərlərini hazırlayıb çap etdirmək, 3 cilddən ibarət olan "Azərbaycan türkcəsi sözlüyü"nü, "Azərbaycan türkcəsi deyimlər sözlüyü"nü hazırlayıb nəşr etmək və yaymaqla azərbaycançılıq ideyalarının Türkiyədəki əsas icraçılarından və təbliğatçılarından biri olduğunu isbat etmişdir.

XX əsrin 80-ci illərindən etibarən Azərbaycanın görkəmli vətəndaş alimi Abbas Zamanovla olan etibarlı dostluğu onun türkçülük baxımından daha geniş dairədə fəaliyyət göstərməsinə meydan açmışdır. Belə ki, Seyfəddin Altaylı Türkiyədəki Azərbaycançı qüvvələrlə – İbrahim Bozyel, Yavuz Akpınar, İrfan Murad Yıldırım, Zeynalabdın Makas və başqaları ilə birlikdə – sovet dövlətinin bütün qadağalarına baxmayaraq, Türkiyə ziyalıları arasında geniş əlaqələr qurmağı bacarmış, Abbas Zamanovun həmin ölkədəki dostları arasında olan klassik Türk ziyalıları körpüsünü yaratmaq funksiyasını yerinə yetirmişdir.

Seyfəddin Altaylının XX əsrin doxsanıncı illərinin əvvəllərində TRT – Türkiyənin Səsi Radiosu vasitəsilə Azərbaycanın haqq səsinin ilk növbədə Türkiyəyə və eyni zamanda, Avropa ölkələrinə çatdırılması sahəsindəki mühüm xidmətləri yüksək qiymətə və dərin minnətdarlığa layiqdir. Azərbaycanın yazıçı və şairlərinin əsərlərinin Türkiyə Türkcəsinə uyğunlaşdırılaraq Türkiyədə nəşr edilib yayılmasında da Seyfəddin Altaylı diqqətəlayiq xidmətlər göstərmişdir.

Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra Seyfəddin Altaylı ata vətəni ilə əlaqələri daha da genişləndirmişdir. Hazırda o, artıq 10 ilə yaxındır ki, Bakıda Avrasiya Universitetində müəllim və Türkoloji Mərkəzdə baş elmi işçi kimi fəaliyyətini uğurla davam etdirməkdədir.

Seyfəddin Altaylı tədqiqatçılıq sahəsində də səmərəli fəaliyyət göstərir. Onun folklorşünaslığın aktual məsələlərinə həsr olunmuş "Azərbaycan xalq deyimlərində mifoloji və tarixi elementlərin əksi" adlı fəlsəfə doktorluğu dissertasiyası müasir dövrdə Türkologiyanın, Azərbaycanşünaslığın əhəmiyyətli elmi hadisələrindən biri kimi qiymətləndirilir. Çoxillik böyük zəhmətinin və səmərəli axtarışlarının nəticəsi kimi meydana çıxmış 3 cildlik "Azərbaycan türkcəsi sözlüyü", əslində, bir elmi-tədqiqat institutunun görə biləcəyi mükəmməl bir tədqiqat işidir.

Son illərdə Orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi istiqamətində yazıb çap etdirdiyi məqalələr Seyfəddin Altaylının araşdırmalarının ədəbiyyatımızın dərin qatlarına doğru irəliləməkdə olduğunu nəzərə çatdırır. Xüsusən, həyatı və yaradıcılığı nisbətən az tədqiq olunmuş İzzəddin Həsənoğlunun ədəbi taleyinə və irsinə həsr olunmuş araşdırmaları ilə anadilli ədəbiyyatımızın bu görkəmli nümayəndəsinin tərcümeyi-halı və yaradıcılığının tədqiqi sahəsində mövcud olan boşluğu doldurmağa doğru ciddi addımlar atır.

Yorulmaz və yurdsevər alimin araşdırmaları hələ də həyatı və yaradıcılığı kifayət qədər öyrənilməmiş qalan bu böyük sənətkarın ədəbi obrazının canlandırılması baxımından mühüm əhəmiyyətə malikdir. Seyfəddin Altaylının tədqiqatları ilə Azərbaycan həsənoğluşünaslığı daha da genişlənir və zənginləşdirilir.

Seyfəddin Altaylının apardığı araşdırmaları nəticəsində elmi ictimaiyyətə ilk dəfə təqdim olunan "Kitabi-sirətün Nəbi" məsnəvisi ilə XIII əsr Azərbaycan poeziyasının qüdrətli yaradıcısı İzzəddin Həsənoğlunun ədəbi irsi haqqındakı məlumatların və təsəvvürlərin dairəsi daha da genişləndirilmişdir. İndiyədək Azərbaycan dilində cəmi 3 qəzəli və farsca 2 şeiri elm aləminə bəlli olan İzzəddin Həsənoğlunun "Kitabi-sirətün Nəbi" poemasının üzə çıxarılması şairin həyatı və yaradıcılığı haqqında daha ətraflı şəkildə söz açmağa imkan yaradır.

Böyükhəcmli, əlyazması 367 vərəq təşkil edən bu məsnəvi Məhəmməd peyğəmbərin meraca getməsinə, mübarizəsinə və müsəlmanlığın inkişafındakı roluna, həzrət Əli cənglərinə həsr edilmişdir. "Kitabi-sirətün-Nəbi" poemasının adındakı "Nəbi" sözü də peyğəmbər mənasını daşıyır, Peyğəmbər haqqında yazılmış kitab anlamını bildirir.

Yeri gəlmişkən, deyək ki, Azərbaycan klassik ədəbiyyatında, xüsusən poema janrında yazılan əsərlərdə Allahın və peyğəmbərlərin vəsf edilməsi ənənəsi mövcud olsa da, İzzəddin Həsənoğlunun "Kitabi-sirətün-Nəbi" məsnəvisi Məhəmməd peyğəmbərə həsr edilmiş ilk genişhəcmli




müstəqil poema kimi mühüm əhəmiyyətə malikdir. "Kitabi-sirətün-Nəbi" məsnəvisi janr baxımından da yeni və orijinaldır. Bu, yalnız Azərbaycan ədəbiyyatında deyil, Türk dünyasında siyər janrında yazılmış ilk əsərdir. Orta əsrlərdə Şərqdə "siyər" janrında qələmə alınan əsərlərdə peyğəmbərin surətinin vəsf edilməsi həyata keçirilmişdir. Bu baxımdan "siyər" janrı ilk baxışda müsəlman dünyası ədəbiyyatında böyük ənənəsi olan "mövludnamə" mənasını ifadə edir.

Lakin klassik Şərq ədəbiyyatında olan "mövludnamə"lərdə, janrın adından da göründüyü kimi, İslam peyğəmbərinin doğulması və ya dünyaya gəlməsindən bəhs edilir. İzzəddin Həsənoğlunun "Kitabi-sirətün-Nəbi" məsnəvisində isə sadəcə Məhəmməd peyğəmbərin dünyaya gəlməsindən deyil, bu dahi, ulu şəxsiyyətin həyatı və mübarizəsindən, həzrət Əli cənglərindən də geniş planda söz açılır. Bu cəhətdən yanaşdıqda "Siyər" janrı genişləndirilmiş "mövludnamə" mənasında başa düşülə bilər.

Nəticə olaraq, "Kitabi-sirətün-Nəbi" məsnəvisi peyğəmbərə həsr olunmuş bədii əsər mənasını daşıyır. Bu, qeyd edildiyi kimi, Azərbaycan ədəbiyyatında siyər" janrında yazılmış ilk böyük bədii əsərdir. "Kitabi-sirətün-Nəbi" məsnəvisi Peyğəmbər (Məhəmməd peyğəmbər nəzərdə tutulur) haqqında kitab mənasını verir. Əsərin adındakı "kitab" sözü də maraq doğrurur. Buradakı "kitab" sözünün iki mənasından biri məsnəvinin yazılı ədəbiyyat nümunəsi olduğunu diqqətə çatdırmaqdan, ikincisi isə əsərdə dastan elementlərinin olmasından ibarətdir.

Qeyd edək ki, yuxarıdakı mənalardan hər ikisini də "Kitabi-sirətün-Nəbi" məsnəvisində müşahidə etmək mümkündür. İzzəddin Həsənoğlunun məsnəvisində "Kitabi-Dədə Qorqud" eposunun dastan poetikası elementləri də vardır.

"Kitabi-sirətün-Nəbi" məsnəvisinin ən qiymətli cəhəti əsərin Azərbaycan dilində yazılmasıdır. Əsərin dili onun müəllifinin bizə qədər gəlib çatmış qəzəllərinin dil və üslub xüsusiyyətlərinə uyğun gəlir. Bundan başqa, İzzəddin Həsənoğlunun "Kitabi-sirətün-Nəbi" məsnəvisi dili və təhkiyəsi baxımından "Kitabi-Dədə Qorqud" eposunun mətni ilə səsləşir. Azərbaycan ədəbiyyatının inkişafı tarixi baxımından isə "Kitabi-sirətün-Nəbi" məsnəvisi klassik poeziyadakı peyğəmbərlərin vəsf edilməsi ənənəsinin yekunu, İmadəddin Nəsimi şeirinin başlanğıcıdır.

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın prezidenti, akademik***

---

Münəvvər Qasımova – 100

# Unudulmaz oftalmoloq

**Azərbaycanın səhiyyə ictimaiyyəti milli oftalmoloqların ilk nəslinə mənsub Münəvvər Qasımovanın 100 illik yubileyini ehtiramla qeyd edir.**



Tibb elmləri doktoru Münəvvər Cavad qızı Qasımova 1924-cü ildə ziyalı ailəsində dünyaya göz açıb. 1946-cı ildə N.Nərimanov adına Tibb İnstitutunu bitirdikdən sonra Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda həkim oftalmoloq vəzifəsində əmək fəaliyyətinə başlayıb. O, klinik təbabət işinə yüksək həvəslə yanaşaraq, elmi axtarışlarında dəlib keçən keratoplastika cərrahi əməliyyatı zamanı köçürülən buynuz qişanın patomorfoloji xüsusiyyətlərini öyrənərək 1957-ci ildə bu sahə üzrə namizədlik dissertasiyası müdafiə edib. Təcrübəli oftalmoloq 1957-ci ildən ömrünün sonunadək institutun qlaukoma şöbəsinin rəhbəri vəzifəsində çalışıb.

Münəvvər Qasımova göz sağlamlığının qorunmasına xüsusi diqqət yetirirdi. O, söhbətlərində, çıxışlarında, məqalələrində qlaukomanın, korluğa və görmə əlilliyinə səbəb olan ciddi bir xəstəlik olduğunu həmişə vurğulayırdı. Bu sahədəki elmi fəaliyyəti, xəstəliklə mübarizədəki geniş bilik və təcrübəsini göstərir. O, əsas diqqətini ölkəmizdə tez-tez rast gəlinən toksiki qlaukomaya yönəldərək 1972-ci ildə böyük klinik-eksperimental və histokimyəvi tədqiqatlar əsasında bu sahə üzrə doktorluq dissertasiyasını müdafiə edib Onun toksiki qlaukomanın öyrənilməsi üzrə apardığı tədqiqatlar, bu xəstəliyin səbəblərini və müalicə yollarını aydınlaşdırmaq məqsədi daşıyırdı.

Doktorluq dissertasiyasında, kimyəvi maddələrin oftalmotonus üzərindəki təsirini isbat edərək, qlaukomanın səbəblərini daha dərindən anlamağa çalışıb.

Münəvvər Qasımova həmçinin qlaukomanın epidemiologiyası, patogenezi, diaqnostikası və müalicəsi sahəsində də əhəmiyyətli tədqiqatlar aparıb. O, bu sahədə bir çox ixtisaslı kadrların yetişdirilməsinə və elmi tədqiqatların tətbiqinə böyük töhfə verib. 160-dan artıq elmi əsərin müəllifi olaraq, onun işləri oftalmologiya sahəsində dərin izlər qoyub. Münəvvər xanımın elmi və praktiki məktəbi, qlaukoma sahəsindəki tədqiqatların yüksək səviyyədə həyata keçirilməsini təmin edib. Onun yaratdığı məktəb, həm elmi tədqiqatların keyfiyyətini artırmaq, həm də praktikada bu tədqiqatların tətbiqini inkişaf etdirmək məqsədini daşıyırdı. Bu məktəb oftalmologiya sahəsində bir çox yeni yanaşmaların və müalicə üsullarının inkişafına şərait yaradıb. Eyni zamanda, elmi və praktiki nailiyyətləri ilə göz müalicəsində müasir yanaşmaların formalaşmasına və inkişafına böyük təsir göstərib.

Alim bu sahəyə olan həvəsi və peşəkarlığı ilə diqqət çəkir. Onun elmi tədqiqatları, geniş təcrübəsi və müasir müalicə üsulları, oftalmologiyanın inkişafında əhəmiyyətli rol oynayıb, hələ də müasir oftalmologiya sahəsində öyrənilən və tətbiq olunan elmi prinsiplərin əsasını qoyub.

Münəvvər xanım oftalmologiya sahəsində tanınmış və hörmətli bir alim olub. Onun tədqiqatları və yazıları oftalmologiyanın müxtəlif aspektlərinə dərin təsir göstərib. Səhiyyəmizə verdiyi töhfələr indi də yalnız akademik dünyada deyil, həm də praktiki tibbdə geniş tətbiq edilir.

Oftalmoloq əsərlərilə, göz xəstəlikləri-



nin diaqnostikası və müalicəsinə əhəmiyyətli yeniliklər gətirib. Onun kitabları və elmi məqalələri oftalmologiya sahəsində müasir yanaşmaları və texnologiyaları işıqlandıraraq, həm mütəxəssislərə, həm də tələbələrə dəyərli resurslar təqdim edib.

Alimin tədqiqatları, göz xəstəliklərinin müalicəsi və tədris metodlarının inkişafına yönəlib. Onun əldə etdiyi nəticələr, oftalmologiyanın müxtəlif sahələrində, xüsusən də klinik praktika və tədqiqatda əhəmiyyətli rol oynayıb. Oftalmoloqun elmi əsərləri, göz mütəxəssislərinə yeni müalicə üsulları və diaqnostik alətlər təqdim edərək, sahənin inkişafına töhfə verib.

M.C.Qasımova yalnız öz elmi işləri ilə deyil, həm də gənc oftalmoloqların yetişdirilməsində böyük rol oynayıb. Onun rəhbərliyi altında bir çox aspirant və doktorant elmi işlərini tamamlayıb və öz sahələrində peşəkar həkimlər kimi tanınıblar. Alim tələbələrinə verdiyi dərin bilik və təcrübə ilə onlara bir məktəb kimi oftalmologiya sahəsində yüksək ixtisaslı kadrların yetişməsinə əhəmiyyətli töhfə verib. Onun pedaqoji fəaliyyəti sayəsində bir çox gənc alim və həkimlər onun izini davam etdirərək, göz sağlamlığının qorunması sahəsində əhəmiyyətli işlər görüblər.

Əminik ki, 100 il əvvəl bu işıqlı dünyaya göz açan Münəvvər xanımın gözəl siması onunla təmasda olan bütün insanların – həmkarlarının, tələbələrinin, gözlərinə nur bəxş etdiyi xəstələrinin xatirəsində əbədi yaşayacaq.

***Ya ğ l ABDIYEVA,***
***tibb elmləri doktoru***

---

# Pensiya fondu 710 milyon manat artıb

**"Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" sərəncam dövlət başçısının siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayandığını və bu məqsədlə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha göstərir.**




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, aparılan sosial islahatlar çərçivəsində pensiya artımlarının davamlı xarakter alması pensiya təminatı üzrə ödənilən vəsaitlərin də mütəmadi artımı ilə nəticələnir.

Növbəti sosial islahat paketi olaraq gələn ayın 1-dən minimum pensiyanın 280 manatdan 320 manata çatdırılması, həmçinin bu ilin əvvəlindən pensiyaların indeksləşdirilərək artırılması da nəzərdə tutulur. Yeni sərəncamla icrasına başlanan növbəti sosial islahat paketi gələn ilin əvvəlindən pensiyaların indeksləşdirilərək artırılması da nəzərə alınmaqla ümumən 3 milyon insanı əhatə edəcək və onlara yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlər artırılacaq. Həmin artımlar üçün illik əlavə olaraq 1 milyard 4 milyon manat vəsait ayrılacaq.

Sənədə görə, həmçinin dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə aylıq tarif (vəzifə) maaşlarının minimum aylıq əməkhaqqının artırılmış yeni məbləğinə uyğunlaşdırılmasını təmin ediləcək. Beləliklə, sosial, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman, kənd təsərrüfatı, ekologiya, ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat, rabitə, meliorasiya, su təsərrüfatı və s. sahələr üzrə 19 pillədən ibarət Vahid Tarif Cədvəlinin ilk pilləsindəki maaş 400 manata çatdırılmaqla, digər pillələr üzrə maaşlarda da buna uyğun artımlar tətbiq ediləcək.

Bu artımlarla əlaqədar olaraq 2025-ci ildə də pensiyaların ödənilməsi xərclərində artım dinamikası davam edəcək. Cari ildə əmək pensiyalarının ödənilməsi xərcləri üçün 7 milyard 210 milyon 530 min manat nəzərdə tutulub ki, bu da keçən il müvafiq istiqamətdə ayrılan vəsaitdən 710 milyon manat və ya 11 faiz çoxdur.

Ümumilikdə isə pensiyalar üzrə ayrılan illik vəsait 2018-ci ildən ötən dövrdə 2 dəfə artıb.

***Z.HÜSEYNOVA***
***XQ***

---

# Azərbaycan caz musiqisi İstanbul konsertində

**İstanbulda ənənəvi olaraq keçirilən "Türk telekom prime qəhvə" konserti bu dəfə Azərbaycan caz musiqisinə həsr edilib. Bu məqsədlə İstanbulun ən böyük mədəniyyət məkanı olan Atatürk Mədəniyyət Mərkəzində görkəmli Azərbaycan bəstəkarı İlyas Mirzəyevin konsert proqramı təşkil edilib.**

Bəstəkar konsertində 2004-cü ildə işıq üzü görən "Jazz in blue red green" albomunda yer alan əsərləri səsləndirib. Bunların arasında "Xoş gəldin", "Adio", "Good" kimi caz musiqiləri ilə yanaşı, İlyas Mirzəyevin həyat yoldaşına həsr etdiyi "Leyla" əsəri də yer alıb.

Konsert izləyicilərin gur alqışları ilə müşayiət olunub.

Proqramda iştirak edənlər arasında Türkiyə və Azərbaycanın mədəniyyət sahəsində tanınmış simaları da yer alıb.



Proqramdan sonra bəstəkar dinləyiciləri üçün "Jazz in blue red green" albomunu imzalayıb.

***XQ***

## Hüseyn Hüseynzadə – 90

# “Foto Hüseyn Hüseynzadənindir”

**Uşaqlığımdan iki Hüseyn Hüseynzadə tanımışam: biri şair (sonradan Hüseyn Arif), biri də fotojurnalist. Hər ikisi böyük sənətkar olub. Biri sözün şəklini çəkib, digəri – gözlə gördüyünün...**



Sonralar şair Hüseyni dəfələrlə görsəm də, onun fotoqraf adaşını görməmişəm. Amma bir vaxtlar işlədiyi bizim qəzetdə (o zamankı “Kommunist”də), eləcə də “Vışka”da, Moskva nəşrləri olan “Pionerskaya Pravda” və “Komsomolskaya pravda”da çıxan şəkillərinə, fotoalbomlarına heyran qalmışam. Bir də “Bakıda qış”ın gözqamaşdıran bəyaz örtüyünə, “Xınalıq”dakı, “Lahıc”dakı, “Qobustan”dakı, “Dağlıq Qarabağ”dakı, “Naxçıvan”dakı ecazkar mənzərələrə sanki kamerasının gözü ilə baxmışam. Onu çox sevdiyim foto sənətimizin brendi hesab etmişəm.



Hüseyn Hüseynzadə 1935-ci ildə dünyaya göz açıb. Neft-kimya institutunu bitirib, elə ilk fotoları da neft mədənlərinə, çətin neftçi peşəsinə aid olub. İlk kitabı 1964-cü ildə, fotoqrafın 29 yaşı olanda işıq üzü görüb və “Neft Daşları” adlanır. Zəhməti və yaradıcılığı daim yüksək qiymətləndirilib. O, “Press-foto 62” beynəlxalq müsabiqəsində fərqlənib, Azərbaycan Jurnalislər İttifaqının “Qızıl qələm”, Berlində “İnterpressfoto” sərgisində “Uğur” mükafatlarına layiq görülüb. Həmçinin dəfələrlə Azərbaycanda “İlin fotoqrafı” adını qazanıb.

El dilində desəm, yaxşı mənada “gördüyündən kirə istəyən” fotojurnalist Hüseyn Hüseynzadənin bütün sahələrdən olan çəkilişləri uğurlu alınıb. Elmlər Akademiyasınınn Əlyazmalar Fondundakı miniatürlərlə işi, Tarix muzeyinin fondundan dekorativ tətbiqi sənətin 8 albomu – zərgərlik məmulatlarının, xalçaların, mis əşyaların və keramikanın, silah və geyimin forma, faktura və rənglərini üzə çıxarmaq üçün polixrom işıq və fonları, slaydlarının texniki sənətkarlığı, milli incəsənətin mahiyyətinin dərkindən soraq verən “rəsm”ləri bu qəbildəndir.

Onun – balacaların “saqqallı baba” dedikləri azman sənətkarın fotoları bədiyyatı ilə heyrətamiz rəsm əsərlərini xatırladır. Uşaqları çəkməyi sevdiyi kimi, Azərbaycan kulinariyasının “dadını-duzunu” göstərməyi də əsl “dequstator” kimi bacarıb. “Kabab və qəlyanaltılar”ının, “Plov və şərbətlər”inin sərgiləndiyi unikal albomları milli mətbəximizi bütün dünyaya tanıdıb.

Hüseyn Hüseynzadənin reportajlarında özəl dinamika olub, şəkilləri işıq və kölgənin, ağ və qaranın qeyri-adi uyarlığı ilə seçilib. Sonradan rəngli fotoqrafiyaya keçib. Kamerasının şaqqaşaq səsləri onun mənalı ömrünün melodiyası olub.

Fırlanan dünyanın anbaan dəyişən mənzərələrini zövqlü, itigözlü foto ustası, duyğusal rəssam kimi müşahidə edərək kameranın yaddaşına köçürüb. Bilib ki, “axan çay 1 dəqiqə sonra daha həminki olmayacaq”. Qaçan anı tutdunsa, tutdun, qənimət çəkilişə çevirdinsə, çevirdin! Gecikdinsə, deməli, heç də “mahir an ovçusu” deyilsən.

O, bir vətəndaş kimi ictimai fəallığı ilə də seçilib. Məsələn, qaniçən sovet ordusunun “Qanlı yanvar” qırğını zamanı həmkarları Rasim Sadıqov, Fərid Əşrəfoğlu, Mirnaib Həsənoğlu, Oleq Litvin kimi, o da bütün Bakını gəzib, atəş səsləri altında şəhidləri, yaralıları, dağıdılan yerləri çəkib və 20 Yanvar həqiqətlərinin foto ilə dünyaya çatdırılmasına nail olub...

Dostlarının dediyinə görə, o, sirli-sehirli bir aləm olan yarımqaranlıq fotolaboratoriyasında iplərdən asdığı lentlərin, şüşələrə yapışdırıb qurutduğu şəklillərin yanında hər zaman xoşbəxt görünüb. Çünki sevimli sənəti daim ona fərəh gətirib. Qəzet və jurnallarda dərc olunan “Foto Hüseyn Hüseynzadənindir” yazılı şəkillərini pasibanlarına göstərərək qürurlanıb. Bir də o, tez-tez “dəmir at”ına – “Niva”sına minib kəndə-kəsəyə “ov”a yollanmağı çox xoşlayıb. Tarixiləşdirdiyi anlar 60-dan çox albom və kitabda toplanıb.

Özü isə deyirdi: “Mən xoşbəxtəm, çünki yarım əsrdən çox sevdiyim işlə məşğul olmuşam. Şikayətlənmək günahdır – bir çox nəşriyyatlarda fotomüxbir işləyərək xeyli ölkə və şəhərlər gəzmişəm, dağlarda, doğma diyarın ən uzaq yerlərində olmuşam, sərgilərdə iştirak etmişəm, maraqlı insanlarla görüşüb, onların vasitəsilə böyük fotoqrafiya sənətini dərk etməyi öyrənmişəm! Çox inanmaq istəyirəm ki, fotopovestlər, fotohekayələr, fotoqrafiyalardakı nağıllar – bütün bunlar tamamilə real və uzaq olmayan gələcəyin işləridir. Mənim şəkillərim – həyatımın səhifələridir”.

Hüseyn Hüseynzadə 5 ildir ki, fani dünyanı tərk edib. İndi onu saralıb-solmayan fotoları, portretləri, əbədiləşdirdiyi tarixi anlar yaşadır.

*Əli NƏCƏFXANLI*
*XQ*

## Vəli Qədimov – 85

# Klarneti milliləşdirən sənətkar

**Ustad klarnet ifaçısı, Xalq artisti, Prezidentin fərdi təqaüdçüsü Vəli Qasımov artıq 15 ildir ki, xatirəyə dönüb. Pərəstişkarları onu yada salanda həm kədərlənir, həm də ifalarının oynaq sədalarının təsiri ilə nikbinləşirlər.**

Vəli Qədimov 1940-cı il yanvarın 12-də Bakının Çəmbərəkənd deyilən ərazisi ilə Dağlı məhəlləsinin qovuşduğu məkanda, toylarda şıdırğı rəqslərin oynanıldığı yerdə, nəfəs alətləri ifaçısı Nurbala kişinin ailəsində dünyaya göz açıb. Uşaq vaxtından klarnet ifaçılığını müəllimsiz öyrənib və artıq 14 yaşında tibb işçilərinin mədəniyyət evində Zeynəb Xanlarova ilə birlikdə özfəaliyyət kollektivində çıxış etməyə başlayıb.



Onda ansamblın bədii rəhbəri kaman ustası, Xalq artisti Ağacəbrayıl Abasəliyevin atası Ağasaleh müəllim olub. Maraqlıdır ki, 30 il sonra Ağasəlim müəllim də Xalq artisti Zeynəb Xanlarovanın ansamblının bədii rəhbəri olarkən Vəli Qədimovla birgə çalışıb. Onun əli və nəfəsi ilə klarnet bir anda cana gəlib şeyda bülbül kimi cəh-cəh vururdu, ilan dili çıxarırdı.

Vəli Qədimov gözəl sənətkar Baba Salahovun rəhbərlik etdiyi ansamblda peşəkar fəaliyyətə başlayıb. Az vaxtda istedadı ilə ustad sənətkarların diqqətini cəlb edərək xalqın sevdiyi ifaçılardan olub. El məclislərində də onun çıxışları əsl anşlaq yaradıb. Öz ifaları ilə mağarda rəqs edənlərə sanki güc və ilham veriib. Nə oynayanlar yorulmaq bilib, nə də baxanlar, dinləyənlər.

Onun sənətə bağlılığı, ifaçılıq məsuliyyəti əsl örnək sayıla bilər. Zeynəb Xanlarovanın ansamblının tərkibində aparıcı klarnet ifaçısı kimi dünyanı, özü demişkən, iki dəfə gəzib dolaşaraq, Azərbaycan musiqisini hər yanda ustalıqla təbliğ edirdi. Bu cümlələri yazdıqca onların ifa etdiyi “Bülbülüm” mahnısı qulaqlarımda səslənir. Klarnet də dil açıb Zeynəb xanıma qoşulur, onunla duet oxuyur.

“Bülbülüm”ü qarmon ifaçısı Leyla Şabanova ilə birgə ifa etdiyi “Xoşbəxtlik” rəqs musiqisi əvəz edir. Bu ifa da adamı, az qala, yerindən oynadır. AzTV-nin Qızıl Fondunda qorunub saxlanılan ağ-qara təsvirli qənimət kadrlarda Vəlinin məşhur qarmonçalan, Xalq artisti Aftandil İsrafilov, Nizami Əsgərov və digərləri ilə də çox gözəl ifaları qalır. Xüsusilə Aftandilin müəllifi olduğu “Nazilə” rəqsinin melodiyaları lap iliyə işləyir.

Yeri gəlmişkən, sevimli nəfəs aləti onun ciyərlərini elə genişləndirib, nəfəsini elə dərinləşdirmişdi ki, bunun sayəsində hətta bir dəfə suda batdığı zaman özünü xilas edə bilmişdi. Aftandil İsrafilov danışırdı ki, xaricdə konsertlərarası istirahət vaxtı Atlantik okeanında çimərkən Vəli tramplindən suya tullanıb yox olmuş, dostlarını əməlli-başlı həyəcanlaşdırmışdı. Yalnız o, bir müddət sonra 70–80 metr aralıda başını sudan çıxarıb üzə-üzə geri qayıdanda hamı dərindən nəfəs alaraq “Allaha şükür” deyib. Klarnetin ən yuxarı notunda çala bilən sənətkarı okeanın dərinliyi də batıra bilməyib.

Vəlinin əvəzolunmaz ifaları zamanı arada qeyri-adi muğam keçidləri də olurdu ki, heyran qalmamaq mümkün deyildi. Bu həm də muğamın böyük məharətlə instrumentallaşdırılması idi. O, hər dəfə “Çahargah”ın melodik xüsusiyyətlərini və muğam əsasını təqdim etməsi ilə möcüzə yaradırdı. Seyid Əzim Şirvani demişkən, “Xüşk olan çubidə naleyi-zar” edirdi. Həmkarlarının fikrincə, Vəli bütün virtuozluğu ilə bərabər, düz yol ifaçısı idi. Həm rəqslərin solo ifaçısı, həm ansamblın üzvü kimi yerini dəqiq bilirdi. Bəstəkar Şəmsi Kərimovun “Gecələr” mahnısını saksofonda (!) çalması da musiqisevərlərin yaddaşına həmişəlik həkk olunub. Sanki çalmırdı – həzin səslə, isti nəfəslə, varlıqlara qəsdlə oxuyurdu Vəli Qədimov.

Onun “Gecələr”ini dunləyəndə misra-misra duyğulanmağım da olub:

**...Ömür sanki muğamatdı –**
**Zil gündüzlər, bəm gecələr.**
**Tükənməyən qazavatdı**
**Həm gündüzlər, həm gecələr.**
**O qız yadla əhd bağlayıb,**
**Məni həsrət qundaqlayıb.**
**Sübhə kimi qan ağlayıb,**
**Yaş tökür qələm gecələr.**
**Ümid kövrək, xəyal qırıq,**
**Fələk ürəyimdən vurub.**
**Gözlərimdə məclis qurub**
**Kef eləyir qəm gecələr...**

Ömrünün son illərini xəstə yatağında keçirən sənətkar iflic olduğu üçün ifa edə bilmədiyi musiqilərin həsrətini çəkirdi. Bu barədə verilən sualı belə cavablandırmışdı: “Üç ildir klarneti işlədə bilmirəm, deməli, Vəli Qədimov üç ildir yaşamır. Özümü qanadı qırılmış quş kimi hiss edirəm”.

Sonuncu dəfə hansı havanı ifa etdiyini nədənsə xatırlamayan ustad bundan çox sarsılmış, “bilsəydim ki, bu, sonuncu ifamdır, klarneti əlimdən yerə qoymazdım, qəlbimdəki bütün nəğmələri çalardım...” – demişdi.

“Xalq qəzeti”nin mərhum fotomüxbiri Rafiq Salmanov sənətkarla ömrünün son vaxtlarında görüşdüyünü kövrək şəkildə xatırlayırdı: “Mən onunla görüşmək imkanı əldə edən xoşbəxtlərdənəm”, – deyirdi. “Evində söhbət etdik, illərcə “Vağzalı” havasını məhz Vəlisayağı tərzdə sevdirmiş klarnet bir kənarda qalmışdı. Masanın üstü dərmanla dolu idi, bunu görüb çox kövrəldim, sənətkara tezliklə sağalıb yenidən klarnetinin könlünü almasını arzuladım. Amma zalım fələk imkan vermədi... Həssas, xeyirxah, təvazökar, dərin musiqi duyumu, şəxsən özünün yaratdığı rəqslər olan Vəlinin məktəbi yaşadılmalıdır. Çünki o, musiqinin əmin əllərdə olmasını istəyirdi”.

Xatirə gecələrinin birində onun sənət bulağından su içmiş qədirbilən yetirmələri bənzərsiz insan haqqında “Xatirə” adlı musiqi kompozisiyasını təqdim ediblər. Vəli Qədimov, sözün əsl mənasında, əziz, unudulmaz bir xatirəyə dönüb.

*Ə.DOSTƏLİ*
*XQ*

## Kitab təqdimatı

# “Mücahid ömrü: Məhəmmədsadıq Aran”

**Sosial Tədqiqatlar Mərkəzində (STM) Elməddin Behbudun nəşrə hazırladığı “Mücahid ömrü: Məhəmmədsadıq Aran” kitabının təqdimat mərasimi keçirildi. Bu, Xalq Cümhuriyyəti dönəmində parlamentdə Zəngəzur qəzasını təmsil etmiş yazıçı, jurnalist, mühacir Məhəmmədsadıq Aran haqqında çap olunmuş ilk kitabdır.**







**Təqdimatı giriş sözü ilə açan STM-in media və kommunikasiya departamentinin müdiri Əziz Əlibəyli bildirdi ki,** ötən yüzillikdə baş verən hadisələrin mahiyyətinə və xronologiyasına nəzər saldıqda diqqət mərkəzində ən mühüm tarixi hadisə kimi Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dayanır. Həmin iyirmi üç aylıq hakimiyyət bütün xarici təhdidlərə baxmayaraq, bir daha dünyaya azərbaycanlıların dövlət qurmaq bacarığını və hökmünü göstərib. Əziz Əlibəyli AXC dövründə və 1920-ci ilin aprelindən sonra dünyanın müxtəlif ölkələrinə səpələnərək yenidən müstəqillik uğrunda mübarizə aparan dəyərli ziyalılarımızdan biri olan Məhəmmədsadıq Aran haqqında kitabın nəşrini mühüm hadisə adlandırdı.

**Cümhuriyyət dövrünün tədqiqatçıları professor Ədalət Tahirzadə, Əli Şamil və Dilqəm Əhməd M.Aranın** Çar Rusiyası, Azərbaycan Cümhuriyyəti və mühacir həyatı yaşadığı dövrlərdəki fəaliyyətinin əsas istiqamətləri, tükənməz mübarizə əzmi və əqidəsinə bağlılığı barədə faktlar söylədilər.

“Məncə, sovet imperiyası dağılan kimi bu kitab çap olunmalı idi. Digər tərəfdən düşünürəm ki, o dövrdə mənim kimi müəlliflər bu kitabı yazsaydı, sovet senzurası çox hissələri çıxarardı”, – **deyən Əli Şamil qeyd etdi ki,** Məhəmmədsadıq Aran milli mücadilə tariximizdə böyük rolu olan şəxsiyyət idi.

**Millət vəkilləri Hikmət Babaoğlu, Məlahət Həsənova, Azay Quliyev, Vüqar İsgəndərov** M.Aranın mübarizliyindən və əsərlərindəki milli ruhdan bəhs etdilər.

Toplantıda çıxış edən ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Nağıqızı Azərbaycan Cümhuriyyətinin dövlətçilik irsindən bəhs etdi. Zəngəzurun Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğundan və sovet hakimiyyətinin bu qədim türk yurdunu Ermənistana bağışlamasının fəsadlarından danışdı. Mahirə Nağıqızı M.Aranın Cümhuriyyət dövründə və onun süqutundan sonra ardıcıl fəaliyyəti ilə tariximizin parlaq şəxsiyyətlərindən biri olduğunu qeyd etdi və onun haqqında kitabın nəşrini yüksək qiymətləndirdi.

**Kitabı nəşrə hazırlayan Elməddin Behbud** əsərin çapı və təqdimat mərasiminin təşkilinə verdikləri dəstəyə görə başda Zahid Oruc olmaqla, STM-in kollektivinə təşəkkürünü bildirərək dedi ki, bu nəşrdə M.Aranın mühacirət dönəmindəki çoxsaylı yaradıcılıq nümunələrinin bir qismi – “İran türkləri”, “Ergenekon yolları” olmaqla iki kitabı və onlarla məqaləsi ilk dəfə olaraq Azərbaycan dilinə uyğunlaşdırılıb və oxucuların ixtiyarına verilib.

**Tədqiqatçı Nazir Əhmədli, STM-in sektor müdiri Əfqan Vəliyev, “Füyuzat” jurnalının rəhbəri Mübariz Yunus və digərləri** kitabın Azərbaycan Cümhuriyyəti və mühacirət dövrünün öyrənilməsi baxımından qiymətli mənbə olduğunu vurğuladılar.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

# Tələbələrin sonsuzluq axtarışı

**“Sonluqdan sonsuzluğa” adlanan sərgi YARAT Müasir İncəsənət Məkanının dəstəyi ilə XX–XXI əsr Azərbaycan Rəngkarlığı Muzeyində təşkil olunub. Burada YARAT Müasir İncəsənət Məktəbinin ikinci buraxılış tələbələrinin yaradıcılıq nümunələri sərgilənir.**



Qeyd edək ki, bir il ərzində məktəbdə incəsənətin fundamental istiqamətləri üzrə multidisiplinar rassamlıq, incəsənət menecerləri, kuratorlar və tədqiqatçılar üçün nəzəri-təcrübi təhsil proqramları uğurla başa çatıb və yekun olaraq, 30 tələbə 4 fərqli buraxılış layihəsi hazırlayıb.

Bu, əsl rəngarəng multimedia şousudur. Sərgi tələbə art-menecerlərin təşkilatçılığı ilə tələbə kuratorların və rəssamların bədii ifadələrini bir araya gətirir. Ekspozisiyanı formalaşdıran layihələrin mərkəzində Müasir İncəsənət Məktəbin rəhbəri Sabina Şıxlinskayanın “Sonluğu sonsuzluğa çevirmək cəhdi ilə üfüqə doğru hərəkət” konsepsiyası dayanır. Müasir texnologiyaların imkanları seyrçilərin dünyanı müxtəlif baxış bucaqlarından görməsinə şərait yaradır. Təqdim olunan əsərlər yaradıcı təxəyyülün bugünün sərhədlərini gələcəyin üfüqlərinə qədər genişləndirməsi məramını göstərir.

Sərgi fevralın 2-dək davam edəcək.

*XQ*

# Şuşanın mədəni irsinə vurulan yaralar sağaldılır

**Hər bir xalqın mədəni, kulturoloji irsi qərinələr, əsrlər boyu təkcə paytaxt və iri şəhərlərdə deyil, eləcə də bölgələrdə formalaşaraq inkişaf edir. Bu irsin hərtərəfli araşdırılaraq sonrakı nəsillərə bir mənəvi sərvət olaraq ötürülməsinin böyük əhəmiyyəti var. Xalq yalnız öz tarixi keçmişinə, milli-mənəvi dəyərlərinə hörmət və ehtiram bəsləməklə, özünün tərəqqi və intibahını təmin edə bilər.**



Azərbaycan Turizm və Menecment Universitetinin professoru, tarix elmləri doktoru Minaxanım Əsədli son illər ölkəmizin ayrı-ayrı bölgələrinin, xüsusilə Şuşanın kulturoloji irsinin öyrənilməsi istiqamətdində dəyərli araşdırmalar aparır. Təqdirəlayiq haldır ki, kulturoloq alim bu xeyirxah missiyaya tələbələrini də cəlb edibdir. Professor hesab edir ki, Vətəni sevdirmək üçün, ilk növbədə onu gənc nəsillərə yaxından tanıtmaq lazımdır.

**Bu günlərdə professor Minaxanım Əsədli ilə redaksiyamıza təşrif buyurmuşdu. Söhbətə zamanı tariximiz, mədəniyyətimiz barədə maraqlı fikir və mülahizələrini dilə gətirdi. Professor bölgələrin kulturoloji irsinin öyrənilməsinin əhəmiyyəti barədə danışarkən isə əvvəlcə bunları dedi:**

–Azərbaycanın bütün bölgələrinin kulturoloji irsini öyrənmədən xalqımızın qədim və zəngin mədəniyyətə sahib olmasını sübut edə bilmərik. Çünki sovet hakimiyyəti illərində digər xalqların mədəniyyətləri kimi, bizim mədəniyyətə də Kreml rəhbərliyi tərəfindən birtərəfli münasibət bəslənilmiş, yalnız sovet ideologiyasının təbliği istiqamətində təhlillərə icazə verilmişdi.

Bu gün müstəqil Azərbaycanın qədim və zəngin mədəniyyətinin bütün sahələrinin həqiqətdə olduğu kimi, təhrif edilmədən öyrənilməsinə və təbliğ olunmasına ehtiyac var. Xüsusən də düşmən tapdağından azad edilmiş ərazilərin həm maddi, həm də mənəvi irsinin araşdırılmasına zərurət yaranmışdır.




Azərbaycanın digər bölgələri kimi, Qarabağın da özünəməxsus qədim mədəniyyəti var. Tarix boyu bu bölgə haqqında dəyərli fikirlər tarixi mənbələrdə, xüsusilə tanınmış səyyahların əsərlərində yer almışdır. Qarabağın həm təbiətinin füsunkar gözəlliyi, həm də yerli sənətkarların istedad və qabiliyyətləri, onların hazırladıqları nəfis əl işləri diqqət mərkəzində olmuşdur.

Qarabağın ən gözəl, ən cazibədar şəhərlərindən olan, haqlı olaraq "Milli mədəniyyətimizin tacı" adlandırılan Şuşanın kulturoloji irsini öyrənərkən məlum olur ki, burada milli mədəniyyətimizin bütün istiqamətləri inkişaf etmişdir. Konkret bir faktı yada salaq. Hələ 1883-cü ildə Molla Vəli Qarabağı tərəfindən Şuşada dini musiqi məktəbi yaradılmışdır.

Bu məktəbdə xanəndəlik, muğamları ifa etmək qaydaları, musiqi nəzəriyyəsi, tar, kaman dərsləri tədris olunurdu. Bununla yanaşı, burada dini elmlər, görkəmli şair və alimlərin əsərləri öyrədilirdi. Məktəbin məzunları sonradan el arasında yaxşı musiqişünas, kamil ədəbiyyatçı kimi tanınırdılar. Müqayisə üçün bildirək ki, o tarixi dönəmdə şərq ölkələrində belə nümunələr, demək olar ki, yoxdur, yaxud çox azdır.

Fəxrlə qeyd etmək lazımdır ki, XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın mədəniyyət mərkəzinə çevrilmişdi. Burada yaşayıb-yaratmış ensiklopedik biliyə sahib alim, tarixçi, xəttat, rəssam, ədəbiyyatşünas, astronom, şair, musiqişünas Mir Möhsün Nəvvabın adını xüsusi çəkmək kifayətdir. Onun Şuşanın kulturoloji inkişafında danılmaz xidmətləri olubdur.

Məşhur yazıçı Aleksandr Düma 1859-cu ildə Parisdə nəşr etdirdiyi üç cildlik "Qafqaz səyahətinin təəssüratları əsəri"ndə ölkəmiz, eləcə də Şuşa haqqında maraqlı fikir və düşüncələrini qələmə almışdır. Dünya şöhrətli ədib azərbaycanlıların mədəniyyətə sahib olmalarından, Xan qızı Natəvanın fransız dilində sərbəst danışmasından, onun şahmat oyununu mükəməl bilməsindən həvəslə bəhs etmişdir.

Tanınmış musiqişünas V.Vinoqradov isə Şuşanın Azərbaycanın mədəniyyəti tarixindəki xüsusi əhəmiyyətini qeyd edərək yazmışdır: "Şuşa şəhəri gözəl təbiət mənzərələri hər il səyyahları özünə cəlb edir, yaşıllıqlara qərq olmuş dağlar yolçuları valeh edir. Lakin Şuşadan alınan estetik təəssürat bununla qurtarmır. Burada həmişə xalq mahnılarını, xanəndələri, çalğıçıları dinləmək və rəqslərə baxmaq olar. Şuşa uzun zamanlardan bəri musiqi mərkəzi kimi tanınmış və xalq musiqi istedadlarının məktəbi kimi Zaqafqaziyada şöhrət qazanmışdır".

Mədəniyyətin inkişafında Şuşada yaşayan zəngin şəxslərin də rolu az olmayıb. Onlardan biri də öz şəxsi vəsaiti hesabına şəhərdə teatr binası inşa etdirən H.A.Xandəmirov idi. Teatr binası araya-ərsəyə gələndən sonra şəhərdə böyük konsertlər, tamaşalar göstərilməyə başlanıldı. Təsadüfi deyidir ki, dahi ingilis dramaturqu Vilyam Şekspirin "Otello" faciəsi ölkəmizdə ilk dəfə Şuşada oynanılmışdı.

Şuşanın "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırılması heç də təsadüfi deyildi. Axı, Şuşa dahi Üzeyir Hacıbəylinin, məşhur vokalist Bülbülün, görkəmli bəstəkar Süleyman Ələsgərovun və onlarla digər böyük sənətkarların, Azərbaycan və dünya musiqi mədəniyyəti tarixində ad və iz qoymuş şəxsiyyətlərin vətənidir.

Sovet dövründə də Şuşa öz tarixi-mədəni inkişafını davam etdirmişdir. Məsələn, 1977-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir. Həmin sənədin icrası sayəsində şəhərdə abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi və s. mühüm məsələlərin müsbət həlli mümkün olmuşdur.

Şuşanın işğalına qədər burada yüzlərlə tarixi memarlıq abidəsi, o cümlədən Pənahəli xanın sarayı, Xurşidbanu Natəvanın evi, Molla Pənah Vaqifin məqbərəsi, uşaq bağçaları, orta məktəblər, mədəni-maarif və kənd təsərrüfatı texnikumları, musiqi məktəbi, mədəniyyət evləri, klublar, kitabxanalar, kinoteatrlar, muzeylər fəaliyyət göstərirdi.

Həmçinin Şuşada Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və Xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, Turist bazası, Şərq musiqi alətləri fabriki mövcud idi. Eyni zamanda şəhərdə dahi Üzeyir Hacıbəyli, müğənni Bülbülün, ensiklopedik alim Mir Mövsüm Nəvvabın xatirə muzeyləri və digər mədəniyyət müəssisələri var idi.

Məlumdur ki, 1992-ci ilin mayında Şuşa təcavüzkar Ermənistanın Silahlı Qüvvələri tərəfindən işğal edilmişdi. Şəhər, acı təəssüf ki, 28 il ərzində düşmən əsarətində qalmışdır. Ermənilər Şuşadakı mədəni tarixi abidələrimizə qarşı vandalizm siyasəti yürütmüş, yuxarıda adları çəkilən bütün abidələr, binalar, evlər dağıdılmış, yerlə-yeksan olunmuşdur. Bütün bu ağrı-acılar, təbii ki, hər birimizin ürəyimizin ürəyini sızladırdı.

Amma heç vaxt ümidimizi itirməmişdik. Ermənilərin Şuşada, Qarabağda törətdikləri qanlı cinayətlər cəzasız qala bilməzdi. Azərbaycan xalqı heç bir vəchlə bu halla əbədi barışa bilməzdi. Nəhayət, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi və qalib ordumuzun şücaəti ilə 2020-ci il noyabrın 8-də Şuşa işğaldan azad olunmuşdur. Bu şanlı qələbə xalqımızın tarixində əbədi qürur mənbəyi kimi qalacaq!

**Professor M.Əsədli sonda Şuşanın müasir mədəni həyatı barədə də söz açaraq dedi:**

–Son 4 ildə möhtərəm Prezidentimiz İlham Əliyevin təşəbbüs və göstərişləri, imzaladığı sərəncamlar əsasında Qarabağda işğaldan azad olunmuş bütün ərazilərdə yüksək səviyyədə tikinti-quruculuq işləri başlanmışdır. Hazırda Şuşanın tarixi siması böyük şövq və zövqlə bərpa olunur, şəhər müasirləşir, gözəlləşir.

Bu gün Şuşa yerli və əcnəbi turistlərin sevə-sevə ziyarət etdiyi mədəni məkanlardan biridir. Yuxarı Gövhər ağa məscidi və Aşağı Gövhər ağa məscidi bərpa edilir, Molla Pənah Vaqifin məqbərəsi, Üzeyir Hacıbəyli və Bülbülün ev muzeyləri isə artıq ziyarətçilərini qəbul edir. Bütün bunları görüb müşahidə edərkən adamın qəlbi-ruhu sevinir.

Xatırladım ki, 1983-cü il iyulun 29-da Şuşa şəhərində Bülbülün anadan olduğu və uşaqlıq illərini keçirdiyi evdə ev-muzeyinin təntənəli açılışı olmuşdur. Şuşanın işğaldan azad olunmasından sonra cənab İlham Əliyev Şuşaya birinci səfəri zamanı Bülbülün dağıdılmış ocağına gəlmişdir. Evin mövcud vəziyyəti ilə tanış olmuş, həyətdə yerləşən Bülbülün dağıdılmış büstünü vandalizmin nümunəsi olduğunu vurğulamışdır.

Qısa müddət sonra, daha dəqiq desəm, 29 avqust 2021-ci il tarixində muzeyin rəsmi açılışı olmuş, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak etmişlər. Yenidən qurulan muzeyin həyətində Bülbülün qranitdən yeni büstü qoyulmuşdur. Bülbülün "Güllələnmiş büst"ü erməni vandalizminin nümunəsi kimi saxlanılır.

Şuşa bu gün bütün türk dünyası Şuşa ilə haqlı olaraq qürur duyur. Təsadüfi deyil ki, 2023-cü ildə Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" olmuşdur. 2024-cü ildə isə Şuşanın "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi bütün müsəlman dünyasının Azərbaycanın zəngin kulturoloji irsinə olan yüksək diqqət və rəğbətinin təzahürüdür.

*Söhbəti qələmə aldı:*
***Məsaim ABDULLAYEV***
***XQ***

**"Bizim iqtisadi təhlükəsizlik üçün onlara ehtiyacımız var ... Panama kanalı ölkəmiz üçün vacibdir. Onu Çin idarə edir. Biz kanalı Çinə yox, Panamaya verdik". Bu sözləri ABŞ-nin yeni seçilmiş prezidenti Donald Tramp Floridadakı Mar-a-Laqo şəhərciyində keçirdiyi mətbuat konfransında deyib.**

# Trampın Qrenlandiya və Panama açıqlaması

## *Superdövlətin təhlükəsizliyi ilə bağlı növbəti hədəflər*



Bununla belə, Tramp Çinin kanalın idarə olunmasına birbaşa müdaxiləsinə dair sübut təqdim etməyib. Qrenlandiya ilə bağlı Tramp əlavə edib ki, Danimarka adadakı hüquqlarından imtina etməlidir: "Çünki ABŞ milli təhlükəsizlik məqsədləri üçün bu ada lazımdır... Onları Amerikaya birləşdirmək üçün hərbi və iqtisadi təzyiqlərdən istifadə etməyəcəyimə zəmanət verə bilmərəm".

Xadırladaq ki, ABŞ və Danimarka münasibətlərində ərazi verilməsi ilə bağlı presedent var. 1917-ci ildə Krallıq Karib dənizindəki Virgin adalarını 25 milyon dollara ABŞ-a satıb (2025-ci il qiymətləri ilə bu, 700 milyon dollardır).

Bəs Qrenlandiya ABŞ üçün niyə bu qədər qiymətlidir? Qrenlandiya, sadəcə dünyanın ən böyük adası deyil. Sərt buzlar ilə örtülmüş ada həm Arktikaya qapı, həm də zəngin xammal mənbəyidir.

Trampın Qrenlandiyaya marağı birinci prezidentlik dövründən başlayıb. Lakin o vaxt bəyanatları indiki kimi açıq şəkildə, hərbi güc tətbiq etmək ehtimalı ilə müşayiət olunmayıb. Hazırda vəziyyət dəyişib. Bu, son illərdə iqlim dəyişikliyi ilə birbaşa bağlıdır. Qrenlandiya son dərəcə zəngin yeraltı sərvətlərə malikdir. Buzların tədricən əriməsi neft hasilatı və nadir torpaq mineralları üçün qazma işlərinin artırılmasına imkan verir. Bu, ABŞ-a "yaşıl enerji" və rəqəmsal keçidi dəstəkləmək üçün lazımdır.

Bundan başqa, Qrenlandiya Şimal dənizində yerləşdiyinə görə əhəmiyyətli ticarət üstünlüklərinə malikdir. Amerikanın Şərq Sahili ilə Asiya arasında ən qısa marşrutu təmin edən Şimal–Qərb keçidi buz örtüyünün azalması ilə gələcəkdə gəmiçilikdə önəmli rol oynaya və Vaşinqtona geosiyasi üstünlük qazandıra bilər. Eyni zamanda, bu, Rusiya və Çinin təsir dairəsini məhdudlaşdırar. Tramp üçün geosiyasi vəziyyəti tamamilə dəyişə biləcək bir şahmat gedişi kimi görünür. O, bu adanı "Amerikanın gələcəyi üçün kritik element" adlandırır.

Bundan başqa, ABŞ-ın Kosmik Qüvvələrinin Qrenlandiyanın şimalında bazası var. Baza ABŞ və Danimarka Krallığı arasında imzalanmış müdafiə müqaviləsi çərçivəsində fəaliyyət göstərir. Pitufik kosmik bazası raket hücumu xəbərdarlığı, raketdən müdafiə və kosmik müşahidə missiyalarını təmin edir.

Ada qar və buzla örtülmüş möhtəşəm təbiəti, dağları, tundrası və heyvanları ilə turistlər üçün də cəlbedicidir.

Beləliklə, Qrenlandiya gözəl təbiəti ilə yanaşı, gələcək illərdə qlobal siyasətin əsas gündəm mövzularından birinə çevrilir. ABŞ üçün bu ada Şimali Atlantika alyansını qoruyan bir dayaq və eyni zamanda, təbii sərvətlərin tükənməz mənbəyidir.

Yuxarıda qeyd etdiyimiz kimi, Trampın toxunduğu məsələlərdən biri də Panama kanalı ilə bağlıdır. O, açıqlamasında Çinin Panama kanalına nəzarət etməsinə icazə verməyəcəyini bildirib: "Hazırda onlarla (Panama hakimiyyəti) Panama kanalını müzakirə edirik. Kanalla bağlı "müqavilənin hər bir bəndi" pozulub. Bizim gəmilərdən daha çox vəsait alırlar. Çin isə Panama kanalına nəzarət edir. Bu, baş verməyəcək".

Bundan əvvəl Tramp bildirib ki, ABŞ Panama kanalından mövcud istifadə şərtlərinə yenidən baxılmayacağı təqdirdə nəzarətin qaytarılmasını tələb edə bilər: "Panama daha loyal olmalıdır".

Qeyd edək ki, ABŞ üçün Panama kanalı qlobal strategiyanın həyati əhəmiyyətli daşıyan bir hissəsidir. O, Atlantik və Sakit okeanlar arasında sürətli əlaqəni təmin edir və həm hərbi, həm də ticarət donanması üçün vacib halqadır. 1999-cu ildə kanalın Panamaya təhvil verilməsinə baxmayaraq, ABŞ təsirini tam olaraq itirməyib.

Kanal gəlirlərindən və beynəlxalq investisiyalardan güclü asılılıq Panamanı ABŞ-ın təzyiqlərinə qarşı zəif vəziyyətdə qoyur. İkinci tərəfdən, ABŞ Çinin artan hüfuzunu zəiflətmək istəyir. "Baku Network" nəşri bu barədə yazıb: "Çin üçün Panama kanalı sadəcə su yolu deyil. Bu, Latın Amerikasındakı iqtisadi genişlənməsini qlobal logistika zəncirləri ilə birləşdirən mühüm bir həlqədir. Çin artıq bu regiondakı limanlara və infrastruktur layihələrinə milyardlarla dollar sərmayə qoyub ki, bu da Vaşinqtonda narahatlıq doğurur. Panama isə bir tərəfdən Çin investisiyalarından faydalanır, digər tərəfdən isə ABŞ-ın təzyiqləri ilə üzləşir".

Bu arada Donald Tramp Kanadanın ABŞ-a qoşulacağı təqdirdə ölkənin necə görünəcəyini göstərən xəritə dərc edib. Bundan əvvəl, Tramp bir çox kanadalıların öz ölkəsinin ABŞ-ın 51-ci ştatı olmasını dəstəklədiyini deyib. Tramp hesab edir ki, belə birləşmə bu ölkəyə təkcə iqtisadi sabitlik gətirməyəcək, həm də onu Rusiya və Çin gəmilərindən gələn xarici təhlükələrdən qoruyacaq. Bundan sonra, Kanadanın baş naziri Castin Trüdo ölkəsinin heç vaxt ABŞ-ın 51-ci ştatı olmayacağını bildirib və sonra istefa verib.

Bu, xarici mətbuatda onun zəifliyi, müstəqil siyasət aparmaq iqtidarında olmadığı və Kanada iqtisadiyyatının böhran keçirdiyi kimi qiymətləndirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bildirib: "Müstəqil siyasət aparmaq iqtidarında olan ölkələrin sayı da o qədər də çox deyil. Baxın, indi yenə də Kanadaya qayıdırıq. Trampın bir sözü ilə Kanadanın Baş naziri istefaya getdi. Axı, Kanada Azərbaycandan 10 dəfə çox neft hasil edir - 300 milyon ton və əhalisi də cəmi 40 milyondur. Yəni 300 milyon ton, əgər başqa iqtisadiyyat olmasa belə, 40 milyonu 300 milyon tonla yola vermək olmaz? Görün, bunların iqtisadiyyatı nə qədər bərbad vəziyyətdədir ki, Amerika əgər onlara əlavə rüsum tətbiq etsə, bunun iqtisadiyyatı çökəcək və cənab Tramp deyəndə ki, Kanada 51-ci ştat olmalıdır və cənab Trüdo qubernator olmalıdır, bu, əlbəttə trolling kimi sayıla bilər. Amma, əslində, bu sözlərdə bəlkə də məntiq var. Yəni mən nəyi deyirəm, baxın Avropa ölkələrinə, onlar güc mərkəzlərindən nə qədər asılıdır və bəzən başqa faktorlardan. Ona görə müstəqil siyasət aparmaq iqtidarında olan ölkələr çox deyil. Ona görə bizim bu sahədəki siyasətimiz haqlı olaraq bizə rəğbəti daha da artırır və mən əminəm ki, yeni dünya nizamı tam formalaşma prosesinə düşəndə, o cümlədən Azərbaycanın mövqeyi də nəzərə alınacaq, ən azı Cənubi Qafqazda və Xəzər hövzəsində və biz buna hazır olmalıyıq.

... Zəif ölkələrə yad dəyərlər, mənfi dəyərlər aşılanır. Zəif deyəndə, ölkə zəif ola bilməz. Liderlər əgər zəifdirlərsə, onda ölkə zəif sayılır. Ona görə biz bu işə öz gündəliyimizlə hazırıq, gündəliyimiz də var. Yəni ki, bizim siyasətimiz artıq bunu göstərir və yenə də deyirəm, bu işə bizim töhfəmiz əhəmiyyətli olacaq".

Beləliklə, Trampın bəyanatları tarixdə qalmağın bir yoludur və onun üçün ilk növbədə ABŞ-ın "arxa həyətində" asayişi bərpa etməyin vacib olduğunu göstərir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 06 (30700) 12 yanvar 2025-ci il, bazar

İdman

## Minifutbol klublarımızın reytinqi

**Azərbaycan minifutbol klublarının 2025-ci il üçün reytinq cədvəli müəyyənləşib.**




Siyahını Azərbaycan Minifutbol Federasiyası tərtib edib.

Ölkə çempionatında çıxış etmiş klubların reytinqinə son illərin dəyişməz çempionu "Birbaşa Bakı" başçılıq edir. 2-ci sırada isə onların əsas rəqibi "Zirə"dir. Digər favorit komandalardan "Aznur" və "Qalaksi" müvafiq olaraq 3-cü və 4-cü pillələrdə qərarlaşıblar.

## Xorvatiya ilə futzal oyununun hakimləri

**Futzal üzrə Avropa çempionatının əsas mərhələsi çərçivəsində keçiriləcək Xorvatiya–Azərbaycan oyununa hakim təyinatları açıqlanıb.**




Azərbaycan Futzal Federasiyasının məlumatına görə, matçı Moldova və Estoniyadan olan hakimlər idarə edəcək.

Görüşün birinci hakimi Viktor Buqenko (Moldova), digərləri isə Qriqori Oşomkov və Yaqnar Yakobson (Estoniya) olacaq. Stefan Kammerer (Almaniya) isə qarşılaşmanın UEFA nümayəndəsi kimi fəaliyyət göstərəcək.

Yanvarın 31-də Pula şəhərində yerləşən "Mate Parlov"da keçiriləcək qarşılaşmaya Bakı vaxtı ilə saat 22:15-də start veriləcək.

*L.QURBANOVA*
*XQ*


## OXUCULARIN NƏZƏRİNƏ!

### "Xalq qəzeti"

***2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!***




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## "Ağıllı üzük"

**Cənubi Koreyaya məxsus "Viv Health" şirkəti "CES 2025" sərgisində süni intellektlə təchiz olunmuş yeni nəsil ağıllı üzüyü – "Viv Ring" i təqdim edib. Bu aksesuar yuxu keyfiyyətini artırmaq üçün "yuxugətirici səslər" texnologiyası ilə təchiz olunub.**




Okean dalğaları, sakit meşələrdə yağan yağış, quş səsləri ilə əhatə olunmuş bu əşya ürəyin döyünmə sürətini, stresə davamlılığını ölçür və təhlil edir. O, həmçinin istifadəçilərə sağlamlıq göstəricilərini asanlıqla öyrənməyə kömək edir. Şirkət yaxın gələcəkdə üzüyün ən üstün – qan təzyiqini ölçə bilən modelini təqdim etməyi planlaşdırır.

Qeyd edək ki, Las-Veqasda ilin ən böyük "CES 2025" texnologiya sərgisi keçirilib. Sərgidə 160-dan çox ölkədən qonaq iştirak edib.

"CES 2025" in əsas fəaliyyət istiqamətləri süni intellekt, robototexnika, daşınan qurğular, rəqəmsal səhiyyə, nəqliyyat, kibertəhlükəsizlik, eləcə də gözəllik və moda sahəsində olan texnologiyalardır.

*S.FİDAN*
*XQ*

Yaşıl adalar

## Dağların mavi gözü



**Dumanlı dağların yaşıl qoynunda**
**Bulmuş gözəllikdə kamalı Göygöl!**
**Yaşıl gərdənbəndi gözəl boynunda**
**Əks etmiş dağların camalı Göygöl!**

Hörmətli oxucular, bu gözəl misralar məşhur şair, repressiya qurbanı Əhməd Cavadın 1918-ci il aprelin 11-də qələmə aldığı məşhur "Göygöl" şeirindəndir. Lakin budəfəki söhbətimiz təkcə "gözəllər-gözəli" Göygöl barədə deyil, həm də bu bənzərsiz gölün də ərazisinə daxil olduğu Göygöl Milli Parkı haqqındadır.

Göygöl təbiətinin gözəlliyi sayəsində daim diqqəti özünə cəlb etmişdir. XX əsrin əvvəllərində, 1910–1912-ci illərdə ərazidə qoruq yaradılması məsələsi qaldırılmışdır. 1925-ci ildə Azərbaycan Respublikasının ərazisində ilk qoruq olan Göygöl Dövlət Təbiət Qoruğu yaradılmışdır. Sonralar qoruq ləğv edilmiş və ictimaiyyətin arzu və təkliflərinə əsasən Azərbaycan SSR Nazirlər Sovetinin 14 iyul 1965-ci il tarixli 475 nömrəli qərarına əsasən yenidən təşkil edilmişdir.

Azərbaycan Prezidentinin 1 aprel 2008-ci il tarixli sərəncamına əsasən Göygöl Dövlət Təbiət Qoruğunun və Xanlar (indiki Göygöl), Daşkəsən və Goranboy rayonlarının inzibati ərazilərində Göygöl Milli Parkı yaradılmışdır. Milli Park statusu aldıqdan sonra ərazisi artırılaraq 12 min 755 hektara çatdırılmışdır.

Qeyd etmək lazımdır ki, Göygöl Milli Parkı zəngin bitki örtüyünə malikdir. Burada dağ-meşə, dağbozqır, subalp və alp dağ-çəmən bitki ekosistemləri yayılmışdır. 1100–2200 metr hündürlükləri əhatə edən dağ meşələri çox zəngin olub, 80-ə qədər ağac və kol növünə malikdir.

Meşələrin əsas hissəsini kiçik yarpaqlı ağaclardan şərq fıstığı, şərq palıdı, Qafqaz vələsi, tozağacı, adi göyrüş, ağcaqayın, cökə, iynəyarpaqlı ağaclardan isə Kox şamı təşkil edir.

Kol bitkilərindən zoğal, zirinc, itburnu, əzgil, gərməşov, böyürtkən və s. yayılmışdır. Ot bitkilərindən Qafqaz bənövşəsi, alp dişəsi, Steven zəncirotu, zəngçiçəyi, çobanyastığı, şırımlı topal, ağbığ, qırtıc və s. göstərmək olar. Bu növlər ən çox subalp çəmənliyində yayılmışdır.

Tədqiqatçılar hesab edirlər ki, milli parkın ərazisinin 2 min metrə qədər hündürlüyü əhatə etməsi, müxtəlif bitki formasiyalarının bir-birini əvəz etməsi heyvanlar aləminin də xeyli zənginliyinə şərait yaratmışdır. Burada məməli heyvan növlərindən Qafqaz maralı, Avropa cüyürü, qonur ayı, dağ keçisi, porsuq, meşə pişiyi, vaşaq, daşlıq dələsi, gəlincik, adi kirpi, tülkü, quş növlərindən bildirçin, meşə göyərçini, adi qur-qur, meşə, göl qağayısı, saqqallı quzugötürən, qara kərkəs, leşyeyən ağkərkəs və s. yayılmışdır. Milli parkın ərazisində nadir növlər olan Qafqaz maralı qorunur.

Göygöl Milli Parkında təbiət gözəlliyinin rəngarəngliyi, bitki və heyvanlar aləminin zənginliyi ekoturizm fəaliyyətinin təşkili və inkişafına, o cümlədən, əraziyə böyük sayda yerli və xarici turistlərin cəlb edilməsinə şərait yaradır. Son illər bura təşrif buyuran yerli və turistlərin sayı durmadan artır. Onların çoxu sonra hər yerdə fəxrlə deyirlər: Mən Göygölü öz gözlərimlə görmüşəm!

Həqiqətən, Göygölün bənzərsiz gözəlliyi dillər əzbəridir. Onu təkcə sözlə vəsf etmək azdır, bu barədə söz düşəndə bu yerlərə həsr olumuş tanış mahnı və melodiyalar canlanaraq ruhumuza zövq və qida verir.

Dahi bəstəkar Fikrət Əmirovun görkəmli şair Teymur Elçinin sözlərinə bəslədiyi "Göygöl" mahnısı isə fikrimcə, son onillərin ən gözəl bəstələrindən biridir:

**Göygöl, Göygöl,**
**Elimin gözəl qızı.**
**Göygöl, Göygöl,**
**Könlümün vurğun qızı...**

*M.HACIXANLI*
*XQ*

Sağlamlıq

## Soda – xatalı sövda

**İnsanlar alternativ müalicə kimi internetdə çox yayılan sodalı reseptlərə meyillidir. Soda məişətdə–mətbəxdə geniş və daim işlədilməsi ilə yanaşı, uzun illərdir ki, həm də mədə qıcqırması, göynəməsi zamanı istifadə edilir.**



Lakin bu vasitə nə qədər təriflənsə də, daxilə qəbul üçün məsləhət görülmür.

Qastroentereloq Oksana Levina jurnalistlərə açıqlama verərkən sodanın qida borusu xərçəngi riskini artırdığını bildirib. Həkim deyib ki, soda vasitəsilə öskürək, mədə yanması və ya həzm problemini həll etmək və onu tez-tez, hətta suda söndürüb içmək qida borusunun selikli qişasında iltihab prosesi yaradır.

Soda düşdüyü mühitdə, həqiqətən, qələvi təsir edir, həmin an yanmanı sanki alova köpük səpilmiş kimi söndürür. Amma sonradan mədədə buna alışqanlıq yaranır və mədə daha çox turşu hasil etməyə başlayır.

O.Levina diqqətə çatdırıb ki, turşu istehsalının çoxluğu simptomların intensivliyini artırır: "Bu da erroziyalı ezofagitə (qida borusunun daralması) və hətta qida borusu barretasına (qida borusunun aşağı hissəsinin selikli qişasının, yastı hüceyrəli epitelisinin slindrik epitellə əvəz olunması nəticəsində əmələ gələn ağırlaşma hesab olunan qazanılmış xəstəlik) səbəb ola bilər. Bu proses isə gələcəkdə onkologiyaya qapı açmaqdır. Ona görə lazım oldu- olmadı, suya soda qatıb, xüsusilə, acqarına içmək olmaz".

*Z.HÜSEYNLİ*
*XQ*

Hava



## Yağmursuz və dumanlı bazar günü

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən,yanvarın 12-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.

Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şimal-qərb küləyi əsəcək. Gecə 4-7° , gündüz 7-11° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 766 mm civə sütununa yüksələcək,nisbi rütubət 75-85 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək.

Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1° şaxtadan 4°-dək isti, gündüz 10-14° isti, dağlarda gecə 2-6° şaxta, gündüz 4-9° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

## Naxçıvanda kimya olimpiadası

**Dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə VIII–IX sinif şagirdləri arasında dünyaşöhrətli kimyaçı alim, akademik Yusif Məmmədəliyevə həsr olunmuş kimya və biologiya fənləri üzrə II Kimya-Biologiya Olimpiadasının rayon turu keçirilib.**




Nazirliyin mətbuat xidmətindən mətbuata bildirilib ki, 8 mərkəzdə keçirilən olimpiadada məktəb turunda qalib olan 535 şagirddən 94 faizi iştirak edib. Şagirdlərə 30 sual təqdim olunub və 3 saat vaxt ayrılıb.

Olimpiadanın məktəb, rayon və muxtar respublika olmaqla, 3 turdan ibarət təşkili nəzərdə tutulub. Rayon turunda qalib olan şagirdlər fevralın 8-də keçiriləcək muxtar respublika turuna vəsiqə qazanacaq.

Rayon mərhələsinin qalibləri diplom, təltifnamə, muxtar respublika mərhələsinin qalibləri isə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən fəxri fərman və qiymətli hədiyyələrlə təltif olunacaq.

*Lelya İLKİNQIZI,*
*tələbə-jurnalist*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2684
SİFARİŞ 12
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00